Xalqın qəzeti!

# Xalq qəzeti

№ 202 (30896) 21 sentyabr 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Uzaq Ruanda yaxın tərəfdaşımıza çevrilir

## Ruanda Prezidenti Pol Kaqamenin Azərbaycana rəsmi səfəri

### *Rəsmi qarşılanma mərasimi*



**Azərbaycan Respublikasına rəsmi səfərə gələn Ruanda Respublikasının Prezidenti Pol Kaqamenin sentyabrın 20-də Bakıda rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Ruanda Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Ruanda Prezidenti Pol Kaqameni qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Ruanda Prezidentinə raport verdi.

Ruanda Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Ruanda Prezidenti Pol Kaqamenin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.



## Azərbaycan Prezidenti Dövlət Suverenliyi Günü ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında Dövlət Suverenliyi Günü ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir:** *"20 Sentyabr - Dövlət Suverenliyi Günü".*

## Birinci vitse-prezident Mehriban Əliyevanın Dövlət Suverenliyi Günü münasibətilə paylaşımı




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Dövlət Suverenliyi Günü ilə bağlı paylaşım edib.**

**Paylaşımda deyilir:**

*"Qoy qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı bahasına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz əbədi olsun!".*

## İrəvanda gerçəkliyin etirafı mövsümü



Səhifə ⇨ 4

## Uğursuzluğa məhkum erməniçilik



Səhifə ⇨ 5

## İki supergücün Bakı "bağlantısı"

### *Azərbaycan ABŞ və Çinlə eyni vaxtda strateji əlaqələri inkişaf etdirən nadir dövlətlərdəndir*



**XXI əsrin geosiyasi mühitində kiçik və orta gücə malik dövlətlərin beynəlxalq sistemdə mövcudluğu artsa da, onların real təsir imkanlarını müəyyənləşdirən əsas amillərdən biri suveren qərarvermə və manevr qabiliyyətidir. Bu kontekstdə, Prezident İlham Əliyevin xarici siyasət kursu xüsusi diqqət çəkir. Bakı qlobal və regional güc mərkəzləri olan Qərb və Şərqlə qarşılıqlı faydaya əsaslanan, milli maraqları prioritet götürərək balanslaşdırılmış və praqmatik münasibətlər qurmaqla fərqlənir.**

(ardı 5-ci səhifədə)

# Bakı daha yaşamalı şəhər olacaq

Səhifə ⇨ 7

# Prezidentlərin təkbətək görüşü



**Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə təkbətək görüşü olub.**

# Liderlərin nahar əsnasında geniş tərkibdə görüşü



**Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə nahar əsnasında geniş tərkibdə görüşü olub.**

Görüşdə dövlət başçıları Azərbaycan ilə Ruanda arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd etdilər, ölkələrimizin iqtisadi-ticari, mədəni, humanitar sahələrdə də əməkdaşlığının buna uyğun surətdə inkişaf etdirilməsinin zəruriliyini vurğuladılar. Bu xüsusda ölkələr arasında energetika, kənd təsərrüfatı, turizm, tələbə mübadiləsi və "ASAN xidmət" təcrübəsinin Ruandada tətbiq olunması məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Söhbət zamanı, həmçinin Azərbaycanla Ruanda arasında ikitərəfli hüquq-müqavilə bazasının genişləndirilməsi məsələsinə toxunuldu.

# Ruanda Prezidenti ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



**Azərbaycanda rəsmi səfərdə olan Ruanda Respublikasının Prezidenti Pol Kaqame sentyabrın 20-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Həmçinin görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin və istedadlı həkim Tamerlan Əliyevin məzarları ziyarət olunub və məzarların önünə gül dəstələri qoyulub.

# Pol Kaqame Şəhidlər xiyabanında



**Ruanda Respublikasının Prezidenti Pol Kaqame sentyabrın 20-də Şəhidlər xiyabanını ziyarət edib.**

Ali qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən Ruanda Prezidentinə Şəhidlər xiyabanının tarixi, şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Sənədlərin mübadiləsi, prezidentlərin mətbuata bəyanatlarla çıxışı

**Sentyabrın 20-də Azərbaycan Respublikası ilə Ruanda Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Ruanda Prezidenti Pol Kaqamenin iştirakı ilə mübadiləsi mərasimi olub.**



"Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"i, "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Ruanda Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i, "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Ruanda Respublikasının Kənd Təsərrüfatı və Heyvan Ehtiyatları Nazirliyi arasında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ruandanın Xarici İşlər Nazirliyinin Regional Əməkdaşlığa məsul Dövlət naziri James Kabarebe mübadilə ediblər.







"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Ruanda İnkişaf Şurası arasında qabaqcıl dövlət xidmətlərinin göstərilməsi mexanizminin yaradılması barədə əməkdaşlığa dair Anlaşma Memorandumu"nun həyata keçirilməsi üzrə Əməkdaşlıq Proqramı"nı, "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi ilə Ruanda Respublikasının İnkişaf Şurası arasında Anlaşma Memorandumu"nu Azərbaycanın Ruandada akkreditə olunmuş səfiri Ruslan Nəsibov və Ruanda İnkişaf Şurasının Baş icraçı direktorunun müavini xanım Juliana Kangeli Muganza mübadilə ediblər.

***

Sonra Azərbaycan və Ruanda prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər.

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Əvvəlcə cənab Prezidentə Azərbaycana səfər etdiyinə görə təşəkkürümü bildirmək istəyirəm. Sonuncu dəfə biz ötən ilin noyabrında Bakıda COP29-da görüşdük və həmin vaxt mən cənab Prezidenti Azərbaycana rəsmi səfərə dəvət etdim. Çox minnətdaram ki, o, mənim dəvətimi qəbul etdi və bu gün ölkəmizdə rəsmi səfərdədir.

Əminəm ki, bu səfər ikitərəfli münasibətlərə əlavə təkan verəcək. Biz əməkdaşlığımızın müxtəlif aspektlərini artıq müzakirə etdik, tərəfdaşlığımızı dərinləşdirməkdə və genişləndirməkdə birgə iradəmizi ifadə etdik. Azərbaycan ilə Ruanda yaxşı tərəfdaş və dostlardır. Biz müxtəlif beynəlxalq təsisatlarda birgə iştirak edirik və hər zaman bir-birimizi dəstəkləyirik. Qoşulmama Hərəkatında sədrliyimiz dövründə Ruanda hər zaman bizə dəstək vermişdir. Siz bizə sədr seçilmək və sonra sədrliyimizin uzadılması üçün dəstək verdiniz. Ruanda, həmçinin Qoşulmama Hərəkatında həmrəyliyin gücləndirilməsinə yönəlmiş təşəbbüslərimizin əksər hissəsini dəstəkləmiş və ona qoşulmuşdur. Biz birmənalı olaraq BMT daxilində hər zaman fəal əməkdaşlıq edirik və bir-birimizə qarşılıqlı dəstəyi artırırıq.

Şadam ki, son illərdə münasibətlərimiz daha da nəticəyönümlü olub. Azərbaycandan Ruandaya müxtəlif nümayəndə heyətləri səfər edib. Heydər Əliyev Fondunun nümayəndə heyəti ötən il Ruandaya səfər edib və mən cənab Prezidentə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanı qəbul etdiyinə görə təşəkkürümü bildirirəm. Ölkənizin genişmiqyaslı inkişafı, xalqınızın dövlətçiliyə, müstəqilliyə bağlılığı və müstəqil siyasəti ona böyük təəssürat bağışlayıb. Məmnunuq ki, Heydər Əliyev Fondunun ölkənizdə təhsil proqramlarını dəstəkləmək şansı oldu. Yeri gəlmişkən düşünürəm ki, bu sahə ikitərəfli münasibətlərimizdə prioritetlərimizdən biri olmalıdır. Mən cənab Prezidentin səfərindən əvvəl bəzi məlumatlara baxdım və gördüm ki, Azərbaycanda Ruandadan cəmi bir tələbə təhsil alır. Hesab edirəm ki, biz tələbələrin sayını artırmaq üçün birgə işləyə bilərik. Bu, Azərbaycanın dövlət təqaüdü çərçivəsində ola bilər. Əməkdaşlıq qurmaq məqsədilə Xarici İşlər Nazirliyinin nümayəndə heyəti, eləcə də "ASAN xidmət" kimi oxşar qurumun yaradılması məqsədilə dövlət xidmətləri agentliyi hesab olunan "ASAN xidmət"in nümayəndə heyəti bu il Ruandada olmuşlar. Mən bunu cənab Prezidentlə artıq müzakirə etdim.

O, Azərbaycanda həmin dövlət xidmətləri mərkəzlərindən birinə səfər edəcək və bu cür qurumun Ruandada qurulması üçün texniki və maliyyə yardımını göstərə biləcəyimiz təqdirdə çox məmnun olarıq. Bu gün biz enerji sektorunda imkanları müzakirə etdik. Hər iki ölkə bunun üzərində fəal çalışır və əməkdaşlığımızın gücləndirilməsi potensialı olan mədən işləri sahəsində də iş aparır. Bizə, sadəcə, müxtəlif səviyyələrdə daha çox təmasların qurulması, birgə biznes və investisiya imkanlarının müzakirəsi üçün biznes, eləcə də müxtəlif nazirliklərin nümayəndə heyətlərinin mübadiləsi lazımdır. Mən Ruandada sərmayə layihələrində iştirak etməyə hazır olduğumuzu vurğuladım və əminəm ki, cənab Prezidentin səfəri və müzakirələrimiz, eləcə də mətbuat konfransından sonrakı söhbətlərimiz iqtisadi və ticari sahədə tərəfdaşlıq üçün çox möhkəm zəmin yaradacaq. Bizim əla siyasi münasibətlərimiz var və bizə bütün digər sahələrdə də eyni münasibətlər səviyyəsi lazımdır.

Cənab Prezident, bizə səfər etdiyinizə görə bir daha minnətdaram və Sizə xoş səfər arzu edirəm.

***

## Prezident Pol Kaqamenin bəyanatı

– Təşəkkür edirəm, Prezident Əliyev.

İlk növbədə, məni Azərbaycana səfərə dəvət etdiyiniz üçün və həyata keçirilmiş bütün bu işlərə görə Sizə təşəkkür etmək istəyirəm. Mən iki ölkənin əməkdaşlıq edəcəyi sahələri yüksək qiymətləndirirəm.

Cənab Prezident, Ruanda və Azərbaycan arasında bir çox oxşarlıqlar var. Hesab edirəm ki, biz bu oxşarlıqları daha da inkişaf etdirə, əməkdaşlığı və tərəqqini daha da artıra bilərik. Bunların həyata keçirilməsinə razılıq verdiyiniz üçün Sizə təşəkkür edirəm. Biz artıq baş vermiş bir çox səfərləri, səyləri, müzakirələri və anlaşmaları rəhbər tutacağıq. Bunu hökumət rəsmilərinizin artıq bir neçə dəfə baş tutmuş mübadilə səfərləri və Bakıya səfər etmiş nümayəndələrimizin sayəsində edəcəyik. Biz bu əməkdaşlıq vasitəsilə nəyə nail olmaq imkanları ilə bağlı bir çox məsələləri öyrənmişik. Biz davamlı səylər göstərərək bu əməkdaşlığın hamımız üçün məhsuldar olmasını təmin etmək məqsədilə daha da böyük sürətlə fəaliyyət göstərmək istəyirik. Ölkənizi bu əməkdaşlığa açıq etdiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirirəm.

Bu əməkdaşlıq vasitəsilə Siz də qeyd etdiyiniz kimi, neft və mədən sektorunda müəyyən əsas sahələrin inkişafı üçün ölkəmizdən dəstək əldə edə bilərsiniz. Azərbaycanın ərsəyə gətirdiyi dövlət xidmətlərinin göstərilməsi mexanizmi olan "ASAN xidmət"in necə işlədiyinin şahidi olmağı səbirsizliklə gözləyirəm. Bizim sistem "ASAN xidmət" modelindən çox faydalana bilər. Mənə deyilənə görə, bu sistem, sadəcə, görünüşünə görə yox, hansı nailiyyətləri əldə etməsi və insanlara nəyi verməsi baxımından çox böyük təsir bağışlayır. Biz bu sistemin gücləndirilməsini təmin etmək istəyirik.

Sonuncu, lakin mühüm məsələ odur ki, bayaq da qeyd etdiyim kimi, cənab Prezident, mən Sizi ölkənizdə cərəyan edən bu inkişaf prosesləri münasibətilə təbrik etmək istəyirəm. Siz sülh prosesini sürətləndirəcək bir məsələ ilə məşğulsunuz. Mən Sizin ABŞ-da gəldiyiniz razılaşmanı - sülh razılaşmasını gördüm. Nəyə görə mən bu məsələni qabardıram, çünki biz də Ruanda və Konqo Demokratik Respublikası arasında özümüz üçün bir sülh sazişinə nail olmaq istəyirik. Lakin siz müəyyən hədəflərə çatmaq nöqteyi-nəzərindən bizdən irəlidəsiniz. Odur ki, mən Sizi bu münasibətlə təbrik etmək istəyirəm. Lakin, cənab Prezident, eyni zamanda, Sizə deyirəm ki, biləsiniz, Sizin Afrikada, Ruandada dostlarınız var. Ona görə də biz hər iki ölkənin rifah halının daha da sürətləndirilməsi üçün öz aramızda və ölkələrimiz arasında bu dostluq, əməkdaşlıq imkanlarından istifadə etmək istəyirik. Bir daha təşəkkür edirəm.

# Ruanda Prezidenti "ASAN xidmət"də

**Sentyabrın 20-də Ruanda Respublikasının Prezidenti Pol Kaqame Bakıda "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub.**





Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev ali qonağa Prezident İlham Əliyevin təşəbbüsü əsasında yaradılmış "ASAN xidmət" mərkəzləri və sosial innovasiyalar istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Ruanda Prezidentinə "ASAN xidmət" modeli ilə bağlı təqdimat edilib. Milli brendimiz olan ASAN-ın intellektual məhsul kimi ixracı istiqamətində 30-dan çox ölkə və beynəlxalq təşkilat ilə müqavilə imzalandığı diqqətə çatdırılıb.

Həmçinin vurğulanıb ki, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın beynəlxalq müstəvidə brendinə çevrilmiş "ASAN xidmət" konsepsiyasını ən yaxşı model kimi dəyərləndirir və dörd qitədə təşviq edir.

"ASAN xidmət" təcrübəsinin Ruanda tərəfi ilə paylaşılması məqsədilə əməkdaşlıq əlaqələri 2024-cü ilin noyabr ayında COP29-da iştirak etmək üçün ölkəmizdə səfərdə olmuş Ruanda Prezidenti ilə Azərbaycan Prezidenti arasında keçirilən görüşün yekunlarına əsasən qurulub.

Bu çərçivədə cari ilin iyun ayında Dövlət Agentliyi ilə Ruandanın müvafiq qurumu arasında Anlaşma Memorandumu imzalanıb.

*AZƏRTAC*

# XİN-in Dövlət Suverenliyi Günü münasibətilə bəyanatı



**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Dövlət Suverenliyi Günü münasibətilə yaydığı bəyanatında "2023-cü ilin 19-20 sentyabr tarixində 24 saatdan az müddətdə Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilib ölkəmizin Qarabağ bölgəsindən tamamilə çıxarılması, Azərbaycanın öz torpaqları üzərində suverenliyini bərpa etməsi tariximizin ən şanlı səhifələrindən biri olmaqla yanaşı, beynəlxalq hüquq və ədalətin təntənəsi kimi" dəyərləndirilir.**

Açıqlamada qeyd edilr ki, Azərbaycanın ərazilərinə qarşı əsassız iddialarından əl çəkməyən, beynəlxalq hüquq prinsiplərini kobudcasına pozan, təcavüz siyasətini davam etdirən Ermənistanın və onun qondarma rejiminin heç bir çərçivəyə sığmayan bu kimi davranışlarının qarşısının alınması zəruri idi: "Ermənistan tərəfinin təhrikedici səylərinə və təbliğatına baxmayaraq, antiterror tədbirləri aparıldığı zaman mülki əhali hədəf alınmadı, mülki infrastruktura zərər vurulmadı, yalnız legitim hərbi infrastruktur və obyektlər sıradan çıxarıldı. Azərbaycan əsgəri və zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq nümayiş etdirdi".

Bəyanatda daha sonra göstərilir ki, 2023-cü ildə Azərbaycanın dövlət suverenliyinin bərpasından sonra Ermənistan-Azərbaycan əlaqələrinin normallaşdırılması istiqamətində səylər daha da artırıldı. 8 avqust 2025-ci il tarixində Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin tarixi görüşündə Birgə Bəyanat imzalandı. Azərbaycan və Ermənistan sülh müqaviləsi mətnini parafladı. Bundan əlavə, Azərbaycan və Ermənistanın müraciətinə uyğun olaraq, keçmiş münaqişənin qalığı olan ATƏT-in Minsk Prosesi və əlaqəli strukturları sentyabrın 1-də ATƏT Nazirlər Şurasının qərarı ilə ləğv edildi.

Sənədin sonunda deyilir: "Vaşinqton görüşünün nəticələri Azərbaycanın irəli sürdüyü sülh gündəliyini bir daha təsdiq etdi. Bu tarixi sülh fürsətinin əldən verilməməsi, sülh sazişinin imzalanması üçün Ermənistan konstitusiyasında ərazi iddialarının aradan qaldırılması zəruridir".

*XQ*

# Fransanın "sosial dövlət" modeli niyə aşınır?

## *Hökumət çıxış yolunu sabiq baş nazirlərin imtiyazlarını azaltmaqda görür*

**Fransa hökumətinin "büdcə qənaəti" adı altında həyata keçirməyə çalışdığı tədbirlər minlərlə insanın küçələrə çıxmasına səbəb olub. İflic olmuş nəqliyyat, dərs keçilməyən məktəblər, fəaliyyətini dondurmuş xəstəxanalar sosial narazılığının real mənzərəsini əks etdirir.**

Həmkarlar ittifaqının çağırışı ilə birləşən yüz minlərlə etirazçı qənaət siyasətinin yükünün vətəndaşların çiyinlərinə yüklənməməli olduğu barədə hökumətə mesaj verib. Son məlumatlara görə, 800 min nəfərdən çox insan etiraz aksiyalarına qoşulub. Onlar əmək hüquqlarının müdafiəsi, sosial ədalət uğrunda bir araya gəliblər. Polis və nümayişçilər arasında baş verən qarşıdurmalar etirazları daha da alovlandırıb. Etirazçılar Parisdə "Eurolinks" zavodunun qarşısında barrikadalar quraraq, hökumətin ikili standartlarına etirazlarını ifadə edirlər. Nümayişlər sosial-iqtisadi tələblərlə siyasi mövqeyin bir-biri ilə uzlaşmasının təcəssümüdür. Etirazlar həm də dövlətin strateji seçimlərinə ünvanlanıb. Müxalifətin əsas simalarından olan Jan-Lyuk Melanşon daxili işlər nazirini zorakılıqları qəsdən qızışdırmaqda ittiham edib. Onun sözlərinə görə, hakimiyyət böhranı idarə etmək əvəzinə, cəmiyyət daxilində parçalanmanı dərinləşdirir. Melanşonun ittihamları hökumətin legitimlik problemi ilə üzləşdiyini göstərir. Etirazlar Prezident Emmanuel Makrona qarşı siyasi təzyiqlərə də təsir edib. Fransa liderinin populyarlığı rekord səviyyədə aşağı düşüb.




Maraqlıdır: hökumət və yenicə baş nazir təyin olunmuş Lekornu vəziyyəti necə nəzarətə götürməyi planlaşdırır? Əvvəlcə onu xatırladaq ki, son bir ildə dördüncü baş nazir olan Sebastian Lekornunun qarşısında duran daxili problemlər çox mürəkkəbdir. Həmin problemlər onun sələflərinin sonunu gətirib. Ona görə də Lekornu fərqli bir yanaşma sınamaq istəyir. O, yaranmış ictimai gərginliyi azaltmaq üçün iki tətil gününün ləğvi ilə bağlı təklifləri gündəmdən çıxarıb və keçmiş hökumət üzvlərinə ömürlük verilən imtiyazları ixtisara salıb. Baş nazir müxalifət liderləri və həmkarlar ittifaqlarının rəhbərləri ilə görüşməyə başlayıb. Amma qarşıya qoyulan tələblər həddən artıq çoxdur. Müxaliflər hökumətin zəif mövqeyindən istifadə edərək ölkə üzrə tətil və etiraz aksiyaları ilə büdcə ixtisarlarına və digər ədalətsizliklərə qarşı mübarizəni daha da gücləndirməyi planlaşdırırlar. Ümumiyyətlə, Fransa ötən il Makronun vaxtından əvvəl parlament seçkiləri çağırmasından sonra qarışıqlıq girdabındıdır. Ən böyük problemlərdən biri büdcə böhranıdır. Bu məsələ parlamentdə dərin parçalanmaya səbəb olub. Ona görə də Lekornu xalqa "başqa maliyyələşmə mənbələri tapacağına" söz verib. O, həmçinin bu həftə elan edib ki, 2026-cı il 1 yanvar tarixindən etibarən keçmiş hökumət üzvlərinə verilən ömürlük imtiyazlar ləğv olunacaq. Bu imtiyazlara keçmiş baş nazirlər üçün dövlət hesabına maşın, sürücü və polis mühafizəsi daxildir. Yeni qaydaya görə, mühafizə maksimum üç il olacaq və yalnız təhlükəsizlik səbəbi ilə uzadıla bilər. Avtomobil və sürücü isə 10 il müddətinə veriləcək. Bu qərarla hər il təxminən 4,4 milyon avroya (5,21 milyon dollar) qənaət ediləcəyi gözlənilir. Amma Lekornu unudur ki, büdcə kəsirini azaltmaq üçün həyata keçirilən tədbirlər sosial ədalətsizliyin yeni dalğasını yaradır. Bu istiqamətdə hökumətin pensiya yaşını artırması, sosial təminat xərclərinə müdaxiləsi və ictimai xidmətlərdə ixtisarların aparılması kimi tədbirlər xalqın vəziyyətini ağırlaşdırır. Fransızlar haqlı olaraq qiymətlərin artdığı, alıcılıq qabiliyyətinin sürətlə azaldığı bir zamanda "büdcə qənaəti"ni özlərinə qarşı ədalətsizlik kimi qəbul edirlər.

Əgər hökumət sosial xərclərin azaldılması xəttini davam etdirsə və bu, büdcə kəsirinin qismən azalması ilə nəticələnsə də, vətəndaşların dövlətə inamını daha da sarsıdacaq. Belə vəziyyət isə radikal qüvvələrin güclənməsi, siyasi qütbləşmənin dərinləşməsi və sosial partlayış riskinin artması ilə müşayiət oluna bilər. Maraqlıdır ki, Fransa tarixən sosial dövlət modelini kimliyinin bir hissəsi kimi qəbul edib. Bu gün həmin modelin aşınmaya məruz qalması həm siyasi sistemin legitimliyini, həm də dövlətin dayanıqlılığını təhlükəyə atır. Nəticə etibarilə, ölkənin iqtisadi problemlərinə qənaət tədbirləri ilə cavab vermək, sadəcə, maliyyə hesabatlarını balanslaşdırmaq anlamına gələ bilər. Əgər Fransa həqiqətən sabitlik və inkişaf yolu axtarırsa, sosial xərcləri azaltmaq əvəzinə, iqtisadi innovasiyalara, ədalətli vergi siyasətinə və xalqın sosial təminatına əsaslanan alternativ modellərə üz tutmalıdır.

Sonda onu da qeyd edək ki, cəmiyyətdə ictimai balansı bərpa etmək mümkündür, lakin sosial balans itdikdə heç bir büdcə ölkəni ayaqda saxlaya bilməz. Çünki dövlətin gücünü vətəndaşın etimadı müəyyənləşdirir.

*Nəzrin ELDARQIZI*
*XQ*

### Ekspert rəyi



**Sultan ZAHİDOV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**

Fransada genişmiqyaslı tətil və etirazların əsas səbəbi ölkəni son illər bürüyən siyasi və iqtisadi böhrandır. Siyasi böhranın kökü 2024-cü ildə Emmanuel Makronun Fransada yeni parlament seçkilərinin keçirilməsi barədə qərarından sonra yaranıb. Həmin seçkilər nəticəsində ölkədə parçalanmış, yəni, heç bir partiyanın mütləq çoxluğu əldə edə bilmədiyi parlament formalaşdı. Bu o deməkdir ki, parlament mərkəzçilər, sağçılar və solçular arasında bölünüb. Nəticədə qanun layihələrinin, o cümlədən büdcə layihəsinin qəbulunu həyata keçirmək olduqca çətinləşib. Bu vəziyyət tez-tez hökumət dəyişikliyinə, baş nazirlərin istefasına gətirib çıxardı. Məlumdur ki, Emmanuel Makron ötən il Mişel Barnyeni baş nazir təyin etdi, lakin o, büdcə layihəsini parlamentdən keçirə bilmədiyi üçün istefa verdi. Fransua Bayru da 2025-ci ilin büdcə layihəsini qəbul etdirə bilmədiyi üçün parlamentdə etimadsızlıq səsverməsindən sonra istefa vermək məcburiyyətində qaldı. İndi Sebasiyan Lekornu baş nazir təyin edilib. Lekornunun qarşısında çox çətin vəzifə durur. O, digər partiyalarla dialoq aparmalı, büdcə layihəsini parlamentdən keçirməlidir. Əgər bu baş verməsə, onun da hökuməti istefa vermək riski ilə üzləşə bilər.

Ölkənin büdcə kəsiri xeyli yüksəlib, dövlət borcları 3,3 trilyon avronu ötüb. Bunun əsas səbəbi yenə də ölkəni bürüyən siyasi qarşıdurmadır. Siyasi qeyri-sabitlik iqtisadi fəallığa mənfi təsir göstərir, investisiya mühiti zəifləyir və iqtisadi dinamika ləngiyir. Etirazların əsas səbəbi budur. Lekornu yeni büdcə layihəsini təqdim etməyə çalışır ki, burada dövlət xərclərinin müəyyən qədər azaldılması nəzərdə tutulub. Bu isə vətəndaşlar, xüsusilə də qatı solçuların və "Əyilməz Fransa" partiyasının rəhbəri Jan-Lük Melenşon tərəfindən etirazla qarşılanır. Bundan başqa Marin Le Penin rəhbərlik etdiyi Milli Birlik partiyası da Lekornunun baş nazirliyini qəbul etmir. Onların fikrincə, Lekornunun mövcudluğu Makronun varlığını gücləndirir və partiyalar arasında vahid mövqe olmadığından siyasi böhran daha da dərinləşə bilər. Baş nazir seçildikdən dərhal sonra Fransanın iki aparıcı sosiologiya institutunun – "Ipsos BVA" və "InfoQ"nın keçirdiyi sorğular göstərdi ki, respondentlərin böyük əksəriyyəti Lekornunu dəstəkləmir. Eyni zamanda, Makronun da populyarlığı xeyli azalıb. "Ipsos BVA"-ya görə, respondentlərin 83 faizi, "InfoQ"-ya görə isə 81 faizi Makrona qarşıdır. Bütün bunlar ölkədə etiraz aksiyalarının əsas səbəbidir. Dövlətin sosial təminat göstəricilərinin zəifləməsi, kredit təşkilatlarının Fransaya qarşı qiymətləndirmələrini aşağı salması və yeni büdcə layihəsində dövlət xərclərinin azaldılması vətəndaşları meydanlara çıxmağa vadar edən amillərdir.

# Keniya Prokurorluğunun heyəti Azərbaycanda



**Dünən Baş prokuror Kamran Əliyev Keniya Respublikasının Dövlət Prokurorluğunun direktoru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Baş prokuror Azərbaycan və Keniya arasında əməkdaşlığın yüksək səviyyəyə çatdırıldığını, hər iki ölkənin dövlət başçılarının səyləri nəticəsində ortaq prinsiplərə və əməkdaşlığa əsaslanan güclü siyasi əlaqələrin yüksələn xətlə inkişaf etməkdə olduğu xüsusi qeyd edərək, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən prokurorluq orqanları arasında dinamik inkişaf edən əlaqələri vurğulayıb.

Azərbaycan Prokurorluğunun beynəlxalq və regional təşkilatlarla, habelə digər ölkələrin prokurorluq və hüquq-mühafizə orqanları ilə səmərəli əməkdaşlığına toxunan Baş prokuror hüquqi dialoqun intensivləşdirilməsi, təcrübə mübadiləsi sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri barədə danışıb.

Renson İnqonqa ötən il Azərbaycana işgüzar səfərlərini qeyd edərək, Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransının, COP29 çərçivəsində hüquq-mühafizə orqanlarının iqlim dəyişiklikləri ilə mübarizədə səfərbər olunmasına həsr olunmuş plenar iclasın yüksək səviyyədə təşkil edilməsini vurğulayaraq, Azərbaycan dövlətini və prokurorluğunu təbrik edib. Qonaq təmsil etdiyi qurumun Azərbaycan Prokurorluğu ilə əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edərək, qurumlarımız arasında əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə hüquqi sahədə əməkdaşlığın genişləndirilməsi, 2024-cü ildə Bakıda imzalanmış Anlaşma Memorandumunun icrası, cinayətkarlığa qarşı mübarizədə bilik və təcrübə mübadiləsi kimi məsələlər diqqət mərkəzində olub.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

*XQ*

# Ermənistanda yeni konstitusiya qəbul ediləcək

**Ermənistanın baş naziri Nikol Paşinyan hakim "Vətəndaş Müqaviləsi" partiyasının qurultayında həmin partiyanın bəyannaməsini təqdim edərkən bildirib ki, Ermənistan hökuməti bütün qonşuları ilə sülh və mehriban dostluq münasibətlərini bərqərar etmək üçün xalq tərəfindən formalaşdırılan mesajları həyata keçirməyə davam edəcək.**

O, qarşılıqlı ərazi bütövlüyü, suverenlik və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanan sülh və mehriban qonşuluğun davamlı olaraq institusionallaşdırılmasına səy göstəriləcəyini söyləyib. Azərbaycan–Ermənistan sülh prosesi ilə bağlı məqamların da yer aldığı sənəddə deyilir ki, 2026-cı ildə keçiriləcək növbəti parlament seçkilərində xalqın etimad səsini aldıqdan sonra hökumət referendum yolu ilə Ermənistanın yeni Konstitusiyasının qəbulu prosesinə start verəcək.

Baş nazir qeyd edib ki, bu addım 1991-ci il Almatı Bəyannaməsinə əsaslanaraq, Ermənistanın beynəlxalq səviyyədə tanınmış suveren ərazisinin və həmin ərazini əhatə edən sərhədlərin həm daxildə, həm də xaricdə toxunulmazlığı konsepsiyasına əsaslanacaq. Bütün bunlar Ermənistanın dövlət maraqlarına, ölkənin müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsinə, Azərbaycan ilə Ermənistan arasında bərqərar olmuş sülhə əsaslanacaq.

**XQ**

# İrəvanda gerçəkliyin etirafı mövsümü

## *Nikol Paşinyana ünvanlanan suallar isə miflərin hələ də yaşadığını göstərir*

**Ermənistan hökumətinin sentyabrın 19-da keçirilən iclasından sonra brifinqdə Baş nazir Nikol Paşinyana jurnalistlər tərəfindən bir sıra suallar ünvanlanıb. Onlardan biri Gorus–Qafan yolunun müəyyən hissəsinin Azərbaycana təhvil verilməsi ilə bağlı olub. Sual belə səslənib: "Əgər delimitasiya və demarkasiya prosesi hələ həyata keçirilməyibsə, nə üçün bu yol şifahi razılaşma əsasında Azərbaycana verildi?". Paşinyan suala cavabında bu addımı düzgün hesab etdiyini bildirib. Onun sözlərinə görə, Ermənistan silahlı qüvvələri buradan geri çəkilərək beynəlxalq aləmdə tanınmış sərhəd xəttində yerləşdirilib: "Bəli, bunu demarkasiya olmadan etdik və düzgün etdik", – deyə Paşinyan vurğulayıb.**

Bu açıqlama, əslində, Ermənistanın son illər post-müharibə reallıqları ilə barışmaq məcburiyyətində qaldığını göstərir. Paşinyanın cavabı həm də o deməkdir ki, İrəvan rəsmi şəkildə mövcud sərhədlərin legitimliyini qəbul edir və Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Xatırladaq ki, söhbət Gorus–Qafan magistral yolunun Azərbaycanın suveren ərazisindən keçən hissəsindən gedir. Yol 44 günlük Vətən müharibəsindən dərhal sonra Azərbaycanın nəzarətinə qaytarıldı. Ermənistan tərəfinin bu etirafı bir daha təsdiqləyir ki, həmin ərazilərin Azərbaycana məxsusluğu mübahisə predmetinə çevrilə bilməz. Prosesdə analitik baxımdan iki məqam diqqəti çəkir. Birincisi, Ermənistan hökuməti beynəlxalq hüquq normalarını nəzərə almaq məcburiyyətində olduğunu anlayır və praktiki addımları ilə bunu göstərməyə çalışır. İkincisi, post-münaqişə dövründə Ermənistanın manevr imkanlarının ciddi şəkildə məhdudlaşdığını dərk edən Paşinyan ritorikasının daxili siyasi dairələrdə narazılıq yaratmasını da görməzdən gəlir. Əslində, Ermənistan baş nazirinin bu bəyanatı Azərbaycan diplomatiyasının və hərbi uğurlarının məntiqi nəticəsi kimi qiymətləndirilməlidir. Çünki İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni geosiyasi mühit Ermənistanı çıxılmaz vəziyyətə salıb. Ona görə də rəsmi İrəvan sərhədlərin tanınmasını etiraf etməklə mövcud vəziyyəti sabit saxlamaq istəyir.

Yeri gəlmişkən, iki il öncə "Mülki müqavilə" fraksiyasının deputatı Vaaqn Aleksanyana brifinqdə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazır olması kontekstində yol məsələsini şərh edərkən eyni etirafla gündəmə gəlmişdi. O demişdi ki, Gorus–Qafan yolunun Azərbaycanın nəzarətinə keçən hissəsi Ermənistanın sərhədlərinə daxil deyil. Erməni tərəfinin niyə 30 ilə yaxın müddətdə Gorus–Qafan yolunun sözügedən hissəsindən istifadə edə bildiyi məsələsinə toxunan deputat bildirmişdi ki, bu, birinci Qarabağ müharibəsində müvəqqəti mümkün olmuşdu, amma həmin yolun nəzarətdə saxlanılması beynəlxalq hüquqa söykənmirdi. Deputat, eyni zamanda, keçmiş hakimiyyət orqanlarını məsuliyyətsizlikdə ittiham etmişdi. Bu açıqlamalar bir daha göstərir ki, əvvəllər tez-tez gündəmə gətirilən "status-kvo" illüziyası Ermənistan rəhbərliyini real təhlükələri görməməsinə səbəb olub. Nəticədə, ölkənin hərbi-siyasi rəhbərliyi balanslaşdırılmış strategiya qura bilməyib.



Xatırladaq ki, Gorus–Qafan yolu hələ sovet dövründə regionun mühüm nəqliyyat arteriyalarından biri olub. Yol uzun illər həm sərnişin, həm də yükdaşımalarının aparıcı marşrutu kimi regional kommunikasiya sistemində xüsusi rol oynayıb. Bugünkü geosiyasi şəraitdə də yolun əhəmiyyəti azalmır, əksinə, artır. Çünki post-münaqişə dövründə regionda kommunikasiya xətlərinin bərpası və yeni nəqliyyat dəhlizlərinin istifadəyə verilməsi məsələsi Cənubi Qafqaz üçün strateji prioritetlərdən biridir. Kommunikasiyaların bərpası sərnişin və yükdaşımalarının həcmini artırmaqla regiona daha çox sərmayə cəlb edilməsinə, iqtisadi əlaqələrin dərinləşməsinə və ticarət dövriyyəsinin genişlənməsinə şərait yaradır. Xüsusilə nəzərə alınmalıdır ki, Zəngəzur dəhlizinin (TRIPP) istifadəyə verilməsi ilə Şərq–Qərb nəqliyyat xətti yeni məzmun qazanacaq. Dəhliz vasitəsilə Asiya və Avropa arasında tranzit marşrutlarının genişlənməsi gözlənilir. Praktiki baxımdan bu, Cənubi Qafqazı qlobal logistika zəncirində mühüm həlqəyə çevirəcək.

Gorus–Qafan marşrutu Cənubi Qafqazda Şimal–Cənub və Şərq–Qərb əlaqələrində alternativ yol funksiyasını yerinə yetirir. Zəngəzur dəhlizi (TRIPP) kimi transmilli layihələri reallaşdıqca Gorus–Qafan marşrutu daha geniş beynəlxalq logistika zəncirlərinə qoşulacaq. Bu yol Cənubi Qafqaz vasitəsilə Asiya–Avropa ticarət həcmlərinin artmasına töhfə verə bilər. Bir məqamı da yada salaq ki, Gorusdan Qafana iki yol uzanır. Bunlardan biri M2 dövlətlərarası magistral yoludur. Magistral yolun Şahverdilər, Şurnuxu kəndləri və Qafan yaxınlığından keçən hissəsinə hazırda Azərbaycan nəzarət edir. 2021-ci ilin sentyabrında Azərbaycan tərəfi haqlı olaraq Gorus–Qafan yolunun Şahverdilər kəndi ərazisindən keçən hissəsində (həmin yer hazırda Qubadlı rayonunun Eyvazlı kəndinə məxsusdur) gömrük və polis postu quraraq Ermənistana yük daşıyan İran maşınlarını dayandırıb yoxlamağa başlamışdı. Tədbirlər nəticəsində Gorus–Qafan yolu ilə tarixin arxivinə gömülmüş separatçı rejimin tör-töküntülərinin qanunsuz yükdaşımalarına son qoyulmuşdu.

***Nəzrin ELDARQIZI***
***XQ***

### Ekspert rəyi



**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin deputatı**

**Əslində, təəssüflə qeyd etməliyik ki, Ermənistan cəmiyyəti hələ də tam mənada "sağalmayıb". Məsələ ondadır ki, uzun illər boyu uydurma tarix və əsassız ərazi iddiaları həmin cəmiyyətin düşüncə tərzinə hopub.**

Bu, bir növ siyasi-ideoloji xəstəlikdir və görünən odur ki, Ermənistan bu ağır sindromdan qurtula bilmir. Paşinyana ünvanlanan suallar bunu bir daha sübut edir. Proseslərin pərdəarxasında xarici faktorların təsirini də qeyd etmək lazımdır. Müəyyən dairələr Paşinyanı "satqın" kimi qələmə verməklə onun seçkilərdə qələbə qazanmasının qarşısını almağa çalışırlar. Həmçinin kilsənin və keçmiş cinayətkar rejimin varislərinin də Paşinyana müqaviməti müşahidə olunur. Onlar öz siyasi mövqelərini itirmək qorxusundan cəmiyyətdə revanşist əhval-ruhiyyəni qızışdırmağa cəhd edirlər. Belə olan halda Paşinyanın zaman-zaman etdiyi etiraflar təsadüfi xarakter daşımır. Bu, həm Ermənistanın daxili auditoriyasına, həm də beynəlxalq tərəfdaşlara ünvanlanan mesajdır ki, o, reallıqları qəbul etməyə və gələcəkdə gərginliklərin qarşısını almağa çalışır.

Yol məsələsinə gəldikdə isə, Gorus-Qafan yolunun müəyyən hissələrinin Azərbaycanın nəzarəti altında olması tarixi və hüquqi əsaslara söykənən reallıqdır. Azərbaycan öz suveren hüquqlarını bərpa edib və bu yol üzərində qurulan sərhəd nəzarəti də həmin hüquqların məntiqi davamıdır. Əgər regionda münasibətlərin sülh istiqamətində inkişafından danışırıqsa, Ermənistanın bu reallığı qəbullanıb ona uyğun davranmaqdan başqa çıxış yolu yoxdur. Çünki nəqliyyat arteriyalarının statusu və ondan istifadə qaydaları beynəlxalq hüququn prinsiplərinə, sərhədlərin toxunulmazlığına əsaslanmalıdır.

# Qarabağ amili: münaqişə məntiqi ilə siyasi hiylə

## *Rəsmi Bakının tələbi ona görə vacib idi ki...*

**Məlum olduğu kimi, Ermənistanda hələ də qondarma qurumun adını çəkib ortaya düşənlər, hay-həşir qoparanlar var. Doğrudur, bu ifadə ölkə rəsmilərinin dilindən düşüb. Necə deyərlər, ilan ulduz görüb. Amma ulduz görməyən ilanlar da var ki, görünür, onlardan biri politoloq Akop Badalyandır.**





Əslində, zahiri görünüşünə görə ibtidai insanın pitekantrop tipindən çox da fərqlənməyən Badalyanın fikirlərinə önəm verməmək də olardı. Axı belə məxluqlardan Ermənistanda çoxdur və işləri-peşələri boş-boş danışmaqdır. Bu yerdə "it hürər, karvan keçər" misalı da yerinə düşür. Amma...

"Əmması" budur ki, Badalyanın fikirlərini erməni mediası tirajlayır. Daha bir "əmma" da var. Belə ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Niderlanda səfər edir və səfər gedişində Niderland hökuməti Qarabağ ermənilər üçün 14 milyon avro vəsait ayırır. Mövzuya dair "Dağlıq Qarabağdan qaçqın düşmüş ermənilərə kömək" ifadəsini yayan isə həm də "Armenpress" informasiya agentliyidir. Yəni, Ermənistanın dövlət mediası. Agentlik bilavasitə "Artsax" ifadəsini işlətməsə də, Qarabağı tərk etmiş hayları "zorla qovulmuş əhali" qismində təqdim etməyi yaddan çıxarmır.

Bəli, Ermənistan dövləti "Qarabağdan zorla qovulmuş ermənilər" formulu ilə xaricdən yardım alırsa, deməli, sətiraltı şəkildə Qarabağın münaqişəli ərazi məntiqinin saxlanmasına çalışır. Bu, yumşaq desək, tülkülükdür. Halbuki, İrəvandan səmimiyyət gözləntimiz var. Yəni, Ermənistan xaricdən öz vətəndaşları üçün nə qədər istəyirsə, yardım ala bilər. Amma bunu "Azərbaycan ərazisindən qovulmuşlar" üçün etməməlidir. Çünki Azərbaycan heç kəsi qovmayıb və qovmur da. Hələ onu da deyək ki, ölkəmiz qovulmuşları öz yurduna qaytarır və bu siyasət davamlı olacaq, hətta vaxtilə deportasiyaya məruz qalmışlara da şamil ediləcək.

Əlqərəz, Ermənistan hakimiyyətinin Niderland hökumətindən aldığı yardım məsələsini o səbəbdən qabartdıq ki, Badalyanın hiyləgər fikirləri ilə rəsmi İrəvanın səmimiyyətdən uzaq davranışı arasında oxşarlıq var. Elə isə politoloqun hiyləgərliyinin konkret tərəfləri üzərində dayanaq. Məsələn, o deyir ki, Qarabağı beynəlxalq ictimaiyyətin Azərbaycanın tərkib hissəsi kimi tanıdığına dair oturuşmuş fikir var. Amma bu tanınma vaxtilə heç nə demək deyildi. Badalyanın fikrincə, məsələnin qoyuluşu belədir: Qarabağı Azərbaycan ərazisi olaraq tanıyan dövlətlərin nümayəndələri Ermənistan prezidentlərinin Azərbaycana aid bölgəyə səfərlərinə heç nə demir, yəni, etirazlarını ifadə etmirdilər.

Əslində, Akop haqlıdır. İşğal illərində istər Ermənistan liderləri, istərsə də xaricilər Qarabağa səfərlər gerçəkləşdirirdilər, Azərbaycan bunun yolverilməzliyini, qeyri-qanuni xarakter daşıdığını bildirir, ancaq ölkəmizin bəyanatlarına məhəl qoyan tapılmırdı. Yəni, dünya həqiqəti görmək istəmirdi. Badalyanın baxışlarında isə məhz həmin mənzərədən qaynaqlanmış siyasi interpretasiya var. O deyir ki, ilkin fakt Qarabağın Azərbaycan ərazisi olduğu məntiqinə söykənsə də, reallıq başqa idi. Politoloqun düşüncəsinə görə, reallıq Qarabağ münaqişəsi və münaqişə məntiqinin beynəlxalq aləmdə de-yure tanınmasına əsaslanırdı: "Bəs niyə ilkin faktı pozmur, yəni Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımaqdan imtina etmirdilər? Ona görə ki, beynəlxalq mandat çərçivəsində həll olunmalı və beynəlxalq miqyasda tanınmış münaqişə mövcud olduğu halda, ilkin faktdan imtina konfliktin həlli prosesinə müdaxilə olardı. Axı nəzəri cəhətdən istisna olunmurdu ki, tərəflər sonda məhz həmin ilkin fakt ətrafında razılığa gələ bilərlər. Beləliklə, yeni de-yure status barədə beynəlxalq qərar qəbul edilməyənədək, heç kim Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımaqdan imtina edə bilməzdi. Amma eyni zamanda, de-yure "Artsax"ın öz müqəddəratını təyinetmə hüququ da tanınırdı".

Nəzərə alsaq ki, otuz ilə yaxın müddətdə beynəlxalq ictimaiyyət Qarabağ məsələsi müstəvisində, böyük ölçüdə, riyakarlıqla məşğul idi, bu mənada da politoloq Badalyanı haqlı saymaq mümkündür. Çünki bir yandan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyan xarici aləm digər tərəfdən Ermənistanın təzavüzünə göz yumurdu. Üstəlik, mənasız danışıqlar işğalın leqallaşdırılması məqsədi daşıyırdı. Ölkəmizin inadını görən ermənipərəst birlik, hətta, münaqişənin həllini uzadırdı. Rəsmi İrəvan isə "uzaqmənzilli planlar" qurur, Azərbaycanda nəsillərin dəyişməsi amili üzərinə fokuslanaraq, cəmiyyətimizdə Qarabağ mövzusunun unudulacağını hesablayırdı. Lakin heç nə yaddan çıxmadı, heç nə unudulmadı.

Beləliklə, A.Badalyan beynəlxalq miqyasda ərazi bütövlüyü və suverenlik prinsipi ilə millətlərin öz müqəddaratlarını təyinetmə hüququ arasındakı ziddiyyətlərə köklənir və bildirir ki, "de-yure Artsaxın öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilməsinə hansısa məhdudiyyətlərin qoyulduğunu təsdiqləyən bircə ictimai sənəd belə mövcud deyildi". Erməni politoloqun hiyləgərliyindəki başlıca motiv də elə bu deyimdir. Ən əsası, bu hiyləgərlik bütövlükdə Ermənistandakı revanşist və şovinist kəsimin "düşüncə sahiblərinin" tezislərini müəyyənləşdirir. Bakı ilə sülhdən danışan rəsmi İrəvanın hələ də "Dağlıq Qarabağ erməniləri" klişesi ilə qazandığı xarici dividend isə həmin tezislərlə, bir növ, sinxronluq yaradır.

Bir nüansa da diqqət yetirək. Politoloq Badalyan fikirlərini əsaslandırarkən, sonrakı siyasi və geosiyasi məntiq çərçivəsində baş verənləri əhəmiyyətli sayır, amma onların başqa söhbətin mövzusu olduğunu vurğulayır və bildirir ki, Qarabağ müstəvisindəki "qalan hər şey diplomatik mübarizə, tərəflər arasındakı qüvvələr nisbəti və geosiyasi vəziyyətlə bağlı idi". Deməli, bu anlamda da eksperti haqlı saymaq mümkündür. Yəni, Badalyan dolayısı ilə "güclü tərəf haqlıdır" deyimi üzərində dayanır. Əgər belədirsə, nəinki o, ümumən, Ermənistandakı revanşist və şovinist kəsim qulağında sırğa etməlidir ki, Azərbaycan bundan sonra hər zaman Ermənistandan bir deyil, on qat güclü olacaq. O qədər güclü olacaq ki, obrazlı desək, həkim qiyafəsində erməni cəmiyyətindəki avantürizmi müalicə edəcək. Əlbəttə, ölkəmiz cərrahi müdaxilə ehtiyacı yaranacağı təqdirdə də çəkinmədən öz işini görəcək, xəstəliyi kəsib atacaq.

Xəstəlikdən söz düşmüşkən bir məqamın da üzərində dayanaq. Məlum olduğu kimi, Azərbaycan uzun müddətdir ATƏT-in Minsk qrupunun ləğvini tələb edirdi. Çünki bu təsisat özündə Qarabağ münaqişəsi məntiqini saxlayırdı. O da məlumdur ki, artıq Minsk qrupu rəsmən fəaliyyətini dayandırıb. Deməli, münaqişə də yoxdur. İndi A.Badalyan kimi politoloqların hiyləgərliklə dolu sərsəmləmələrinə nəzər salanda ölkəmizin rəhbərliyinin tələbinin necə vacib əhəmiyyət daşıdığı bir daha təsdiqini tapır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Uğursuzluğa məhkum erməniçilik



## ABŞ-dakı hay lobbisinin çağırışları Ağ evin siyasətini dəyişə bilməyəcək

**ABŞ-dakı erməni diaspor və lobbisi Ermənistanla Azərbaycan arasında dayanıqlı sülhün yaranmasına qarşı olduqlarını gizlətmir. Onlar öz əməlləri ilə hər vəchlə kövrək sülhə pəl vurmağa çalışırlar. Bu da səbəbsiz deyil. Çünki Cənubi Qafqazda sabitlik yox, münaqişənin davam etməsi onların siyasi və maliyyə dividendlərinin əsas mənbəyidir. ABŞ Konqresindəki ermənipərəst qüvvələr illərdir eyni ssenarini təkrar edərək reallıqdan uzaq qətnamələr qəbul etdirirlər. Əgər bu addımlar əvvəllər Ermənistan cəmiyyətini Azərbaycan ərazilərinin işğalını davam etdirməyə ruhlandırırdısa, hazırda revanşist meyllərə stimul verir.**

Bugünlərdə bu istiqamətdə bir neçə xoşagəlməz hal baş verib. ABŞ Konqresinin Nümayəndələr Palatasının Demokratlar Partiyasından olan üzvü Bred Şerman bir neçə gün öncə Nümayəndələr Palatasına "Türkiyə Ermənistanın blokadasını aradan qaldırana, Azərbaycan isə bütün erməni hərbi əsirləri azad edənə" qədər ABŞ-ın İnkişaf üzrə Beynəlxalq Maliyyə Korporasiyasının (IDFC) Ankara və Bakıya dəstəyini əngəlləyən düzəliş təqdim edib. Maraqlıdır ki, bu barədə məlumatı Şerman özü deyil, Amerika Erməni Milli Komitəsi – ANCA adlanan bədnam qurum yayıb. ANCA-nın təşkilatçılığı ilə Kapitoli binasında 2023-cü ilin antiterror əməliyyatı ilə bağlı keçirilən "Hesablılıq–2025" adlı konfransda çıxış edən Şerman deyib: "Mənim düzəlişim Türkiyə Ermənistanın blokadasını davam etdirənə, Azərbaycan isə girovlar azad edilənə qədər bu ölkələrə bir sent də ödənilməməsini nəzərdə tutur".

Şermanın ikinci düzəlişi isə Dövlət Departamentinin Sanksiyalaşdırma Aktı ilə bağlıdır. Bu düzəliş ABŞ Prezidentinin "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişi ləğv etmək səlahiyyətini aradan qaldırmağa xidmət edir.

Konfransda Şermanla yanaşı, Konqresdəki "erməni qrupu" adlanan qurumun həmsədri Frenk Pallone və digər üzvlər, o cümlədən Loru Fridman çıxış edib. Onlar "Qarabağ xalqı"nın bölgəyə qayıtmaq hüququnun təmin edilməsi zərurətini bəyan edib və Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə çağırıblar. Bunun ardınca konqresmenlər Dina Taytus və Qas Bilirakis Qlobal Maqnitski Aktı çərçivəsində Azərbaycana qarşı sanksiyaların tətbiqi üçün ikitərəfli qanun layihəsi təqdim ediblər. ANCA bu qanun layihəsinə geniş dəstək toplamaq üçün ümummilli kampaniyaya başladığını elan edib.

Həmçinin bildirilib ki, Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsi həm Şermanın, həm də konqresmen, sabiq dövlət katibi Con Kerrinin ANCA-nın dəstəyi ilə təqdim etdiyi bir sıra digər düzəlişləri nəzərdən keçirir.

Son məlumata görə, ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsi Dövlət Departamentinin 2026-cı il üçün iş gündəliyini müəyyən edən H.R.5300 qanun layihəsini nəzərdən keçirib. Müzakirələr zamanı Ermənistan və Cənubi Qafqazla bağlı düzəlişlər təsdiqlənib. Yekun variantda bir sıra ermənipərəst təşəbbüslər rədd edilib. Bunlara Bred Şermanın Türkiyə və Azərbaycanla bağlı iki düzəlişi daxil idi.

Bütövlükdə, demək olar ki, Azərbaycanın suverenliyini təmin etməsi üçün 2023-cü ildə apardığı antiterror əməliyyatının ildönümündə ABŞ-dakı erməni lobbisi Azərbaycana qarşı yeni kampaniyaya başlayıb. Onlar ötən ilin bu günlərində də oxşar tədbirlər keçirmişdilər. Bu, onların "davamlı strategiyasının" bir parçasıdır; yəni lobbiçilik və təzyiq vasitəsilə Azərbaycanın beynəlxalq imicini zəifləmək cəhdidir. Belə təkrarlanan kampaniyalar göstərir ki, erməni lobbi qurumları yalnız öz qısamüddətli maraqlarını güdür və real geopolitik dəyişiklikləri nəzərə almırlar.

Eyni zamanda, bütün bunlar ABŞ–Azərbaycan əlaqələrinin keyfiyyətcə yeni mərhələyə yüksəldilməsi ilə bağlı işlərin görüldüyü vaxta təsadüf edir. Aydın olur ki, erməni diasporu və Konqresdəki erməni lobbisinin üzvləri həm də bundan bərk narahatdırlar.

Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin avqustun 8-də Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsindən iqtibas gətirmək yerinə düşər. Dövlətimizin başçısı bildirmişdi ki, Prezident Trampın şahidliyi ilə Ermənistan Baş naziri ilə şəxsən imzaladığı birgə bəyannamədə Azərbaycanın əsas hissəsindən Naxçıvana maneəsiz keçidlə bağlı mövqeyimizi dəqiq əks etdirən müddəanın olması hər şeydən əvvəl, Bayden administrasiyasının yetişdirdiyi bütün anti-Azərbaycan rəvayətlər və sərəncamında olan siyasi infrastruktura – media, QHT-lər, USAID və bəzi korrupsioner siyasətçilərə cavab idi: "Bilirsiniz, bu adamlar mütəmadi olaraq Azərbaycana hücum edirdilər – Menendez, Şiff, Peloni, Pelosi, Şerman, Marki, Kristofer Smit və başqaları. Bütün bu insanlar Azərbaycana nifrət edirlər – bilmirəm niyə. Yəqin ki, Ermənistan lobbisi buna görə onlara pul ödəyirdi. Onlar Azərbaycanın əleyhinə mütəmadi olaraq fəaliyyət göstərən bir qrup ciddi siyasətçi idi. Bu gün Azərbaycanla Ermənistan arasında imzalananlar bizim niyyətlərimizi açıq şəkildə nümayiş etdirir – göstərir ki, biz sülh istəyirik, amma biz əlaqələrin qurulmasını da istəyirik. Biz ölkəmizin iki hissəsi arasında təhlükəsiz keçidlə inteqrasiyanı istəyirik ki, bu da daha geniş region, Ermənistanın özü üçün də çoxlu imkanlar vəd edəcək".

***

Girişdə qeyd etdiyimiz kimi, ABŞ-dakı erməni diasporu və lobbi qüvvələrinin fəaliyyəti Cənubi Qafqazda dayanıqlı sülhün qurulmasına əngəl yaradılmasına "parlaq" nümunədir. ANCA kimi bədnam təşkilatlar və onların Konqresdəki himayədarları hələ də gizlətmədən Ermənistan və Azərbaycan arasındakı keçmiş münaqişəni yaşatmaq niyyətlərini nümayiş etdirirlər. Onlar üçün bu münaqişə, sadəcə, regional məsələ deyil, həm də siyasi xal qazanmaq, yəni, seçkilərdə səs toplamaq və əsas gəlir mənbəyidir. Çünki sabitlik yox, davam edən münaqişə onların mövqeyini möhkəmləndirir və Vaşinqtondakı sanksiyalarla manipulyasiya etməyə imkan verir. Son günlərdə baş verənlər də bu mövqenin konkret ifadəsi kimi meydana çıxıb. Bred Şermanın təqdim etdiyi düzəlişlərin ANCA-nın təşkil etdiyi "Hesablılıq–2025" konfransında açıq şəkildə dəstəklənməsi Konqresdəki ermənipərəst qüvvələrin rəsmi Vaşinqtonun siyasətini manipulyasiya etməyə çalışdıqlarını təsdiqləyir. ANCA-nın dəstəyi ilə Frenk Pallone, Loru Fridman və digər konqresmenlərin çıxışları, "Qarabağ xalqı"nın bölgəyə qayıtmaq hüququ iddialarının irəli sürülməsi və Azərbaycana qarşı sanksiyaların tətbiqinə çağırışları yalnız erməni lobbi qurumlarının illərdir yürütdüyü reallıqdan uzaq ssenarilərin davamıdır. Qlobal Maqnitski Aktı çərçivəsində təqdim edilən qanun layihələri və ümummilli kampaniyalar bir daha göstərir ki, ABŞ-dakı erməni lobbiçiləri yalnız öz qondarma narrativlərini gücləndirmək məqsədi güdür. Onların fəaliyyəti bölgədəki sabitliyi pozmaqla yanaşı, ABŞ–Azərbaycan münasibətlərinin inkişafına maneə törətmək məqsədi daşıyır. Lobbiçilərin qondarma iddiaları və sanksiya çağırışları, əslində, rəsmi Vaşinqtonun strateji maraqlarına ziddir. ANCA və Konqresdəki ermənipərəst qüvvələr açıq şəkildə Prezident Donald Trampın və onun administrasiyasının prioritet siyasətinə meydan oxumağa çalışırlar.

Lakin bu cəhdlərin heç biri real geopolitik prosesləri dəyişdirə bilməz. Prezident Donald Trampın və rəsmi Vaşinqtonun siyasəti artıq müəyyən istiqamət götürüb: Azərbaycanla münasibətlərin inkişafı və bölgədə sülhün bərqərar olunması prioritetdir. ANCA-nın və Konqresdəki ermənipərəst qüvvələrin səyləri isə bu dəyişikliklərin qarşısını almaq gücündə deyil. Onların cəhdləri məhz bu səbəbdən uğursuzluğa məhkumdur. Vaşinqton artıq emosional lobbi çağırışlarına deyil, strateji maraqlara uyğun qərarlar verir və Cənubi Qafqazda sabitliyin təmin olunması istiqamətində addımlar atır.

Nəticə etibarilə, ANCA və erməni lobbiçilərinin fəaliyyətini diqqətdə saxlamaqla yanaşı, qeyd etmək lazımdır ki, onların manipulyasiya və sanksiya çağırışları rəsmi ABŞ siyasətinə təsir edə bilmir və gələcəkdə də bu cəhdlər uğursuzluqla nəticələnəcək. Tarixi təcrübə göstərir ki, bölgədə real sülh və inkişaf manipulyasiyalardan deyil, konstruktiv və balanslı siyasətdən keçir.

*Səxavət HƏMİD*
*XQ*

# İki supergücün Bakı "bağlantısı"



(əvvəli 1-ci səhifədə)

Bu siyasət nəticəsində Azərbaycan beynəlxalq münasibətlərdə mühüm tranzit, enerji və diplomatik əlaqə platformasına çevrilərək, Vaşinqtonla Pekin arasında ortaq maraqların kəsişdiyi geostrateji məkan statusu qazanır. Bu fenomen şərti olaraq "Azərbaycan bağlantısı" konsepti kimi xarakterizə oluna bilər.

Rəsmi Bakının mühüm strateji vektor olan Çin Xalq Respublikası ilə münasibətlərinin dinamik inkişafı xüsusi diqqət çəkir. Prezident İlham Əliyevin cari il aprelin 23-də Pekinə dövlət səfəri çərçivəsində ÇXR Sədri Si Cinpin ilə "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir.

Azərbaycan–Çin əməkdaşlığının institusional əsasları yalnız iqtisadi və ticarət mübadiləsi ilə məhdudlaşmır. "Bir kəmər, bir yol" təşəbbüsündə Azərbaycanın aktiv iştirakçı olması ölkənin geoiqtisadi və geostrateji əhəmiyyətini daha da artırır. Ötən il ikitərəfli ticarət dövriyyəsinin 20,7 faiz artaraq 3,744 milyard ABŞ dollarına çatması bu əlaqələrin real iqtisadi ölçülərini göstərir. Çin bu gün Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşı olaraq, idxal üzrə 17,69 faizlik payla lider mövqeyə malikdir. Bu göstəricilər Azərbaycanın xarici ticarət strukturunda Çin amilinin durmadan artan çəkisini təsdiqləyir.

Bununla yanaşı, Çinin iqtisadi aktorlarının Azərbaycandakı iştirakı getdikcə genişlənir. Hazırda ölkəmizdə Çin kapitalı ilə təsis edilmiş 375 şirkət mövcuddur ki, onların 298-i aktiv fəaliyyət göstərir. Bu fakt iki ölkə arasında investisiya mühitinin etibarlılığı və qarşılıqlı maraqların praktiki ifadəsidir.

Azərbaycan–Çin münasibətlərinin yüksələn xətlə inkişafında siyasi dialoq xüsusi rol oynayır. Prezident İlham Əliyevin aprelin 21-də Çin Xalq Respublikasının "Sinxua" agentliyinə verdiyi müsahibə strateji gündəliyin konturlarını daha aydın şəkildə ortaya qoydu: "Ölkələrimiz arasında qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət veririk və ikitərəfli münasibətlərin dərinləşməsini Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi qiymətləndiririk. Bu gün əminliklə demək olar ki, münasibətlərimiz çox müsbət dinamikaya malikdir".



Buradan belə nəticə hasil olur ki, gələcəkdə ikitərəfli münasibətlər yalnız ticarət və infrastruktur sahələrində deyil, həm də yüksək texnologiyalar, enerji təhlükəsizliyi, nəqliyyat-logistika dəhlizləri, humanitar mübadilə və regional təhlükəsizlik məsələlərində daha da dərinləşəcək.

Digər bir supergüc olan ABŞ-la münasibətlər də xüsusi diqqət çəkir. Avqustun 8-də Vaşinqtonda prezidentlər İlham Əliyev və Donald Tramp Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumunu imzaladılar. Bundan əlavə, iki lider arasında şəxsi münasibətlər də yaxşı səviyyədədir. Ötən ay ABŞ lideri Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə maraqlı hədiyyə göndərib. Hədiyyə Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan liderlərinin görüşündə çəkilmiş fotolardan ibarətdir. Donald Tramp həmin fotoların üzərinə ürək sözlərini yazıb. Fotoların birində Trampın imzası ilə "İlham, siz böyük lidersiz", digərində isə "İlham, siz böyüksüz" sözləri öz əksini tapıb. Azərbaycan Prezidenti İlham Əliyev isə öz növbəsində rəsmi "X" hesabı vasitəsilə ABŞ liderinə təşəkkür edib: "Prezident Donald Trampa şəxsi imzası ilə mənə hədiyyə etdiyi tarixi fotoşəkillərə və üzərində yazdığı xoş sözlərə görə təşəkkür edirəm. Prezident Donald Trampın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasına, habelə Cənubi Qafqazda və dünyada sülh gündəliyinə verdiyi qətiyyətli dəstəyini yüksək qiymətləndirirəm və buna görə ona bir daha dərin minnətdarlığımı bildirirəm".

XXI əsrin beynəlxalq münasibətlər sistemi multipolyarlaşma meyilləri ilə xarakterizə olunur. Qlobal güc mərkəzlərinin, ABŞ və Çin kimi supergüclərin qarşıdurma və əməkdaşlıq arasında dəyişkən münasibətləri beynəlxalq təhlükəsizlik mühitinə ciddi təsir göstərir.

Dünyada çox az ölkə eyni zamanda ABŞ və Çinlə strateji tərəfdaşlıq münasibətləri qura bilmişdir. Çünki bu iki supergüc arasındakı rəqabət, xüsusilə Asiya–Sakit okean məkanında, həm də qlobal iqtisadi və texnoloji sistemlərdə sərt geosiyasi xətt üzrəndədir. Azərbaycan isə bu qarşıdurma xəttinə tərəf getmədən, əksinə, hər iki gücün maraqlarının kəsişmə nöqtəsində yerləşərək körpü rolunu oynayır.

Azərbaycanın xarici siyasət modeli yeni geosiyasi çağırışlar fonunda "orta güc diplomatiyası"nın uğurlu nümunəsi kimi qiymətləndirilir. Dünyanın iki aparıcı gücü ilə eyni anda strateji tərəfdaşlıq münasibətlərinə malik olmaq Azərbaycanın beynəlxalq sistemdəki rolunu, sadəcə, regional aktordan qlobal miqyaslı oyunçuya çevirir.

Beləliklə, Azərbaycan supergüclər arasında körpü rolunu oynamaqla yanaşı, özünü də geosiyasi supergüc mövqeyinə yüksəldir – resurslar ilə deyil, strateji mövqeyi, siyasi iradəsi və balanslaşdırılmış diplomatiyası ilə.

*Tacir SADIQOV*
*XQ*

# Qarşılıqlı maraqlara, regional sabitliyə söykənən tərəfdaşlıq

## *Azərbaycanla ərəb ölkələrinin münasibətləri enerji əməkdaşlığı ilə məhdudlaşmır*

**Son illər Azərbaycan ilə ərəb ölkələri arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir. Ukraynalı ekspert İvan Usun yazır ki, bu maraqlar təsadüfi deyil və Azərbaycanın həm regional, həm də qlobal siyasətdə artan rolundan qaynaqlanır. Ərəb ölkələrinin, xüsusilə Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Qətərin Azərbaycana olan marağı onların beynəlxalq sistemdə mövqelərini gücləndirmək məqsədilə etibarlı tərəfdaşlarla əməkdaşlıq etməyə çalışmaları ilə izah olunur.**





Azərbaycanın regional liderliyə doğru atdığı addımlar, Vətən müharibəsindən sonra bölgədə yaratdığı yeni reallıqlar və geosiyasi mövqeyini möhkəmləndirməsi ərəb ölkələrinin diqqətini cəlb edən əsas faktorlardır. Bakı yalnız Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada sabitləşdirici aktor rolunu oynayır. Ölkəmiz həm də beynəlxalq təşkilatlar çərçivəsində irəli sürdüyü təşəbbüslərlə tanınır. Bu da Azərbaycanın beynəlxalq statusunu gücləndirir və onunla əməkdaşlığı daha cəlbedici edir.

Ərəb dünyasının aktual gündəmlərindən biri olan Suriyanın yenidən qurulması məsələsində Azərbaycanın potensial rolu getdikcə daha çox vurğulanır. İvan Usun da vurğuladığı kimi, hazırda ərəb dünyasının əsas prioritetlərindən biri məhz Suriyanın bərpasıdır və bu istiqamətdə əldə olunan razılaşmalara görə Azərbaycan bu prosesdə mühüm rol oynayacaq. Azərbaycan özü də post-münaqişə reallığını yaşayan ölkə kimi bu sahədə əhəmiyyətli təcrübəyə malikdir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı yenidənqurma və bərpa layihələri ölkəmizin bu sahədə nə qədər çevik və səmərəli idarəçilik modelinə sahib olduğunu göstərir. Bu təcrübə Suriya üçün nümunə ola bilər. Ərəb ölkələri də bu potensialdan istifadə etmək niyyətindədirlər.

Digər tərəfdən, Azərbaycan Suriyadakı münaqişədə tərəf tutmayan neytral bir ölkə kimi qəbul olunur. Bu mövqe Bakıya həm islam ölkələri, həm də digər beynəlxalq aktorlar qarşısında etibarlı vasitəçi statusu qazandırır. Eyni zamanda, Azərbaycan balanslı və prinsipial xarici siyasəti sayəsində bir çox ziddiyyətli maraqların kəsişdiyi Yaxın Şərqdə belə proseslərə cəlb oluna biləcək azsaylı ölkələrdən biridir. Bundan əlavə, Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda fəallığı, Suriyanın bərpası üçün qurulacaq regional və beynəlxalq əməkdaşlıq mexanizmlərində rol almaq imkanlarını genişləndirir.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə, infrastrukturun bərpası, elektrik, su təchizatı və sosial xidmət sahəsində malik olduğu müasir texnoloji imkanları da ərəb ölkələrində maraqla qarşılanır. Bu əməkdaşlıq formatı, həmçinin Azərbaycanla Ərəb Liqası arasında münasibətlərin dərinləşməsi baxımından da əhəmiyyətlidir.

Ərəb ölkələri yaxşı anlayırlar ki, Azərbaycanla əməkdaşlıq edərək, xüsusilə onun coğrafi mövqeyi və inkişaf etmiş enerji infrastrukturundan istifadə etməklə Avropaya yönəlmiş yeni enerji marşrutlarının qurulması mümkündür. Bu marşrutlar həm enerji təhlükəsizliyini gücləndirir, həm də yeni bazarlara çıxış imkanlarının yaradır.



Bu baxımdan, Azərbaycan yalnız enerji ixracatçısı deyil, eyni zamanda, vacib tranzit ölkə rolunu oynayır. Xüsusilə, Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan və strateji əhəmiyyətə malik olan Cənub Qaz Dəhlizi və onun tərkib hissəsi olan Trans–Anadolu Qaz Boru Kəməri (TANAP) layihələri əməkdaşlıq üçün mühüm platforma rolunu oynayır. Ərəb ölkələri üçün bu prosesə qoşulmaq, həm iqtisadi, həm də geosiyasi baxımdan ciddi üstünlüklər vəd edir.

Enerji sahəsində əməkdaşlıq təkcə karbohidrogen ehtiyatlarının daşınması ilə məhdudlaşmır. Bu sahədə texnoloji yeniliklərin tətbiqi, birgə logistika layihələrinin inkişafı, həmçinin enerji infrastrukturuna yönəlmiş qarşılıqlı investisiyalar üçün geniş imkanlar mövcuddur. Bundan əlavə, bərpa olunan enerji sahəsində də əməkdaşlıq perspektivləri diqqətəlayiqdir.

Azərbaycan 2030-cu ilə qədər bərpa olunan enerji mənbələrinin payını artırmağı qarşısına məqsəd qoyub və bu istiqamətdə ərəb ölkələri ilə texnologiya və maliyyə baxımından əməkdaşlıq etmək məqsədəuyğundur.

Son illər Azərbaycan ilə ərəb ölkələri arasında başqa sahələrdə də münasibətlərdə dinamik və çoxşaxəli inkişaf müşahidə olunur. Bu münasibətlər diplomatik sahə ilə məhdudlaşmır, həm də iqtisadi, ticarət və mədəniyyət sahələrində əhəmiyyətli irəliləyişlərlə müşayiət olunur. İki tərəf arasında artan yüksək səviyyəli qarşılıqlı səfərlər, imzalanan əməkdaşlıq sənədləri və genişlənən ticarət əlaqələri bu tərəfdaşlığın strateji xarakter aldığını sübut edir. Yada salaq ki, Azərbaycanın qeyri-neft sektorunun inkişafına yönəlmiş iqtisadi strategiyası ərəb ölkələri ilə əməkdaşlığın yeni mərhələyə keçməsinə səbəb olub. Bu sahədə atılan məqsədyönlü addımlar həm daxili iqtisadiyyatı gücləndirir, həm də xarici bazarlarda Azərbaycanın mövqeyini möhkəmləndirir.

Kənd təsərrüfatı sektoru Azərbaycanın qeyri-neft iqtisadiyyatında mühüm yer tutur. İstehsal həcminin artması fonunda daxili və xarici bazarlarda satışın düzgün təşkili prioritet məsələ kimi qarşıya qoyulub. Azərbaycan istehsalı olan ət, tərəvəz, meyvə və süd məhsulları artıq BƏƏ bazarında özünə yer tutub. Bu, həm məhsulların keyfiyyətinin, həm də Azərbaycanın ixrac strategiyasının uğurunun göstəricisidir. Eyni zamanda, Körfəz ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi üçün yaradılan institusional mexanizmlər bu prosesi daha da sürətləndirir. Hazırda BƏƏ-də fəaliyyət göstərən Azərbaycan Ticarət Nümayəndəliyi biznes əlaqələrinin genişlənməsinə töhfə verir, “Made in Azerbaijan” brendinin tanıdılması istiqamətində mühüm işlər həyata keçirilir. Bütün bu fəaliyyətlər nəticəsində Azərbaycan ilə ərəb ölkələri arasında yeni əməkdaşlıq modeli formalaşır. Bu model diplomatik, iqtisadi və mədəni münasibətlərin paralel və harmonik inkişafını təmin edir. Həm Azərbaycan, həm də ərəb ölkələri üçün qarşılıqlı fayda əsasında qurulan bu münasibətlər regional sabitliyə və iqtisadi inteqrasiyaya töhfə verir. Gələcək perspektivlər isə daha geniş əməkdaşlıq imkanlarını vəd edir. Bütün bunlar onu göstərir ki, Azərbaycan–ərəb ölkələri münasibətləri regional çərçivədən çıxaraq qlobal iqtisadi sistemdə dayanıqlı tərəfdaşlıq modelinə çevrilmək potensialına malikdir.

Mövzu ilə bağlı **politoloq Cəsarət Hüseynzadə** XQ-yə bildirdi ki, ərəb ölkələrinin Azərbaycana marağı təkcə iqtisadi və enerji əməkdaşlığı ilə məhdudlaşmır: “Bu münasibətlər həm geosiyasi baxımdan qar-



şılıqlı maraqlara, həm də ortaq regional sabitlik səylərinə əsaslanır. Azərbaycan üçün ərəb dünyası həm iqtisadi imkanlar baxımından geniş bazar, həm də beynəlxalq səviyyədə dəstək mənbəyidir. Onlar üçün isə Azərbaycan regionda sabitlik, enerji təhlükəsizliyi və diplomatik balans mənbəyidir. Bu, nəinki Azərbaycan və ərəb ölkələrinin milli maraqlarına xidmət edir, həm də daha geniş regionda sülh və inkişaf üçün mühüm platforma yaradır”.

Onun sözlərinə görə, Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ilə münasibətləri xüsusi yer tutur: “Dövlət başçıları arasında formalaşan qarşılıqlı etimad siyasi əlaqələrin yüksək səviyyədə inkişafına zəmin yaradıb. 16 sentyabr tarixində BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana rəsmi səfəri və Prezident İlham Əliyevin onu Füzulidə qarşılamasını təhlil etsək, bir sıra mühüm məqamları aydın görə bilərik. Qeyd etmək lazımdır ki, xarici dövlət başçılarının paytaxtdan kənarda qarşılanması nadir hallarda baş verir. Bu fakt Azərbaycan–BƏƏ münasibətlərinin yüksək səviyyədə olduğunu göstərən əsas göstəricidir. Belə səfərlərin xüsusən işğaldan azad olunmuş ərazilərə edilməsi həm də həmin dövlətlərin Azərbaycanın Zəfərinə və ərazi bütövlüyünə səmimi dəstəyini nümayiş etdirir. Nəzərə almaq lazımdır ki, BƏƏ-yə səfər edən Azərbaycan vətəndaşları – ümumi, xidməti və xüsusi pasport sahibləri üçün 90 günədək viza tələbinin olmaması iqtisadi əlaqələri artıran amillərdən biridir”.

# Gürcüstan demokratiya və hüququn aliliyini özü də yaxşı anlayır

**2025-ci ilin payızında Gürcüstan və Avropa İttifaqı (Aİ) arasında münasibətlər gərgin və qeyri-müəyyən mərhələyə daxil olub. Bunun əsas səbəbi Brüsselin Gürcüstana qarşı vizasız rejiminin ləğvi hədəsi və tələb olunan hüquqi dəyişikliklərdir. Bu dəyişikliklər radikal müxalifət tərəfindən dəstəklənir və o, bundan istifadə edərək yeni etirazlar üçün zəmin axtarır. Lakin vizasız rejimin ləğvi ilə bağlı təhdid artıq əhalidə geniş narahatlıq doğurmur. Hakimiyyətdən narazı olanların bir çoxu küçələrə çıxıb ondan Aİ-nin tələblərinə əməl etməyi, o cümlədən LGBT təbliğatına icazə verməyi tələb etməyə tələsmirlər. Bu məsələ geniş ictimaiyyətdə gözlənilən reaksiyanı doğurmayıb.**

2025-ci il sentyabrın 13-də Tbilisinin mərkəzində keçirilən və vizasız rejimin müdafiəsinə həsr olunmuş yürüşdə az sayda insanın iştirakı bunun bariz göstəricisidir. Müxalifət partiyaları və onların tərəfdarları tərəfindən təşkil edilən aksiyada





əsasən partiya fəalları və QHT üzvləri iştirak ediblər. Müxalifətə yaxın media orqanları etiraf edir ki, yürüşdə yalnız “yüzlərlə” insan iştirak edib. Bu fakt Gürcüstanda “viza məsələsi”nin siyasi təsir aləti kimi işləmədiyini göstərir.

Rəsmi Tbilisi Aİ-nin siyasətindən dəfələrlə narazılığını bildirib. Baş nazir İrakli Kobaxidze bildirib ki, Avropa bürokratiyasının apardığı siyasət qitəni ağır vəziyyətə və narahatedici tendensiyalara gətirib çıxarıb: “2008-ci ildə Aİ-nin dünya iqtisadiyyatındakı payı 30 faiz idi, bu gün bu rəqəm 17 faizə düşüb. Belə ağır vəziyyətdə əsas diqqət həm daxili problemlərin həllinə, həm də xarici əlaqələrin inkişafına yönəlməlidir. Lakin biz bunun əksini görürük. Aİ Gürcüstan kimi ölkələrlə əlaqələri süni şəkildə zəiflətməyə çalışır”. Baş nazirin fikrincə, bu yanaşma Aİ-nin öz maraqlarına ziddir və Avropa bürokratiyasının xarici qüvvələrin təsiri altında olduğunu göstərir: “Avropa bürokratiyası faktiki olaraq xarici qüvvələrin, “dərin dövlətin” təsiri altındadır. ABŞ-da bu təsir azalsa da, indi bu təzyiq Avropaya yönəlib. Aİ-nin genişlənmə məsələləri üzrə komissarı Marta Kosun Gürcüstana gəlməkdən imtina etməsi də bunun göstəricisidir... Təəssüf ki, qarşı tərəfdən sovet dövrünü xatırladan qapalı və dialoqdan uzaq yanaşma görürük. Bu yanaşma dəyişməlidir”.

Gürcüstan parlamentin sədri Şalva Papuaşvili də sərt çıxışı ilə yadda qalıb. O bildirib ki, Gürcü xalqı tarixi təcrübəsinə əsaslanaraq onlara yuxarıdan aşağı baxılmasından narahat olur: “Heç kim Gürcüstana yuxarıdan aşağı baxmamalıdır. Gürcüstan heç kim üçün, o cümlədən Aİ üçün alçaq hasar deyil. Bizə demokratiyanı və hüququn aliliyini öyrətməyə ehtiyac yoxdur. Əksinə, bəzi sahələrdə biz Avropanın bəzi ölkələrindən daha irəlidəyik”.

Göründüyü kimi, Gürcüstan hakimiyyəti balanslaşdırılmış xarici siyasət yürütməyə çalışır. Hökumət rəsmilərinin bildirirlər ki, Gürcüstan Avropa ilə əməkdaşlığa sadiqdir, lakin bu əməkdaşlıq birtərəfli tələblər və daxili işlərə qarışma formasında olmamalıdır. Onların arqumentinə görə, Aİ-nin istəkləri artıq əməkdaşlıq çərçivəsindən çıxaraq siyasi təzyiq formasına keçib və bu, ölkənin daxili sabitliyini təhdid edir. Bu kontekstdə Gürcüstanda bir çoxlarını bu sual düşündürür: Avroatlantik strukturlara inteqrasiya doğrudan da təhlükəsizlik və rifah təmin edəcək, yoxsa bu, Gürcüstanı daha böyük risklərin içərisinə atacaq?

Bununla belə, radikal müxalifət ölkədə pozuçuluq fəaliyyətini davam etdirir. Əhalini oktyabrın 4-də, yerli seçkilərin keçirildiyi gün mitinqə çağırır və “dinc yolla” hakimiyyəti devirməyə səsləyir. “Nepal hadisələrini” önə çəkən müxalifət tanınmış xarici siyasətçilərə rüşvət verməklə hakimiyyətə qarşı təbliğat aparmağa həvəsləndirir.

*

Son günlər ABŞ konqresmeni Co Uilsonun hakim “Gürcü arzusu” partiyasına qarşı səsləndirdiyi əsassız və qərəzli ittihamlar, əslində, pul qarşılığında aparılan sifarişli kampaniyanın bir hissəsidir. Gürcüstan parlamentinin Avropaya inteqrasiya üzrə komitəsinin sədri Levan Maxaşvili bu məsələ ilə bağlı bəyanat verərək bildirib ki, bu, açıq şəkildə pulla təşkil olunmuş siyasi fəaliyyət nümunəsidir. Onun sözlərinə görə, heç kimə sirr deyil ki, belə tənqidi çıxışların arxasında real faktlar deyil, maliyyə maraqları dayanır.

Uilsonun “Gürcü Arzusu”nun, guya, ABŞ prezidenti Donald Trampı “yalançı” adlandırması ilə bağlı yaydığı məlumat, dezinformasiya olmaqla yanaşı, ictimai rəyə məqsədli təsir cəhdidir. Belə iddialar heç bir real fakta əsaslanmasa da, Gürcüstan əleyhinə informasiya fonu formalaşdırmaq üçün istifadə olunur. Parlamentin hüquqi məsələlər komitəsinin sədri Arçil Qorduladzə də bu prosesə münasibət bildirərək qeyd edib ki, Uilson pul qarşılığında istənilən bəyanatı verə biləcək bir fiqurdur və onun yaydığı məlumatların mahiyyəti yalan və absurddur.

Məsələ yalnız ayrı-ayrı bəyanatlarla məhdudlaşmır. ABŞ Ədliyyə Nazirliyinin yaydığı rəsmi sənədlər sübut edir ki, radikal müxalifət partiyası – “Vahid Milli Hərəkat” 2025-ci il iyulun 7-də ABŞ-ın lobbi şirkəti “Nelson Mullins Riley & Scarborough LLP” ilə müqavilə bağlayaraq həmin şirkətə 360 min ABŞ dolları (təxminən 972 min lari) məbləğində ödəniş edib. Bu müqaviləyə əsasən, lobbi şirkəti müxalifətin diplomatik fəaliyyətinə dəstək göstərməli, ABŞ-la əlaqələri gücləndirməli və Gürcüstanda “azad və ədalətli seçkilərin” təşviqi ilə məşğul olmalıdır.

Bu faktlar bir daha göstərir ki, Gürcüstanın siyasi mübarizə meydanı artıq daxili debatlarla məhdudlaşmır. Xarici təsirlər, maliyyə dəstəyi və siyasi sifarişlər bu prosesdə mühüm rol oynayır. Müxalifət “demokratiya”, “azadlıq” kimi dəyərlərdən istifadə edərək, əslində xarici dairələrin maraqlarını müdafiə edir. Bu isə yalnız ölkənin daxili suverenliyini deyil, ümumilikdə, siyasi sabitliyi ciddi təhdid edir.

Xüsusilə narahatedici hal ondan ibarətdir ki, bu fəaliyyətlərdə bəzi vətəndaşlar fəal şəkildə iştirak edirlər. Bu şəxslər “müxalifət fəalı” kimi təqdim olunsalar da, əslində, xarici sifarişlərin yerinə yetirilməsində vasitəçi rolunu oynayırlar. Onların fəaliyyəti milli maraqlara deyil, öz siyasi mövqelərini qorumaq üçün xaricdən aldıqları dəstəyə əsaslanır.

Son dövrlər Gürcüstan ictimaiyyətində artan siyasi şüur fonunda bu cür fəaliyyətlərə qarşı getdikcə daha sərt mövqe formalaşır. Cəmiyyət anlayır ki, pul qarşılığında verilən bəyanatlar, sifarişli lobbi fəaliyyəti və beynəlxalq dairələrin təzyiq cəhdləri Gürcüstanın inkişafına deyil, onun zəiflədilməsinə xidmət edir. Əsl milli maraqlar isə yalnız daxildə, xalqın iradəsi və ölkə daxilindəki resurslar hesabına qorunmalı və təşviq olunmalıdır.

Gürcüstan dövlət strukturlarının və parlament üzvlərinin bu məsələlərə verdiyi prinsipial və açıq reaksiyalar göstərir ki, ölkə artıq bu cür təxribatlara qarşı hazırlıqlıdır. Siyasi məsuliyyət, milli şüur və dövlətçilik düşüncəsi bu kimi xarici müdaxilələrə qarşı ən güclü qalxan kimi çıxış edir. Gürcüstan xalqı isə kimin tərəfində həqiqətim, kimin tərəfində isə yalnız pulun olduğunu yaxşı görür.

Beləliklə, Gürcüstanda yaranmış yeni siyasi reallıqda cəmiyyətin əhəmiyyətli bir hissəsi viza rejiminin bərpası təhdidinə görə siyasi sabitliyi pozmağın əleyhinədir. İnsanlar daha çox ölkənin daxili təhlükəsizliyi, sosial rifahı və hərbi qarşıdurmalardan uzaq durması ilə maraqlanır. Hökumət bu meylləri nəzərə alaraq, xarici siyasətdə neytrallığı və milli maraqlara əsaslanan qərarlar qəbul etməyi prioritet sayır.

Bununla belə, Gürcüstanın Avropaya inteqrasiyası hələ də gündəmdə olan siyasi istiqamətdir. Amma bu yolun necə davam edəcəyi artıq əvvəlki kimi birtərəfli deyil. Gürcüstan xarici siyasətində alternativ variantları da nəzərdən keçirir və Qərblə əməkdaşlığı yalnız qarşılıqlı hörmət və balanslı maraqlar əsasında davam etdirmək niyyətindədir.

***Səhifəni hazırladı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Müasir bank sistemində maliyyə savadlılığı

**Azərbaycan Mərkəzi Bankı sosial inkişafı dəstəkləmək və maliyyə inklüzivliyini genişləndirmək üçün maliyyə savadlılığının artırılmasına xüsusi önəm verir. Bu istiqamətdə beynəlxalq əməkdaşlıq imkanları daim genişləndirilir. Atılan addımların davamı olaraq qurum İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Beynəlxalq Maliyyə Savadlılığı Şəbəkəsinə tamhüquqlu üzv kimi qoşulub. Mərkəzi Bankın Bazar davranışlarının tənzimlənməsi departamentinin direktoru Tamerlan Əliyev ilə söhbət zamanı Bankın bu sahədə əldə edəcəyi yenilikləri müzakirə etdik.**

**– Tamerlan müəllim, Azərbaycan Mərkəzi Bankının İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Beynəlxalq Maliyyə Savadlılığı Şəbəkəsinə (İƏİT-BMSŞ) qoşulması ölkəmizin maliyyə sisteminə hansı yeni imkanlar qazandıracaq?**

– "Maliyyə Savadlılığı üzrə Beynəlxalq Şəbəkə" (INFE) 2002-ci ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) üzv ölkələr tərəfindən yaradılıb, 2008-ci ildən isə digər ölkələrin də qoşula bildiyi platformaya çevrilib. INFE maliyyə savadlılığı sahəsində siyasətlərin hazırlanması, təcrübə mübadiləsi və beynəlxalq səviyyədə müqayisə edilə bilən məlumatların toplanması üçün dövlət qurumlarını və digər tərəfləri bir araya gətirir.

Azərbaycan Mərkəzi Bankının bu təşkilata tamhüquqlu üzv kimi qoşulması texniki komitələrdə və simpoziumlarda iştirak imkanı verir, həmçinin siyasət sənədlərinin hazırlanmasında iştirak etmək üçün şərait yaradır. Bu iştirak yerli proqramların beynəlxalq təcrübə ilə daha erkən müqayisə edilməsinə və uyğunlaşdırılmasına imkan açır.

**– "Rəqəmsal maliyyə savadlılığı" istiqamətində beynəlxalq əməkdaşlıq çərçivəsində hansı konkret addımların atılması planlaşdırılır?**

– Beynəlxalq əməkdaşlıq çərçivəsində vətəndaşların rəqəmsal maliyyə bacarıqlarının ölçülməsi beynəlxalq standartlara uyğun aparıla bilər. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Beynəlxalq Maliyyə Savadlılığı Şəbəkəsi tərəfindən hazırlanmış sorğu alətləri bu sahədə geniş istifadə olunur və ölkələr arasında məlumatlılıq səviyyəsinin müqayisəli təhlilini aparmağa şərait yaradır.

Artıq bir sıra OECD ölkələri sorğu nəticələrinə əsasən hazırladıqları Rəqəmsal maliyyə savadlılığı strategiyasını icra etməkdədir. Yaxın dövrdə bu ölkələrin təcrübəsi ilə daha yaxından tanış olub, bu təcrübənin Azərbaycanda tətbiqinə dair ilkin addımların atılması nəzərdə tutulmuşdur.

**– İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Beynəlxalq Maliyyə Savadlılığı Şəbəkəsi çərçivəsində əldə edilən qabaqcıl təcrübələrin Azərbaycanda maliyyə inklüzivliyinin genişləndirilməsinə necə təsir göstərəcəyi gözlənilir?**



– Maliyyə savadlılığı proqramları maliyyə inklüzivliyinin genişləndirilməsində mühüm rol oynayır, çünki bilik və bacarıqların artırılması vətəndaşların maliyyə xidmətlərinə marağını və inamını gücləndirir. Rəqəmsal texnologiyaların inkişafı nəticəsində bank, sığorta və digər maliyyə xidmətlərinə çıxış daha da asanlaşır və məhdudiyyətlər azalır.

İƏİTBMSŞ çərçivəsində əldə edilən qabaqcıl təcrübələrin öyrənilməsi müxtəlif hədəf qrupları – fiziki məhdudiyyətli şəxslər, qadınlar, gənclər, kiçik sahibkarlar və ucqar bölgələrdə yaşayan əhali üçün xüsusi proqramların hazırlanmasına imkan verə bilər. Bu proqramlar həmin qrupların maliyyə xidmətlərinə çıxış imkanlarını genişləndirərək həm fərdi səviyyədə rifahın yüksəldilməsinə, həm də ümumilikdə maliyyə bazarlarının daha geniş əhatəyə malik olmasına şərait yarada bilər.

Bundan əlavə, beynəlxalq təcrübələrin tətbiqi inklüzivlik istiqamətində ölçmə və qiymətləndirmə mexanizmlərinin də təkmilləşdirilməsinə dəstək ola bilər. Bu isə həm mövcud boşluqların daha dəqiq müəyyən edilməsinə, həm də gələcəkdə daha hədəflənmiş və effektiv siyasətlərin formalaşdırılmasına imkan yaradacaq.

**– Maliyyə savadlılığı proqramlarının beynəlxalq standartlara uyğun tətbiqi və qiymətləndirilməsi yerli ictimaiyyət və xüsusilə gənclər üçün hansı üstünlüklər yaradacaq?**

– Beynəlxalq standartlara uyğun maliyyə savadlılığı proqramlarının tətbiqi ilk növbədə gənclərin maliyyə qərarvermə bacarıqlarını gücləndirir. Onlar büdcə planlaması, məsuliyyətli borclanma və qənaət vərdişlərini erkən yaşlardan qazanaraq uzun müddət təcrübə tətbiq edir, həmçinin rəqəmsal maliyyə təhlükəsizliyi sahəsində daha şüurlu davranırlar.

Maliyyə savadlılığı insanlara həyatın müxtəlif anlarında – təhsil, ailə qurmaq, əmlak almaq, biznesə başlamaq və ya pensiyaya hazırlaşmaq kimi mərhələlərdə daha düzgün maliyyə qərarları verməyə kömək edir. Bu bacarıqlar fərdlərin maliyyə sabitliyini gücləndirməklə yanaşı, onların rifahına da birbaşa təsir göstərir.

Belə proqramlar, eyni zamanda cəmiyyətin ümumi maliyyə sağlamlığını yaxşılaşdırır: borclanma yükü azalır, yığım səviyyəsi artır, iqtisadi dayanıqlıq möhkəmlənir. Beynəlxalq qiymətləndirmə metodologiyalarının tətbiqi isə proqramların effektivliyini ölçməyə, zəif tərəfləri müəyyənləşdirib mütəmadi təkmilləşdirməyə imkan verir. Nəticədə həm gənclər, həm də geniş ictimaiyyət maliyyə qərarlarını daha məsuliyyətli və məlumatlı şəkildə qəbul edir.

**– Mərkəzi Bankın beynəlxalq siyasət sənədlərinin hazırlanması prosesində iştirak etməsi milli maliyyə siyasətinin formalaşmasına hansı əlavə dəyəri verəcək?**

– Beynəlxalq siyasət sənədlərinin hazırlanmasında iştirak yerli maliyyə siyasətinin qlobal təcrübə ilə müqayisə edilməsinə və uyğunlaşdırılmasına şərait yaradır. Bu, ən yaxşı təcrübələrin öyrənilməsi və ölkə şəraitinə uyğunlaşdırılması üçün imkan açır.

Bununla yanaşı, beynəlxalq əməkdaşlıq Azərbaycanın maliyyə sahəsində mövqeyinin daha yaxşı tanınmasına dəstək olur və xarici tərəfdaşlarla əlaqələrin genişlənməsinə şərait yaradır.

**– Maraqlı müsahibəyə görə çox sağ olun.**

*Müsahibəni apardı:*
***Nurlan ABDALOV***
***XQ***

# Bakı daha yaşamalı şəhər olacaq



**XXI əsrdə şəhərlərin inkişafı təkcə iqtisadi göstəricilərlə deyil, həm də dayanıqlılıq prinsipləri ilə ölçülür. Sürətlə böyüyən Bakı da bu çağırışların önündə dayanır. Ekoloji tarazlığın qorunması, tullantıların idarə olunması, havanın və torpağın çirklənməsinin qarşısının alınması artıq yalnız texniki məsələ deyil, həm də milli təhlükəsizlik və sosial rifah məsələsinə çevrilib.**

Bu baxımdan Azərbaycanın Dünya Bankı ilə birgə başladığı "Yaşanılabilən Bakı" layihəsi strateji əhəmiyyət daşıyır. Layihənin hazırlıq mərhələsi üçün əldə edilən qrant hesabına Abşeronda bərk məişət tullantılarının vahid idarə olunması üzrə texniki-iqtisadi əsaslandırma hazırlanacaq. Bu sənəd gələcəkdə ölkəmizin ekoloji infrastrukturuna yönəlik uzunmüddətli yol xəritəsinin əsasını təşkil edəcək.

Bu layihə həm də sosial və iqtisadi imkanlar yaradır, həm də təbii ehtiyatların qorunmasına xidmət edir.

Bu layihənin icrasında İqtisadiyyat Nazirliyi aparıcı qurum kimi çıxış edir. Bu isə dövlətin ekoloji məsuliyyət məsələsinə sistemli yanaşdığını göstərir. Çünki tullantıların vahid idarə olunması sadəcə ətraf mühitin qorunması deyil, həm də iqtisadi islahatların davamı kimi qiymətləndirilə bilər.

## Ekspert rəyi



**Rövşən ABBASOV,**
**Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri**

Dünya Bankının Azərbaycanda həyata keçirdiyi bütün fəaliyyətlər müvafiq dövlət qurumları ilə razılaşdırılır və ölkənin strateji planları, fəaliyyət proqramları ilə uzlaşdırılır. Yəni hazırkı fəaliyyət Bakı şəhərinin inkişaf planı ilə tam uyğunluq təşkil edir. Çünki paytaxtın inkişaf planında məişət tullantılarının idarə olunması əsas istiqamətlərdən biri kimi nəzərdə tutulub.

Məişət tullantılarının idarə olunması ilə bağlı onu qeyd etmək olar ki, son illərdə vəziyyət xeyli yaxşılaşıb. Artıq Bakının bir çox rayonlarında tullantıların çeşidlənməsi həyata keçirilir. Tullantılar ayrı-ayrılıqda toplanaraq müvafiq emal müəssisələrinə göndərilir və ya yenidən emala cəlb olunur. Qeyd edim ki, Balaxanıdakı müəssisədə hazırda məişət tullantılarının emalı və utilizasiyası həyata keçirilir. Rəsmi statistikaya görə, 2024-cü ildə yaranmış bərk məişət tullantılarının əksəriyyəti zərərsizləşdirilmək üçün poliqonlara daşınıb, eyni zamanda, tullantılardan enerji əldə edilməsi də artıb və bunun sayəsində elektrik enerjisi istehsalı 2023-cü illə müqayisədə çoxalıb.

Ümumiyyətlə, 2025-ci ildə Azərbaycanın tullantıların idarə olunması sahəsində gördüyü işlər strateji və praktik səciyyə daşıyır. Sanitar poliqonların təmiri və modernləşdirilməsi, tullantıdan enerji layihələrinin təşviqi, qanunvericilikdə ekoloji tələblərin sərtləşdirilməsi, beynəlxalq layihələr və yerli təşkilatların potensialının artırılması bunu deməyə əsas verir. Lakin digər ərazilərdə və kənd yerlərində xidmətlərin tam əhatəliliyi üçün hələ də əlavə investisiyalar, texniki dəstək və bələdiyyələrin gücləndirilməsi tələb olunur. Yerli icmaların maarifləndirilməsi, inzibati savadlılığın yüksəldilməsi və özəl sektorun cəlb edilməsi prosesin davamlılığı üçün vacibdir.

Paytaxt və onun ətraf ərazilərində tullantı probleminin miqyası illərdir müzakirə olunur. İqtisadi inkişafla paralel olaraq əhali artımı və urbanizasiya prosesi tullantı həcmlərinin dəfələrlə çoxalmasına səbəb olub. Əgər bu məsələ sistemli şəkildə həll edilməzsə, həm ekoloji mühit, həm də ictimai sağlamlıq ciddi risklərlə üzləşəcək. Məhz bu səbəbdən layihə çərçivəsində yeni məlumatların toplanması, baza göstəricilərinin yenilənməsi, müxtəlif investisiya ssenarilərinin hazırlanması nəzərdə tutulur. Məsləhətçi qurum ilkin texniki-iqtisadi əsaslandırmanı yenidən gözdən keçirəcək, daha müasir yanaşmalarla tullantıların idarə olunması üçün alternativ modellər irəli sürəcək.

"Yaşanılabilən Bakı" layihəsi sırf texniki iş kimi görünməməlidir. Burada əsas hədəf insanların sağlam mühitdə yaşaması, gələcək nəsillərə təmiz şəhər miras qoyulmasıdır. Çünki ekologiyanın qorunması iqtisadiyyatın davamlılığı ilə sıx bağlıdır. Tullantıların düzgün idarə olunması, onların emalı və təkrar istifadəsi həm yeni iqtisadi imkanlar yaradır, həm də təbii ehtiyatların qorunmasına xidmət edir.

Azərbaycan son illərdə "yaşıl" enerji və ekoloji dayanıqlılıq istiqamətində mühüm təşəbbüslərlə çıxış edir. Bərpaolunan enerji mənbələrinin inkişafı, "yaşıl zona" elan edilmiş azad edilmiş ərazilərdə yeni layihələrin həyata keçirilməsi, su ehtiyatlarının səmərəli istifadəsi kimi addımlar ölkəmizin qlobal ekoloji gündəmdəki mövqeyini gücləndirir.

"Yaşanılabilən Bakı" layihəsi də bu prosesin tərkib hissəsidir. Çünki ekoloji problemlərin həlli olmadan dayanıqlı iqtisadi inkişafdan danışmaq mümkün deyil. Dünya Bankının dəstəyi ilə həyata keçirilən bu təşəbbüs Bakının təkcə bu gününü deyil, həm də gələcək onilliklərini formalaşdıracaq. Azərbaycan ekoloji problemlərin həllini yalnız lokal məsələ kimi deyil, strateji inkişaf xətti kimi görür. Bu isə həm paytaxt sakinlərinə, həm də gələcək nəsillərə daha təmiz, daha sağlam və daha yaşanılabilən bir Bakı vəd edir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# AİB ölkəmizə də texniki yardım ayırıb

**Asiya İnkişaf Bankı (AİB) "Özəl sektor əməliyyatlarında inkişafa təsirin dərinləşdirilməsi" layihəsi çərçivəsində 2,19 milyon ABŞ dolları məbləğində texniki yardımın ayrılmasını təsdiqləyib.**

Bankdan bildiriblər ki, layihə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan da daxil olmaqla 42 ölkəni əhatə edir. Maliyyələşdirmə Xüsusi Texniki Yardım Fondu vasitəsilə təmin ediləcək.

Bankın məlumatına görə, bu texniki yardım AİB-in bütün inkişaf etməkdə olan üzv ölkələrində özəl sektor əməliyyatlarında layihələrin keyfiyyətinin artırılmasına yönəldiləcək. "2030 Strategiyası çərçivəsində regionumuzun qarşılaşdığı cari çağırışları nəzərə alaraq, AİB-in üzv ölkələrə ərzaq təhlükəsizliyi problemlərinin həllində, rəqəmsal fərqin aradan qaldırılmasında, dayanıqlı enerji sistemlərinin inkişafında və iqlim dəyişikliyinə qarşı dayanıqlılığın gücləndirilməsində dəstək verməsinə təcili ehtiyac var. Bütün bu istiqamətlərdə daha cəsarətli, sürətli və sıx əməkdaşlıq içində hərəkət etmək lazımdır", – deyə məlumatda qeyd olunub.

Texniki yardım özəl sektorun inkişafını, regional əməkdaşlığı, rəqəmsal transformasiyanı, dayanıqlılığı və imkanların genişləndirilməsini təşviq etmək üçün maliyyə həlləri, bilik və tərəfdaşlıqların təmin edilməsinin yaxşılaşdırılmasına yönəlib. Yardımın ümumi nəticəsi özəl sektor əməliyyatlarının inkişafa təsirinin artırılmasıdır. Bu nəticəyə nail olmaq üçün bir sıra komponentlər nəzərdə tutulub. Bura, özəl sektora yüksək səmərəli investisiyaları stimullaşdırmağa yönəlmiş layihə portfelinin daha effektiv şəkildə formalaşdırılması və layihələrin işlənib hazırlanması; özəl sektor layihələrinin icrasının yaxşılaşdırılması; həmçinin özəl sektor vasitəsilə inkişafa təsirin qiymətləndirilməsi və bilik mübadiləsinin genişləndirilməsi daxildir.




Qeyd edək ki, Azərbaycan 1999-cu ildən Asiya İnkişaf Bankının üzvüdür. Ötən müddətdə bank ölkəmizə 5 milyard ABŞ dollarından çox kredit ayırıb. Eyni zamanda, bank Azərbaycanın nəqliyyat sektorunda həyata keçirilən layihələrə 1,5 milyard dollardan çox, enerji layihələrinə isə 1,7 milyard dollar yatırım edib.

***XQ***

# Azərbaycanda ilk Beynəlxalq İnvestisiya Forumu keçiriləcək

**Bakıda I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu keçiriləcək. Qlobal iqtisadi gündəlikdə mühüm yer tutan bu məclis Azərbaycana xarici sərmayələrin cəlbi, yeni tərəfdaşlıqların qurulması və ölkəmizin beynəlxalq maliyyə mərkəzi kimi mövqeyinin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.**

AZPROMO-dan XQ-yə bildirildi ki, Prezident İlham Əliyevin himayəsi, İqtisadiyyat Nazirliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO-nun təşkilatçılığı, Avropa Evi – "Ambrosetti"nin strateji tərəfdaşlığı, "Euronews"un media və "Sea Breeze"in təşkilati dəstəyi ilə sentyabrın 22–23-də keçiriləcək bu forumda dünyanın müxtəlif ölkələrindən dövlət qurumları, beynəlxalq maliyyə institutları, transmilli şirkətlər və işgüzar dairələrin nümayəndələrinin iştirakı nəzərdə tutulur.

Bakı bu dəfə təkcə regionun deyil, həm də qlobal biznes icmasının diqqət mərkəzinə çevriləcək. 2 gün ərzində qlobal iqtisadiyyat və investisiya sahələrində ən aktual məsələlər müzakirə olunacaq forumun proqramına plenar iclas, institusional görüşlər, tematik panel sessiyaları və sərgi daxildir. Sərgi çərçivəsində Azərbaycanın investisiya mühiti, strateji layihələri və yeni imkanları iştirakçılara təqdim olunacaq.

Panel müzakirələrində isə enerji, nəqliyyat, sənaye, kənd təsərrüfatı, rəqəmsal inkişaf, səhiyyə, daşınmaz əmlak və "yaşıl" iqtisadiyyat kimi mühüm sektorlar üzrə əməkdaşlıq perspektivləri araşdırılacaq. Forum, həmçinin dövlət rəsmilərini, nüfuzlu sahibkarları və beynəlxalq şirkətlərin rəhbərlərini bir araya gətirərək yeni tərəfdaşlıqlar üçün imkanlar açacaq.

Bununla yanaşı, AZPROMO hesab edir ki, tədbir Azərbaycanın iqtisadi gücünün, investisiya mühitinin və strateji mövqeyinin qlobal miqyasda tanıdılması baxımından mühüm fürsət olacaq: "İlk dəfə keçiriləcək bu forum ölkəmizin Şərq




ilə Qərb arasında etibarlı körpü rolunu bir daha təsdiqləyəcək. Azərbaycanın üzərindən keçən Orta Dəhliz Asiya ilə Avropanı birləşdirən əsas nəqliyyat arteriyasıdır və bu, logistika, ticarət və investisiya baxımından böyük üstünlüklər yaradır.

Yerləşdiyimiz strateji coğrafi mövqe və sabit iqtisadi mühit yeni layihələrin həyata keçirilməsinə əlverişli zəmin formalaşdırır. Makroiqtisadi sabitlik, güclü valyuta ehtiyatları və açıq biznes mühiti ölkəmizi investorlar üçün etibarlı tərəfdaşa çevirir. Tədbirin məqsədi yalnız ideyaların müzakirəsi ilə kifayətlənmək deyil, onları real layihələrə çevirmək, təşəbbüsləri regional əməkdaşlıq və ortaq rifah üçün praktiki nəticələrə yönəltməkdir. Bu baxımdan, texnologiya, kapital və bilik gətirən hər bir təşəbbüs tam dəstəklənəcək".

I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu yatırım dialoqunun qurulması ilə yanaşı, həm də Azərbaycanın iqtisadi potensialının beynəlxalq miqyasda təqdimatı üçün strateji platforma olacaq. İnanırıq ki, burada səslənəcək ideyalar uğurlu nəticələrə çevriləcək, imzalanacaq sazişlər isə Azərbaycanın gələcək inkişafına və regionun dayanıqlı tərəfdaşlıq şəbəkəsinin gücləndirilməsinə töhfə verəcək.

***XQ***

# Pambıq da əkirik, mahlıc da emal edirik, amma...

## Bəs niyə adi dəsmalı, corabı, sapı da kənardan gətiririk?



**Müstəqillik illərində Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin iqtisadi siyasətində aqrar sektorun bütün sahələri, o cümlədən pambıqçılığın inkişafı daim diqqət mərkəzində saxlanılıb, bu sahənin modernləşdirilməsi, mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması istiqamətlərində mühüm uğurlar əldə edilib. Son illərdə isə aqrar islahatların sürətləndirilməsi məqsədilə imzalanan qərarların, pambıqçılığın institusional, iqtisadi və texnoloji inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks layihələrin icrası ilə "ağ qızıl"ın yetişdirilməsinin keyfiyyətcə yeni inkişaf mərhələsi başlanılıb.**

Pambıqçılıqla bağlı bütün istehsal prosesini əhatə edən kompleks tədbirlər planına əsasən hazırkı dövr üçün nəzərdə tutulan bütün təşkilati, aqrotexnika ilə bağlı məsələlər vaxtında və keyfiyyətlə icra edilib. Pambıq istehsalçıları ilə şirkətlər arasında müqavilələrin bağlanılması, şum, arat, suvarma məsələləri diqqətdə saxlanılıb, texnika, pestisid və mineral gübrələrə tələbatın həcmi müəyyənləşdirilərək təmin edilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Cari mövsümdə də pambıq istehsalına hazırlıq, qarşıda duran vəzifələr, pambıqçılığın inkişafı kimi məsələlər diqqətdə saxlanılır, eyni zamanda, pambığın becərilməsində intensiv texnologiyalardan yararlanmaqla məhsuldarlığı artırmaq, bunun üçün torpaq və su resurslarından səmərəli istifadə etmək, növbəli əkinin tətbiqinə önəm vermək kimi amillərə prioritet istiqamətlər kimi yanaşılır. Bundan başqa, aqrotexniki tədbirlərin vaxtında və düzgün yerinə yetirilməsi, torpaq sahələrinin aqrokimyəvi analizinin aparılması, mineral gübrələrin düzgün istifadəsi, zərərvericilərə qarşı mübarizə tədbirlərinin vaxtında görülməsi də diqqətdə saxlanılır.

Görülən işlərin müsbət nəticəsi statistik rəqəmlərdə öz ifadəsini tapıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın avqust sayına əsasən 2025-ci ilin yanvar-iyul aylarında ixrac olunan pambıq iplik 2,6 milyon dollar və ya 18,2 faiz artıb. Bu dövrdə ixraca yönəldilən qeyri-neft sektoruna aid malların siyahısında üçüncü yerdə qərarlaşan və 109,7 milyon dollar həcmində (76 min 286 ton) pambıq lifi satılıb. Xatırladaq ki, 2024-cü ilin müvafiq dövründə respublikamızdan 126,4 milyon dollar dəyərində 82 min 360 ton pambıq lifi ixrac olunub.

Başqa bir statistik göstəriciyə də diqqət yetirək. Dövlət Statistika Komitəsinin məlumatına əsasən 7 ayda respublikada 47 min 722 ton (2024-cü ilin eyni dövrü ilə müqayisədə 32,1 faiz çox) pambıq mahlıcı istehsal edilib. Pambığın emalından əldə olunan iplik istehsalı və ixracında da artım qeydə alınıb. Belə ki, hesabat dövründə Azərbaycandan xaricə 17 milyon dollar həcmində 7 min 282 ton pambıq iplik satılıb. Pambıq iplik ixracı isə ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 2,6 milyon dollar və ya 18,2 faiz, miqdar ifadəsində isə 1 min 603 ton və ya 28,2 faiz çoxalıb.

### İplikdən parçaya, parçadan paltara...

İqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı istiqamətində strateji önəm daşıyan pambıq istehsalı son illərdə dövlətin məqsədyönlü siyasəti, fermerlərin maraqlarının artırılması, innovativ texnologiyaların tətbiqi və müasir emal müəssisələrinin qurulması nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyub.

Pambıq yalnız kənd təsərrüfatı məhsulu deyil, həm də sənaye üçün strateji xammaldır. Bu baxımdan, pambıqçılığın inkişafı həm kənd təsərrüfatının, həm də yüngül sənayenin tərəqqisinə təkan verir. Hazırda respublikada bu sahə sürətlə inkişaf etməkdədir. Dövlət dəstəyi və subsidiya mexanizmləri, texnikanın güzəştli şərtlərlə fermerlərə təqdim olunması, müasir suvarma sistemlərinin tətbiqi və aqrotexniki xidmətlərin gücləndirilməsi nəticəsində məhsuldarlıq da getdikcə artır. Belə ki, əgər əvvəllər hər hektardan 15–20 sentner məhsul götürülürdüsə, hazırda bəzi rayonlarda bu göstərici 30–35 sentnerə çatır.

Onu da qeyd edək ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, keçən il ölkədə, ümumilikdə, 103,1 min hektar sahədə pambıq əkilib. Bu, əvvəlki illə müqayisədə 25 faiz genişləndirilmə deməkdir, eyni zamanda, pambıq əkini sahələrinin artması tendensiyasını göstərir. Hesabat dövründə pambıq istehsalı da bir il əvvəllə müqayisədə 30,7 min ton artıb. Belə ki, 2023-cü ildə 276,3 min ton, keçən il isə 307 min tondan çox pambıq istehsal edilib. İstehsalın artmasına əkin sahələrinin genişləndirilməsi və məhsuldarlığın qismən çoxalması təsir göstərib. Ötən il ən çox pambıq Saatlı (43 min ton), Ağcabədi (36,8 min ton) və Sabirabad (33,7 min ton) rayonlarında istehsal edilib. Bu dövrdə məhsuldarlıq da yüksəlib. Məsələn, Biləsuvar rayonunda 2024-cü ildə 6 min 915,8 hektar sahəyə çiyid səpilib. Sahələrdən 24 min 776,98 ton pambıq toplanıb. Nəticədə rayon üzrə orta məhsuldarlıq 35,8 sentnerə yüksəlib. Bu məhsuldarlıq rayon üzrə son 40 ilin ən yüksək göstəricisi kimi qeydə alınıb.

Pambıq istehsalının artması emal sənayesinin də genişlənməsini zəruri edib. Bu, bölgələrdə yeni pambıq emalı zavodlarının inşa olunması, mövcud olanların modernləşdirilməsinin həyata keçirilməsi ilə öz ifadəsini tapıb. Belə müəssisələrdə qabaqcıl texnologiyaların tətbiqinə üstünlük verilib. Bununla da mahlıcın keyfiyyətinin yüksəlməsinə, itkilərin minimuma endirilməsinə və ixrac üçün rəqabət qabiliyyətli məhsulun əldə edilməsinə nail olunub.

Hazırda pambıqçılıq üzrə klaster modelinin tətbiqi istiqamətində önəmli layihələr gerçəkləşdirilir. Belə bir yanaşma fermerlərdən tutmuş emal müəssisələrinə, hazır tekstil fabriklərindən ixrac şirkətlərinə qədər bütün zənciri vahid sistemdə birləşdirir. Bu isə səmərəliyin artırılmasına, istehsalın şəffaf idarə olunmasına və iqtisadi dəyərin ölkə daxilində formalaşmasına zəruri şərait yaradır.

Yeri gəlmişkən, burada bir məqamı xatırlatmaq istərdik. Mingəçevir Sənaye Parkında rezidentlik status ilə cari ilin əvvəlindən fəaliyyət göstərən Azərbaycan – Özbəkistan birgə kapitallı "Textile Horizon" MMC-nin ərazisində mahlıc, iplik, parça, geyim istehsal edəcək müəssisələrin inşa olunacağı və bununla da ölkəmizdə ilk dəfə olaraq tekstil sahəsində klasterləşmə formalaşdırılacağı nəzərdə tutulub.

Almaniya, İsveçrə, İspaniya, Türkiyə kimi ölkələrin qabaqcıl texnologiyalarının tətbiq ediləcəyi müəssisələrdə il ərzində 11,6 min ton iplik, 7,3 min ton xam parça, 6,2 min ton boyalı parça, 11,8 milyon ədəd tikiş məhsulu (geyim) istehsal olunacaq. İnvestisiya dəyəri 153 milyon manat təşkil edən layihə çərçivəsində 2300-dən artıq daimi iş yeri yaradılacaq. 2027-ci ildə istismara veriləcəyi planlaşdırılan müəssisələrdə istehsal ediləcək məhsulların daxili bazarda satışı ilə yanaşı, ixracı da həyata keçiriləcək.

### Son məhsulun həll yolları

Hazırda Azərbaycanın iplik istehsalı sahəsində müəyyən müəssisələr var və onlar müəyyən həcmdə istehsalı gerçəkləşdirir. Amma bu potensial ümumi pambıq istehsalını əhatə edə bilmir. Məsələn, Mingəçevir Sənaye Parkında fəaliyyət göstərən iplik fabrikləri ölkə üçün strateji əhəmiyyət daşıyır. Burada istehsal olunan iplik həm daxili bazara, həm də ixraca yönəldilir. Gələcəkdə bu sahəyə əlavə investisiya yatırılarsa, Azərbaycan yalnız mahlıc ixrac edən deyil, həm də ipliyi xaricə satan ölkəyə çevrilə bilər. Bu, ölkə iqtisadiyyatına xeyli əlavə dəyər gətirər.

Yuxarıda qeyd etdik ki, Mingəçevir Sənaye Parkında 2027-ci ildə istismara veriləcəyi planlaşdırılan və mahlıc, iplik, parça, geyim istehsal ediləcək müəssisələrin əsasında respublikamızda ilk dəfə olaraq tekstil sahəsində klasterləşmənin formalaşdırılacağı nəzərdə tutulur. Hələlik isə ölkədə pambıqçılıq əsasən mahlıc istehsalı ilə yekunlaşır. Yəni ilkin mərhələdə pambıq təmizlənərək mahlıc formasında ixrac edilir. Bu isə əlavə dəyər zəncirində son mərhələyə qədər gedə bilməməyimizi göstərir. Başqa sözlə, hazırda pambıqdan son məhsulun – iplik, parça, geyim və digər tekstil məmulatları istehsalında mövcud potensial reallaşmır.

Bu məqamda bir məsələni də xatırlatmaq istərdik. 2018-ci ilin fevralında Mingəçevir Sənaye Parkında fəaliyyətə başlayan "Mingəçevir Tekstil" MMC-yə məxsus iki iplik fabrikində pambıq mahlıcından ildə 10 min tonu "Ring", 10 min tonu isə "Open End" üsulu ilə olmaqla, ümumilikdə, 20 min ton müxtəlif cür iplik istehsalı nəzərdə tutulub. "Ring" üsulu ilə istehsal edilən pambıq – poliester iplik daha zərif və yumşaq olduğu üçün uzun lifli pambıqdan alınır və daha bahalıdır. Bu məhsuldan əsasən köynək istehsal olunur. "Open End" üsulu ilə alınan iplik isə daha kobud olduğundan əsasən cins və digər geyimlərin istehsalında istifadə edilir.

Bu isə mahlıcdan ipliyin əldə olunması üçün ölkədə istehsal gücünün yetərincə olmadığını deməyə əsas verir. Eyni zamanda, əldə olunan ipliyi parçaya, parçanı paltara çevirmək potensialı da çox məhduddur. Buna görə də hazırda pambıqçılığın sürətlə inkişafı, innovativ texnologiyaların tətbiqi və yüksək məhsuldarlığın əldə olunması nəticəsində qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal sahələrinin yaradılması əsas məqsədlərdən biridir.

Statistik məlumatlara əsasən Azərbaycan hər il yüz minlərlə ton pambıq mahlıcı ixrac edir. Lakin həmin mahlıc xaricdə ipliyə, parçaya, daha sonra isə hazır geyimə çevrilərək dünya bazarına çıxarılır. Nəticədə ölkə iqtisadiyyatı yalnız xammal ixracından gəlir əldə edir, halbuki son məhsulun dəyəri qat-qat yüksəkdir. Bu mənzərə göstərir ki, son məhsul istehsalının inkişafı qarşıda duran ən mühüm vəzifələrdən biridir.

Pambıqdan son məhsulun əldə olunması üçün infrastruktur quruculuğunun diqqətdə saxlanılması və bununla bağlı mövcud potensialın hərəkətə gətirilməsi mühüm amillərdən biridir. Elə buna görə də sözügedən sahədə tam dəyər zəncirinin formalaşdırılması məqsədilə bu gün pambıqçılığın inkişafı ilə bağlı dövlət tərəfindən geniş infrastruktur layihələri reallaşdırılır, müasir pambıq emalı zavodları, logistika mərkəzləri, anbar sistemləri yaradılır.

Hazırda respublikada iplik istehsalı üzrə müəyyən müəssisələr fəaliyyət göstərsə də, onların gücü istehsal olunan bütün mahlıcı emal etməyə çatmır. Parça və hazır geyim istehsalı isə nisbətən məhdud səviyyədədir. Başqa sözlə, infrastrukturun ilk mərhələsi – mahlıc istehsalı sahəsində ciddi irəliləyiş olsa da iplik, parça və hazır məhsul zənciri hələ tam gücü ilə işləmir. Bu istiqamətdə dövlətin dəstəyi və özəl investisiyaların cəlb olunması, eləcə də tekstil klasterlərinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, Sumqayıt və Mingəçevir sənaye parklarında tekstil müəssisələrinin yaradılması ümidverici nümunələrdən biridir.

Göründüyü kimi, Azərbaycanın hazırda ən zəif həlqəsi məhz iplikdən parçaya, parçadan isə paltara çevrilmə mərhələsidir. Hazır geyim sənayesi ölkədə məhdud miqyasda fəaliyyət göstərir və əsasən daxili bazarın kiçik bir hissəsini təmin edir. Bunun əsas səbəblərindən biri yüksək texnologiyalı avadanlıqların, peşəkar işçi qüvvəsinin və beynəlxalq bazarlara çıxış imkanlarının məhdud olmasıdır.

Bununla belə, qarşıda duran vəzifəni gerçəkləşdirmək üçün kifayət qədər geniş imkanlar var. Azərbaycanın coğrafi mövqeyi, logistika şəraiti, ixrac bazarlarına yaxınlığı, dövlətin qeyri-neft sənayesinə dəstəyi bu sahənin inkişafına əlverişli şərait yaradır. Əgər iplik istehsalı genişləndirilsə və parça istehsalı üçün yeni fabriklər qurulsa, ölkə yaxın gələcəkdə öz brendləri ilə beynəlxalq geyim bazarına çıxmaq imkanına sahib ola bilər.

### Emal zavodları necə işləyir?

Bu gün ölkədə fəaliyyət göstərən pambıq emalı zavodlarının əksəriyyəti modernləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılır. Müəssisələrdə mahlıcın keyfiyyətli emalı, lifin ayrı-ayrılıqda çeşidlənməsi və ixrac üçün uyğun məhsul hazırlanması mümkündür. Lakin problemlər də nəzərə çarpır. Bəzi bölgələrdə mövcud zavodların tam gücü ilə işləməməsi, texnoloji yenilənməyə zəruri ehtiyacın duyulması, xammalın daşınmasında logistika çətinliklərinin müşahidə olunması bu sahədə perspektivdə görüləcək işlərin miqyası haqqında aydın təsəvvür yaradır. Lakin buna baxmayaraq, ümumi mənzərə ümidvericidir və son illərdə bu istiqamətdə bir sıra zəruri layihələrin reallaşdırılması emal zavodlarının fəaliyyətini qənaətbəxş qiymətləndirməyə imkan verir.

2015-ci ildən başlayaraq dövlətin həyata keçirdiyi məqsədyönlü proqramlar pambıqçılığın sürətli inkişafına müsbət təsir göstərib. Statistik göstəricilərə əsasən həmin il ölkədə cəmi 35 min ton pambıq tədarük olunmuşdusa, 2023-cü ildə bu rəqəm 335 min tona yaxınlaşıb. Son 8 ildə isə pambıq istehsalı təxminən 8-10 dəfə arıb. Məhsuldarlıq göstəriciləri də yüksəlib: əvvəllər orta məhsuldarlıq 15–20 sentner/ha idisə, hazırda bir sıra rayonlarda bu göstərici 30–35 sentner/ha səviyyəsində qeydə alınıb.

Yeri gəlmişkən, onu xatırladaq ki, bu ilin I rübündə Azərbaycanda 7 milyon 699 min kvadratmetr pambıq parça istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 7,6 faiz çoxdur. Qeyd edək ki, 2024-cü ildə Azərbaycanda 30 milyon 706 min kvadratmetr (2023-cü illə müqayisədə 7,2 faiz çox) pambıq parça istehsal edilib.

Məhsul bolluğu yeni emal müəssisələrinin qurulmasına da zəmin yaradır. Hazırda respublikada 20-dən çox pambıq emalı zavodu fəaliyyət göstərir. Onların əksəriyyəti son illərdə ya yenidən qurulub, ya da müasir texnologiyalarla təchiz edilib. Bu müəssisələrdə mahlıcın təmizlənməsi, keyfiyyətli liflərin çeşidlənməsi və ixraca hazır məhsulun hazırlanması həyata keçirilir. Belə bir genişmiqyaslı layihələrin həyata keçirilməsi pambıqdan daha çox son məhsulun alınacağına, perspektivdə bu sahədə inkişaf etmiş ölkələrin sırasına qoşulacağına əminlik yaradır.

Qeyd edək ki, hazırda Türkiyənin illik iplik istehsalı 2 milyon ton, Özbəkistanın isə 1,4 milyon tondur. Azərbaycan bu göstəricilərdən hələlik geridə qalır. Amma nəzərə alsaq ki, pambıqçılığın inkişafı son 7–8 ildə intensiv mərhələyə qədəm qoyub, yaxın 5–10 ildə iplik istehsalının dəfələrlə artırılması real görünür. Ölkədə tekstil sahəsinin inkişafında da gerilik nəzərə çarpır. Azərbaycanın hər il yüz milyonlarla dollar dəyərində tekstil və geyim idxal etməsi də məhz bununla bağlıdır.

Beynəlxalq bazar təcrübəsi göstərir ki, iplik istehsalından hazır geyim ixracına qədər uzanan dəyər zəncirinin qurulması iqtisadiyyata böyük töhfə verir. Türkiyə bunun bariz nümunəsidir: pambıq istehsalını artırmaqla yanaşı, parça və geyim ixracında da dünyanın ilk beşliyində qərarlaşır. Azərbaycan üçün də oxşar model mümkündür. Əgər iplik fabriklərinin gücü artırılsa, parça istehsalı müəssisələri qurulsa və hazır geyim fabrikləri yaradılarsa, ölkəmiz brend məhsullarla dünya bazarında öz yerini tuta bilər.

Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Məhsuldarlığın yüksəlməsi emal sənayesinin inkişafına müsbət təsir göstərən əsas amillərdən biridir. Artıq iplik fabrikləri var, ancaq iplik fabrikləri məhsulun cəmi 50 faizini emal edir. Biz iplik fabriklərindən o tərəfə getmirik. Amma parça istehsal olunmalıdır – hazır məhsul".

Beləliklə, ölkəmiz pambıqçılıq sahəsində son illərdə əldə etdiyi uğurlarla regionun mühüm istehsalçılarından birinə çevrilib. Amma əsas vəzifə xammal ixracından imtina edib, son məhsul istehsalına yönəlməkdir. Bunun üçün:

***– mövcud iplik fabriklərinin gücü genişləndirilməli,***

***– yeni parça və tekstil müəssisələri qurulmalı,***

***– yerli brendlər formalaşdırılmalı,***

***– ixrac üçün beynəlxalq bazarlara çıxış imkanları artırılmalıdır.***

Əgər bu istiqamətdə dövlət-özəl tərəfdaşlığı gücləndirilsə, infrastruktur tamamlansa və əlavə investisiyalar yatırılsa, Azərbaycan yalnız xammal ixrac edən deyil, həm də yüksək əlavə dəyərli tekstil məhsulları buraxan respublikaya çevrilə bilər. Bunun nəticəsində həm iqtisadi gəlirlər artar, həm də minlərlə yeni iş yeri açılar.

***Vaqif BAYRAMOV***
***XQ***

**Ekspert rəyi**



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

**Toxuculuq sənayesinin əsas xammal bazasını təşkil edən pambıqçılığın istehsalında son illər ciddi inkişaf dinamikası var. Lakin pambıq mahlıcından iplik emalı potensialı mövcud tələbatın, təxminən, 30-40 faizi həcmindədir. Parça istehsalının isə mövcud xammal bazasına nisbətdə göstəriciləri daha aşağıdır.**

Hökumət hazırda dəyər zənciri üzrə daha çox əlavə dəyərin yaradılmasına nail olmaq və daxili tələbatı yerli istehsal hesabına gerçəkləşdirmək məqsədilə iplik fabriklərinin və toxuculuq kombinatlarının tikilməsinə daha çox önəm verir. Kənd Təsərrüfatı və İqtisadiyyat nazirliklərinin pambıqçılığın klaster əsasda inkişafı üçün apardığı kompleks qiymətləndirmə də bunun bariz ifadəsidir. Pambığın son məhsula, yəni ən azı parçaya çevrilməsi üçün klaster yanaşması da nəzərə alınmaqla əsaslandırma hazırlanması bu istiqamətdə atılan ən mühüm addımlardan biridir. Başqa sözlə, burada əsas məqsəd ölkəmizdə xam pambıqdan parça istehsal olunmasının gerçəkləşdirilməsidir.

Qeyd edim ki, mahlıcdan ipliyin əldə olunması üçün ölkədə istehsal gücü kifayət etmir. Eyni zamanda, əldə olunan ipliyi parçaya, parçanı isə paltara çevirmək potensialı da məhdud olması ilə narahatlıq doğurur. Pambıqçılığın sürətlə inkişafı, innovativ texnologiyaların tətbiqi və yüksək məhsuldarlığın əldə olunması nəticəsində qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal sahələrinin təşkilinə ciddi ehtiyac duyulur. Mahlıcdan ipliyin, iplikdən parça, ondan isə son məhsul əldə olunması üçün zəruri infrastrukturun, istehsal gücünün olmaması üzündən yığılan pambığın xeyli hissəsi mahlıc və iplik şəklində xaricə satılır.

Dövlət Statistika Komitəsinin açıqladığı məlumata görə, cari ilin 7 ayında respublikada 47 min 722 ton (2024-cü ilin eyni dövrü ilə müqayisədə 32,1 faiz çox) pambıq mahlıcı istehsal edilib. Pambıq iplik ixracı da ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 2,6 milyon dollar və ya 18,2 faiz, miqdar ifadəsində isə 1 min 603 ton və ya 28,2 faiz çoxalıb.

Yeri gəlmişkən, bu məqamda mütəxəssislərin bir fikrini də diqqətə çatdırmaq istərdim. Bildirilir ki, Azərbaycanda istehsal olunan pambıq yüksəkkeyfiyyətli geyim istehsalına uyğun gəlmir. Bir çox hallarda istehsal olunan pambığın keyfiyyəti qənaətbəxş olmur, onun orta lif uzunluğu, qalınlığı, təmizliyi və digər göstəricilər beynəlxalq standartlara cavab vermir. Lakin ölkə pambığı yüksəkkeyfiyyətli, brend geyim istehsalı üçün o qədər də yararlı olmasa da yataq dəstləri və bez məhsulların hazırlanmasına uyğun gəlir.

# Bölgələrdə Suverenlik Günü şənlikləri






**20 Sentyabr Suverenlik Günü ölkəmizin bütün bölgələrində rəngarəng tədbirlərlə qeyd edilib. Keçirilən təntənəli mərasimlərdə ötən ildən dövlət bayramları sırasında yer almış bu şərəfli günün xalqımızın çoxəsrlik arzularını, Qarabağda suverenliyimizin tam bərpası ilə konstitusiyalı quruluşun ölkənin hər yerində bərqərar olmasını təcəssüm etdirdiyi vurğulanıb.**

## Zaqatala

Zaqatalanın Heydər Əliyev Mərkəzində Konstitusiya və Suverenlik İli çərçivəsində 20 Sentyabr Dövlət Suverenliyi Günü münasibətilə "Suveren dövlətim qürur mənbəyimdir" mövzusunda toplantı keçirildi.

Zaqatala Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tofiq Əhmədovun, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, polkovnik Cəlil Xəlilovun, rayon rəhbərlərinin və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri mərasimdə əvvəlcə Dövlət Suverenliyi Gününə həsr ounmuş film nümayiş etdirildi.

Sonra Zaqatala Rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Anar Seyidov "Suveren dövlətim qürur mənbəyimdir" mövzusunda məruzə ilə çıxış etdi. O, 2020-ci il 44 günlük Vətən müharibəsində Silahlı Qüvvələrimizin qazandığı Zəfərdən, 2023-cü il sentyabrın 19-20-də lokal antiterror əməliyyatı nəticəsində Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış bütün əraziləri üzərində suverenliyini tam təmin etməsindən söz açdı. Natiq bildirdi ki, Prezident İlham Əliyevin bütün bunları nəzərə alaraq 2024-cü il sentyabrın 19-da Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında sərəncam imzalaması bu misilsiz tarixi nailiyyəti müstəqillik təqvimimizdə əbədiləşdirdi.

Digər çıxış edənlər ulu öndər Heydər Əliyevin yaratdığı möhtəşəm əsasların, Prezident İlham Əliyevin gerçəkləşdirdiyi müdrik və qətiyyətli siyasətin xalqımızı bu böyük qələbəyə yetirdiyini, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam gerçəkləşdirdiyini vurğuladılar.

## Tovuz

20 Sentyabr Dövlət Suverenliyi Günü münasibətilə Tovuz rayonunda da silsilə tədbirlər keçirildi. Tovuz Rayon İcra Hakimiyyətinin təşkil etdiyi "Suverenlik qürurumuzdur" mövzusunda toplantıda Qarabağ zəfəri və sonrakı antiterror tədbirlərində qazanılan qələbə ilə suverenliyimizin bütün ölkəmizi əhatə etməsi qürurla və ucadan səsləndi.



Dəyirmi masa formatında məclisdə davam edən mərasimdə Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov ötən ildən ölkəmizdə Dövlət Suverenliyi Günü"nün qeyd edilməsinin ictimai-mədəni həyatımıza yeni bir təntənə gətirdiyini qeyd etdi. O qeyd etdi ki, Suverenlik Günü Azərbaycanın milli dövlətçiliyinin güclənməsinin, xalqın öz taleyinə qəti surətdə sahib çıxmasının rəmzinə çevrilib. Azərbaycan artıq öz suverenliyini kağız üzərində deyil, həyatın bütün sahələrində də təsdiqləmiş bir dövlətdir.

Dəyirmi masa rayon icra hakimiyyəti başçısının birinci müavini Rəşad Zeynalov, Qazax-Tovuz Regional Gənclər və İdman İdarəsinin Tovuz sektorunun müdiri Vasif Abdullayev, Tovuz Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor müavini Vüqar Əhmədov və Əsrik Cırdaxan kənd tam orta məktəbinin direktoru Tural İmanov suverenliyin hüquqi-siyasi əhəmiyyətindən danışdılar, onu xalqımızın milli kimliyinin təsdiqi və mənəvi irsi kimi də dəyərləndirdilər.

***XQ***

# Dünya ədəbiyyatının "Tanrı dağı" UNESCO zirvəsində




**UNESCO-nun mənzil-qərargahında "Çingiz Aytmatov və UNESCO: Dünyanı birləşdirən ortaq irs" adlı beynəlxalq konfrans keçirilib. Mərasim Qırğız Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyi, TÜRKSOY və Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə təşkil olunub.**

Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev xalqımızın Çingiz Aytmatova dərin hörmət və ehtiram bəslədiyini bildirib. O, qeyd edib ki, Aytmatovun yaradıcılığı milli köklərə bağlı olmaqla yanaşı, ümumbəşəri məzmun daşıyır və bu xüsusiyyət onu XX əsrin ən görkəmli yazıçı və mütəfəkkirlərindən birinə çevirib. Aytmatov yalnız ədəbiyyat xadimi kimi deyil, həm də xalqlar arasında dostluğa, sülhə və mədəniyyətlərarası dialoqa töhfələr verib.

Ümummilli lider Heydər Əliyevlə Çingiz Aytmatov arasındakı yaxın dostluğa toxunan E.Abdullayev qeyd edib ki, böyük yazıçı 2008-ci ildə Bakıya son səfəri zamanı Prezident İlham Əliyev tərəfindən "Dostluq" ordeni ilə təltif edilib. O, çıxışının sonunda 2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bişkekə səfərinə dair videoçarxı təqdim edib. Videoçarxda Azərbaycan Prezidentinin Çingiz Aytmatovun ev-muzeyinə ziyarəti və həmin səfər çərçivəsində ona "Çingiz Aytmatov" ordeninin təqdim edilməsi əks olunub.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli "Çingiz Aytmatov fenomeni və Azərbaycan faktoru" mövzusunda çıxışında Çingiz Aytmatovun yaradıcılığının bəşəri miqyasını xüsusi vurğulayaraq, onun dünya ədəbiyyatının "Tanrı dağı" adlandırıldığını qeyd edib. AMEA-nın prezidenti bildirib ki, Aytmatov öz əsərlərində milli dəyərlərlə bəşəri idealları birləşdirərək ədəbiyyatın yeni fəlsəfi üfüqlərini açıb. O, ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin Çingiz Aytmatovun yaradıcılığına verdiyi yüksək dəyərin Azərbaycan xalqının ona göstərdiyi sarsılmaz ehtiramın bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Konfrans film nümayişi, panel müzakirələri ilə davam edib.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Borçalılıların Üzeyir Hacıbəyli sevgisi



**Tbilisidə fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzində böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyinə və Milli Musiqi Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin nümayəndələri, Borçalı ziyalıları, Tbilisidəki ali təhsil ocaqlarının tələbələri iştirak ediblər. Əvvəlcə Üzeyir Hacıbəylinin şah əsəri olan Azərbaycan himni səsləndirilib.**

Tədbiri giriş sözü ilə açan mərkəzin sədri Leyla Əmrahova dahi bəstəkarın həyat yolundan, zəngin yaradıcılığı və elmi irsindən danışıb, onun milli musiqimizin inkişafında mühüm xidmətlər göstərdiyini qeyd edib. Onun sözlərinə görə, Üzeyir Hacıbəyli XX əsrdə Azərbaycan xalqının yetirdiyi görkəmli publisist, milli opera sənətimizin banisi, musiqi nəzəriyyəçisi, bəstəkar, ədib və lüğətçi kimi tanınıb. Prezident İlham Əliyevin imzaladığı sərəncam Üzeyir Hacıbəyli irsinin təbliği, yaradıcılığının dərindən öyrənilməsi və gələcək nəsillərə çatdırılması məqsədini güdür. Bəstəkarın ən məşhur əsərləri arasında "Leyli və Məcnun", "Koroğlu", "Əsli və Kərəm" operaları, "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyaları və bir çox instrumental əsərləri yer alır. Onun yaratdığı opera və baletlər yalnız Azərbaycan musiqisinin deyil, ümumən Şərq musiqisinin zənginliyini dünyaya tanıtmışdır.

Gürcüstandakı səfirliyimizin müşaviri Samir Əbdürəhimov çıxışında soydaşlarımızı Milli Musiqi Günü münasibətilə təbrik edərək bildirib ki, 2025-ci il fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Üzeyir Hacıbəylinin 140 illik yubileyinin qeyd olunması ilə bağlı sərəncam imzalanmışdır. Yubileyin yüksək səviyyədə keçirilməsi haqqında qərar görkəmli bəstəkar, musiqişünas, Azərbaycanın milli musiqi mədəniyyətinin inkişafına mühüm töhfələr vermiş Üzeyir Hacıbəyli irsinə dövlətimizin böyük önəm verdiyini göstərir. Bu tədbirlər isə dahi bəstəkarın yaradıcılığının dəyərləndirilməsi və gənc nəslə lazımınca çatdırılması istiqamətində mühüm addımdır. Üzeyir bəyin bəstələdiyi musiqi əsərləri özlərinin milliyi, xalqın ruhundan xəbər verməsi ilə seçilir. Ona görə də xalqımız bu əsərləri daim sevə-sevə dinləyir.

AMEA-nın Tarix və Etnologiya İnstitutunun əməkdaşı Faiq İsmayılov milli musiqimizi ana laylası ilə müqayisə edib, Üzeyir irsinin xalqımızın yaddaşında əbədi yaşayacağını söyləyib. İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin tarix fakültəsinin tələbəsi Cəlal Yadigarov sazda "Ruhani" və "Baş Dübeyti" havalarını ifa edib. Müğənni Ayxan İbadov Emin Sabitoğlunun "Sənsiz" və "Şükriyyə" mahnıları ilə dinləyicilərin zövqünü oxşayıb.

Azərbaycan Mədəniyyət Nazirliyi və "Dalğa" FM radiosunun birgə layihəsi olan "Sənətin səsi" verilişinin aparıcısı Sevinc Salahova soydaşlarımızı Milli Musiqi Gününə həsr olunmuş tədbir münasibətilə təbrik edib. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimi, tarzən Səxavət Məmmədov isə tədbirə onlayn formada qoşularaq "Arşın mal alan" operasından bir parça ifa edib.

Sonda dahi bəstəkarın anadan olmasının 140 illiyinə həsr olunmuş film nümayiş etdirilib. Vətən müharibəsi şəhidi Xudayar Yusifzadənin ifasında "Xudayar təsnifi" səsləndirilib.

***P.ƏMİRCANOV***
***XQ***

# TƏBİB "Formula 1"in xidmətində



**TƏBİB Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (Baku City Circuit) ilə əməkdaşlıq çərçivəsində "Formula-1 Qatar Airways Azərbaycan Qran-prisi 2025"də tibbi xidmətə ehtiyac yaranacağı hallar üzrə xidmət təşkili edib.**

Qurumdan XQ-yə verilən məlumata görə, yarış xətti boyunca iştirakçılara, "Formula-1" çərçivəsində xidmət göstərən şəxslərə, eləcə də tamaşaçılara təcili və təxirəsalınmaz tibbi xidmətin tələb olunduğu hallarda, eyni zamanda yarışlar səbəbilə giriş-çıxışı məhdudlaşdırılmış ərazidə yaşayan əhali üçün təcili və təxirəsalınmaz tibbi yardım postları qurulub.

Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzi tərəfindən 18-21 sentyabr tarixlərində qrafik üzrə təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin təşkili üçün ümumilikdə 22 briqada, 28 həkim-mütəxəssis və tibb bacısı fəaliyyət göstərəcək.

Yarış müddətində tibbi xidmətin təşkili istiqamətində gücləndirilmiş iş rejimində fəaliyyətə dair TƏBİB-in tabeliyindəki Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanası, Kliniki Tibbi Mərkəz, Yeni Klinika, Xətai Tibb Mərkəzi, Nərimanov Tibb Mərkəzi və Sabunçu Tibb Mərkəzinin rəhbərliklərinə müvafiq tapşırıqlar verilib.

Təhkim olunan bütün tibb işçiləri saat 08:00-dan 00:00-a qədər növbəli xidmət göstərir.

Qeyd edək ki, tibb və qeyri-tibb işçilərinin hər biri bir çox beynəlxalq tədbirlərdə xidmət aparan, xarici dil biliklərinə malik təcrübəli mütəxəssislərdir.

***Fidan ƏLİYEVA***
***XQ***

# Azərbaycanın Uzaq Şərqdə yeni tərəfdaşları



**Ada dövlətləri olan və əhalisinin böyük əksəriyyəti İslam dininə mənsub İndoneziya və Malayziya Azərbaycanın əməkdaşlıq etdiyi dövlətlər arasındadırlar.**

Ən böyük müsəlman topluluğuna malik olan İndoneziya regionun aparıcı dövlətlərindən biridir və yüksək inkişaf potensialına malikdir. Yerləşdiyi regionda İslamın yayılmasında və qorunmasında mühüm paya malikdir. Həmçinin, son dövrlərdə sürətli inkişafı, modern dünyada nüfuzunu artırması diqqətəlayiq məqamlardır.

Azərbaycan üçün İndoneziya ilə əməkdaşlıq bir sıra istiqamətləri özündə cəmləşdirir. 2021-ci ildən bu yana tərəflər arasında enerji sahəsində əməkdaşlıq; məşğulluq və sosial müdafiə sferasında razılaşmalar; iqtisadiyyat, müdafiə, mədəniyyət və təhsil sahələrində əməkdaşlıq kimi geniş perspektivlər müzakirə olunub. Müxtəlif sahələrdə həyata keçirilən əməkdaşlıqlar tərəflərin dünyaya inteqrasiyasını və qarşılıqlı həmrəyliyini artırır ki, bu da hər iki dövlətin maraqlarını təmin edir.

Malayziya ilə münasibətlərdə öz növbəsində inkişaf edən xətt üzrə davam etməkdədir. Tərəflər arasında strateji əməkdaşlığın gücləndirilməsi; ticarət, enerji, təhsil və turizm sahələrində əməkdaşlıq ön plana çıxır. Eyni zamanda Azərbaycan və Malayziya arasındakı əməkdaşlıqlar bir sıra təşkilatlar çərçivəsində də həyata keçirilməyə çalışılır. BMT, ASEAN, İƏT, D-8 daxilində mümkün əlaqələrin və əməkdaşlıqların müzakirəsi tərəflər arasında əsas prioritetlər sırasındadır.

Malayziya ilə bağlı əlavə olaraq qarşılıqlı sosial və mədəni sahələrin inkişaf etdirilməsini qeyd etmək istəyərdim. Son illərdə Malayziya mədəni sferalarda sürətli inkişaf edir, xüsusən də film sektorunda böyük uğurlar əldə edirlər. Milli ruhda, vətənpərvərlik mövzularında son illərdə çəkilmiş filmləri böyük izləyici kütlələrini cəlb edir. Müasir standardlara cavab verən və baxımlı filmlərin istehsalı dövlətin müsbət imicinin formalaşmasında və yayılmasında böyük rol oynayır.

Bu aspektdən Azərbaycanın da milli ruhda və vətənpərvərlik mövzularında, ən əsası da Vətən müharibəsi və hərbi fəaliyyətlər haqqında filmlər çəkməsi çox yaxşı olardı. Bu istiqamətdə Malayziyanın kino sektorunun təcrübəsindən istifadə edilə bilər. Çünki həmin sahədə Malayziya qısa müddətdə böyük uğurlar qazanıb və özünü dünya arenasında tanıdır. Bizim də bu cür qısa müddətdə ərsəyə gələcək və effektiv olacaq film və seriallara ehtiyacımız var. Film dünyası günümüzün əsas "yumşaq güc" vasitələrindən biridir və belə bir fürsətdən yararlanmaq yerində atılmış addım olardı.

Ötən əsrin 60–70-ci illərində ABŞ ilə qanlı müharibədə olan və rəsmi olaraq ABŞ-ı məğlub edən yeganə dövlət statusunu özündə saxlayan Vyetnam Azərbaycan üçün mühüm siyasi-strateji və iqtisadi maraqları özündə cəmləşdirir. Həm regionda güclü statusa malik olması, həm də əməkdaşlıq sferasında maraqlı tərəf olması iki dövlət arasında mümkün əlaqələrin inkişafında müsbət mühit formalaşdırır.

Azərbaycan və Vyetnam arasında 2025-ci il may ayının 8-də Bakıda strateji tərəfdaşlıq barədə birgə bəyanat imzalandı ki, həmin tarixi hadisə yeni güclü və potensiallı əməkdaşlığın əsasını qoydu deyə bilərik. Baş tutan görüşlər əsnasında qarşılıqlı olaraq bir sıra məsələlərdə razılaşmalar əldə olundu. Enerji və neft-qaz sahəsində əməkdaşlıq; biznes forumları və investisiya seminarlarının təşkili istiqamətində razılaşmalar əldə olundu. İyul ayında isə yaşıl enerji sektorunda əməkdaşlıq, ticarət və iqtisadi mövzularda yeni anlaşmalar baş tutdu. Son günlərdə isə hərbi sahədə baş tutan əməkdaşlıqlarda diqqət mərkəzindədir.

Vyetnamın yüksək iqtisadi potensiala və işçi qüvvəsinə malik olması Azərbaycan üçün böyük bir fürsətdir. Məlumdur ki, dünyanın bir çox şirkətlərinin Vyetnamda fabrik və zavodları fəaliyyət göstərir. Ucuz işçi və keyfiyyətli məhsul istehsal etmə qabiliyyətinə malik olması digər dövlətlərin marağını cəlb edir. Zənnimcə, Cənubi Koreyanın "Samsung" şirkətinin adını çəkmək kifayət edər ki, Vyetnamın iqtisadi və ticari əhəmiyyətini anlayaq. "Samsung" şirkətinin əsas istehsal mərkəzlərindən biri məhz Vyetnamda yerləşir və ildə yüz minlərlə texnoloji məhsullar istehsal edir.

Azərbaycanın yerli şirkətlərinin öz potensiallarını artırmaq və dünya bazarına daha geniş müstəvidən çıxa bilmələri üçün Vyetnam və bu kimi dövlətlərdə fəaliyyət göstərməkləri olduqca məqbul olardı. Bu cür əlverişli dövlətdə zavod və fabriklərin açılması, yerli iqtisadi sahələrə yatırımların, investisiyaların qoyulması həm böyük gəlirlər qazandıra, həm də regionda və qlobal səviyyədə tanınmağa, inkişaf etməyə təkan verə bilər.

Ona görə düşünürəm ki, qarşılıqlı əməkdaşlığın bu istiqamətlərdə aparılması hər iki dövlət üçün, xüsusən Azərbaycan üçün çox faydalı olar. Qloballaşan dünyada iqtisadi gücə malik olmaq həm siyasi maraqların qorunmasına, həm də strateji hədəflərin həyata keçirilməsinə əsas verir. Uzaq Şərqdəki dövlətlərlə genişmiqyaslı əməkdaşlığın həyata keçirilməsi məqamında atılmış addımdır.

***Nurlı UMUDOV,***
***politoloq***

*Vida sözü*

# Çağdaş salnaməçi əbədiyyətə qovuşdu

**Çağdaş Azərbaycan ədəbiyyatına və jurnalistikasına ağır itki üz verib. Sənədli əbəbiyyatımızın və tədqiqat jurnalistikamızın görkəmli nümayəndəsi, yurdsevər yazıçı-publisist, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Prezidentin fərdi təqaüdçüsü, Həsən bəy Zərdabi mükafatçısı Şəmistan Nəzirli ömrünün 83 yaşında, yazıb-yaratmaq həvəsinin tükənmədiyi bir dövrdə dünyasını dəyişdi.**




Xalq Cümhuriyyəti və milli hərb tariximizin, milli-mənəvi dəyərlərimizin yorulmaz araşdırıcısı Şəmistan Nəzirli 65 illik yaradıcılığı dövründə 30-dan artıq araşdırma kitabı, 1000-dək məqalə və müxtəlif janrlı yazı istedadlı və məhsuldar qələm sahibinə geniş şöhrət qazandırıb.

Şəmistan Əmiraslan oğlu Nəzirli 1942-ci il avqustun 12-də soykökü Qazaxın Şıxlı obasına bağlı olan Qərbi Azərbaycanın Loru nahiyyəsinin Yuxarı Körpülü kəndində anadan olmuşdu. Uşaqlıq illərində kəndlərindən ötüb Borçalıya gedən Səməd Vurğunu görməsi onun gələcək taleyini qəti olaraq ədəbi-publisistik yaradıcılığa, milli-mənəvi dəyərlərimizin tədqiq olunmasına yönləndirmişdi.

Şəmistan Nəzirli 1967–1972-ci illərdə BDU-nun jurnalistika fakültəsində ali təhsil almışdı. Peşəkar jurnalist kimi Azərbaycan Dövlət Pedaqoji Universitetinin çoxtirajlı qəzetində işə başlayan Şəmistan Nəzirli, 1 ildən sonra fəaliyyətini Azərbaycan Televiziyasının hərbi vətənpərvərlik redaksiyasında davam etdirmiş, burada 18 il müddətində redaktor və şöbə müdiri olmuşdu. Həmkarımız hərb və qəhrəmanlıq tariximizi öyrənən təcrübəli tədqiqatçı kimi Azərbaycan Ensiklopediyasının "Xatirə" redaksiyasında 1 il şöbə müdiri vəzifəsində çalışmışdı.

Müstəqillik illərində Müdafiə Nazirliyində hərb tariximizin sistemli öyrənilməsinə başlananda Şəmistan Nəzirli Hərbi-Elmi Tədqiqatlar və Tarix İdarəsinə şöbə müdiri təyin edilmişdir. Yenidən Azərbaycan Televiziyasına dəvət edilən jurnalist 2 il "Hərbi proqramlar və salnamə" baş redaksiyasına rəhbərlik etmişdir. Sonrakı illərdə Müdafiə Nazirliyində Hərbi Elmi Mərkəz təşkil ediləndə Şəmistan müəllim baş elmi işçi kimi hərb tarixi şöbəsində fəaliyyətə cəlb edilmişdi.

Polkovnik-leytenant rütbəsi ilə xidməti təqaüdə çıxandan sonra hərbçilərin veteran təşkilatında ictimai fəaliyyətini davam etdirən fədakar soydaşımız gününün xeyli hissəsini yenə arxiv və kitabxanalarda keçirir, müstəqil araşdırmaçı axtarışlarını davam etdirirdi.

Şəmistan Nəzirlinin yaradıcılığında Xalq şairi Səməd Vurğunun dünya şöhrətli həyat və yaradıcılığı, məşhur Qori Seminariyasının azərbaycanlı yetirmələrinin milli-mədəni dəyərlərimizin qorunması, yaşadılması və zənginləşdirilməsində misilsiz fəaliyyəti, milli hərb tariximiz və general soydaşlarımızın ömür yolu, Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu irsi mükəmməl bir silsilə təşkil edir. Çoxsaylı kitablardan və tədqiqat yazılarından ibarət bu materiallar illər keçdikcə zənginləşərək son 2 əsrlik ictimai fikir tariximizin, eləcə də milli-mənəvi dəyərlər sisteminin önəmli fakt, hadisə və şəxsiyyətlərinin öyrənilməsində və təbliğində sanballı bir mənəvi xəzinəyə çevrilmişdir.

Bu şərəfli bioqrafiya və zəngin yaradıcılıq geniş coğrafiyanı əhatə edən ezamiyyələrin, Azərbaycanın və xarici ölkələrin arxiv, muzey, kitabxana və şəxsi saxlanclarında keçən çoxillik axtarışların, tanınmış və maraqlı insanlarla canlı ünsiyyətin, nəhayət, yazı stolu arxasında yorulmaq bilmədən keçən əziyyətli yazıb-yaratmaq prosesinin nəticəsi olaraq ərsəyə gəlmişdir. Araşdırmaçı jurnalist olaraq Şəmistan Nəzirlinin qəzet-jurnallarda işıq üzü görən yazıları, teleradioda yayımlanan veriliş və çıxışları həmişə hədsiz maraqla qarşılanmışdır.

Həsr edildiyi mövzuda ciddi boşluğu doldurmuş kitabları əl-əl gəzmiş, gənc tədqiqatçıların üz tutduğu mötəbər qaynaqlardan olmuşdur. Şəmistan Nəzirli babalarımızın xalqın milli oyanışı və elmi-mədəni tərəqqisi yolunda şama dönmüş, öyünc doğuran talelərini araşdırmaq, istiqlal mücadiləsinin qaranlıqlarına işıq salmaqla bağlı çoxsaylı axtarışlara çıxmış, həmişə də qovluğu dolu qayıtmışdı.

Şəmistan Nəzirlinin "Vurğun keçib bu yerlərdən", "Vurğun ömrü məktublarda", "Ellər Vurğunu", "Yaddaşlarda yaşayan Vurğun", "Qəribə talelər", "Əfsanəvi Mixaylo", "Qoridən gələn qatar", "Qacarlar", "Azərbaycan generalları", "Cümhuriyyət generalları", "Güllələnmiş Azərbaycan generalları", "Tam artilleriya generalı Səmədbəy Mehmandarov", "General Əliağa Şıxlinski və silahdaşları", "General Cəmşidxan Naxçivanski", "General Yadigarov qardaşları", "Topoqraf general İbrahim ağa Vəkilov", "1920-ci ildə Qarabağ döyüşləri", "Azərbaycan ordusunun 100 illiyi", "Qarxunlu Əşrəf bəy", "Arxivlərin sirri açılır", "Daş Salahlı Məmməd Koxa", "Nəzirli ocağının üç şairi", "Krım dəftəri" kitabları, "Səmədbəy" və "Cümhuriyyət generalları" filmləri qiymətli tarixi irsimizin qızıl səhifələrinin salnamələşmiş toplusu olmaqla müəllifinə akademik bir nüfuz və ümumxalq şöhrəti gətirmişdir.

Çoxillik səmərəli fəaliyyətinə görə Azərbaycan Jurnalistlər Birliyinin "Həsən bəy Zərdabi", Xalq şairi Səməd Vurğun haqqında silsilə əsərlərinə görə Azərbaycan Jurnalistləri Həmkarlar İttifaqının diplomu, "Qacarlar" əsərinə görə İran Dostluq Cəmiyyətinin mükafatı, hərbi vətənpərvərlik mövzusunda tarixi publisistik əsərlərinə görə "General Həzi Aslanov" və "General Əliağa Şıxlinski" mükafatları cəmiyyətin öz sevimli yazarına bəslədiyi hörmətin və verdiyi dəyərin ifadəsidir.

3 il əvvəl Şəmistan Nəzirlinin 80 illik yubileyi ölkəmizdə qədirbilənliklə qeyd edildi. O zaman qəzetimizdə verdiyimiz yazıda onu "Dünəndən bugünə öyünc körpüsü salan çağdaş salnaməçi" adlandırmışdıq. Bu il avqustun 12-də 82 yaşını da doğmaları, dostları, yaxınları sevgi-sayğı ilə keçirdilər. Qəzetimiz sevimli həmkarımızı, qəzetimizdə "Kitabları əl-əl gəzən Şəmistan Nəzirli" yazısı ilə təbrik etdi.

Səhərisi redaksiyamıza gəldi, qocaman həmkarımızı, qələm ustadımızı bağrımıza basıb əzizlədik, ona uzun ömür arzuladıq. Gedəndə Şəmistan müəllimə "AXC parlamentinin iclasları" üçcildliyini hədiyyə etdik. Dedi ki, mətbəəyə yeni kitabının ilk nüsxəsinə baxmağa gedir, bizim də payımızı gətirəcək. Ürəyimizdə bu yaşda tükənmək bilməyən yaradıcılıq eşqinə "Eşq olsun!" dedik. Axşam zəng vurdu ki, verdiyiniz üçcildlık mənə, azı, 3 belə kitab yazmağa mövzu verir.

Əfsus... "Dünəndən bugünə öyünc körpüsü salan çağdaş salnaməçi"ni yaradıcılıq həvəsinin gənclik eşqi ilə çağladığı bir dövrdə itirdik. Amma nə xoşbəxt insan imiş ki, həyata gözünü şərəfini həmişə uca tutduğu, öyündüyü Qazax torpağında, ən çox sevdiyi milli mücahidlərimizdən Firudin bəy Köçərlinin adı ilə bağlı ünvanda – Ada Universitetinin onun yaxından iştirakı ilə bərpa etdiyi Qazax Müəllimlər Seminariyasında yumdu...

Yerin cənnətlikdir, unudulmaz ustadımız. Dünəndən bugünə öyünc körpüsü salan ölməz yaradıcılığın səni əbədi yaşadacaq. Əziz xatirənisə həmişə bizi ovunduracaq.

Allah sənə rəhmət eləsin, kitabları əl-əl gəzən Şəmistan Nəzirli!

***Tahir AYDINOĞLU,***
***Əməkdar jurnalist***
***XQ***

*Günün sualı*

# Hanı ötən günlərin filmləri?

## *İndi tələbat da, zövqlər də dəyişib*

**Mədəniyyətimizin ayrılmaz hissəsi olan milli kinomuz əsrdən uzun və şərəfli inkişaf yolu keçib. Bir zamanlar filmlərimiz, sadəcə, ekran əsəri deyil, həyatımızı əks etdirən həyat hekayələri idi.**



XX əsrin ortalarında çəkilən, maarifləndirici və yüksək ideyalar daşıyan "Arşın mal alan", "Bəxtiyar", "O olmasın, bu olsun", "Ulduz" kimi bədii filmlər cəmiyyətdə mənəvi dəyərləri möhkəmləndirir, tamaşaçıya həm estetik zövq, həm də məfkurə aşılayırdı. Filmlərimizdəki bir çox hikmətli, qanadlı ifadələr dillər əzbəri olmuşdu, zərbməsələ çevrilmişdi.

Müasir milli kinomuz isə keçmişdən xeyli fərqlənir. Bu gün filmlər daha çox kommersiya məqsədilə çəkilir. Xüsusilə komediya janrında çəkilən filmlər kinoteatrlarda böyük izdiham yaratsa da, çoxu tez unudulur. Çünki bu filmlərin çəkilməsində əsas məqsəd qısa müddətdə gəlir əldə etməkdir. Təəssüf ki, bədii keyfiyyət, ssenarinin dərinliyi və obrazların fərdi xüsusiyyətləri bəzən ikinci plana keçir.

Ölkəmizdə çox aktual mövzulara toxunan, tarixi və vətənpərvər ruhlu filmlər çəkilsə də, onlar bəzən kölgədə qalır. Bunun səbəbi isə düzgün marketinq və təbliğatın olmamasıdır. Yüksək keyfiyyətli bir film tamaşaçıya doğru şəkildə çatdırılmasa, öz auditoriyasını tapa bilmir. Bu gün düşündürücü mövzulara maraq azalır, milli kinolar həm xarici filmlər, həm də televiziya serialları və onlayn platformalarla rəqabət aparmaq məcburiyyətində qalır. Kommersiya məqsədilə çəkilən filmlər aşağı büdcə ilə istehsal olunur və geniş tamaşaçı kütləsini cəlb edir . Bu da əsas tələbin daha çox gülüş və əyləncə olduğunu göstərir.




Bu tendensiya hər kəs tərəfindən eyni qarşılanmır. Bəzən açıq-saçıq ifadələr tamaşaçılar tərəfindən narazılıqla qarşılanır, bir çox filmlərdə yumorun səviyyəsi bayağı hesab olunur. Kinotənqidçilər ssenarinin zəifliyinin, mövzuların səthi işlənməsinin Azərbaycan kinosunu kölgədə qoyduğunu hesab edirlər.

Milli kinomuzun bu günü haqqında danışan **rejissor İlham Yaşaroğlu** komediya janrının kütləviləşməsini kinonun keyfiyyətinə mənfi təsir kimi görmədiyini dedi, əksinə, bunun tamaşaçının tələbatından qaynaqlandığını vurğuladı: "Kino sənəti hər dövrün tələbinə cavab verir. "Arşın mal alan" və "O olmasın, bu olsun" kimi musiqili komediyalar bu janra tələbatın qədimdən bəri mövcud olduğunu göstərir. Lakin hər dövrün öz tələbləri var. İndiki filmlər də məhz buna uyğun çəkilir. Komediya ən çətin janrlardan biridir. Kənardan asan görünə bilər, amma insanları güldürmək çox çətin məsələdir. İnsanlar kinoteatra gedərkən dərdlərini unudub, xoş vaxt keçirmək istəyirlər".

Müsahibimiz komediya filmlərinin yalnız kommersiya məqsədinə xidmət etməsi ilə razılaşmır. O qeyd edir ki, bu, bütün dünyada yayılmış təcrübədir və komediya janrı çətin olduğu qədər də, ən gəlirli janrlardan biridir. Rejissor yerli komediyalarımızın daha çox mental dəyərlərə və lokal yumora yönəldiyini, xarici filmlərin isə "situasiya"-lar üzərində qurulduğunu bildirir. Bu, Azərbaycan filmlərinin beynəlxalq auditoriya tərəfindən tam başa düşülməməsinin əsas səbəbidir. Çəkdiyi filmlərdə bunun üzərində çalışdığını və beynəlxalq səviyyədə anlaşıqlı olmasını hədəflədiyini vurğulayır.

Tamaşaçılardan gələn tənqidlərə münasibət bildirən İlham Yaşaroğlu yumor səviyyəsinin dəyişməsini tarixi kontekstlə əlaqələndirdi. Bəzi tamaşaçıların "yumorun səviyyəsi aşağı düşüb" fikirlərinə münasibət bildirən rejissor məsələyə tarixi yöndən yanaşır. O, sovet dövrünün komediyalarında kəndlinin belə rəsmi və bədii dildə danışdığını, bunun həmin dövrün tələbi olduğunu və insanların o şəkildə yetişdirildiyini qeyd edir. Müasir dövrdə isə dünyaya inteqrasiya nəticəsində baxış bucaqları dəyişib.

Rejissor əlavə etdi ki, əvvəllər insanların ürəyinə yol tapmaq daha asan idi, çünki peşəkar yanaşma, musiqi seçimi və ssenari senzura ilə tənzimlənirdi. İndi isə kommersiya imkanları genişlənib, hər filmin öz auditoriyası var. Sosial şəbəkələrin rolunu artıb, bu platformalar həm yaxşı, həm də pis piar üçün istifadə edilir.

Milli kinomuz keçid dövrünü yaşayır. Keçmişin dəyərli sənət nümunələrini qorumaqla yanaşı, gələcəyin tələblərinə cavab verən, həm qazanc gətirən, həm də bədii dəyəri yüksək olan filmlər yaratmaq əsas hədəf kimi qarşıda durur.

***Arzu ƏLİYEVA***
***XQ***

# Rənglərin sehrində yaşanan ömür

**Günlərin birində Los-Ancelesdən gələn telefon zəngi məni çox təəccübləndirdi. Okeanın o tayından mülayim tərzdə danışan şəxs neçə illər əvvəl Bakı şəhərindəki 99 saylı orta məktəbdə eyni sinifdə oxuduğum Nazim Hacıyev idi. Hal-əhval tutduq, keçmişdən, olub-keçənlərdən xeyli danışdıq.**



Nazim ziyalı ailəsində boya-başa çatıb. Atası Əlibala müəllim tanınmış mühəndis, anası Ədilə xanım isə neftçi olub. Əmisi Böyükağa Hacızadənin rəssam olması onda fırça ilə işləməyə, rəsm əsərləri yaratmağa maraq oyadıb və istedadlı rəssam kimi formalaşmasında böyük rol oynayıb. Hələ kiçik yaşlarından cizgi filmi qəhrəmanlarının, tanınmış idmançıların rəsmlərini çəkməyə həvəs göstərən "kiçik rəssam" maraqlı, təbii, canlı şəkilləri ilə hamını heyran edib, məktəbdə hər kəsin sevimlisinə çevrilib. Orta məktəbi bitirdikdən sonra Bakı Texniki Peşə Məktəbini rəssamlıq ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. 1985-1986-cı illərdə SSRİ Dövlət Kinemotoqrafiya sahəsində yaradıcı və idarəçi mütəxəssislər üçün ixtisas kursunu uğurla başa vurub. Təhsil aldığı illərdə ərsəyə gətirdiyi sənət əsərləri ilə fərqlənib.

Ötən əsrin 80-ci illərini Nazim Hacıyev yaradıcılığının ən məhsuldar dövrü hesab etmək olar. Belə ki, 1988-ci ildə çəkilmiş, dövlət və bir sıra beynəlxalq mükafatlara layiq görülmüş "Yaramaz" filminin baş prodüseri və rəssamı Nazim Hacıyevdir. Film Bernardo Bertoliccinin Film Ensiklopediyasında "Bütün zamanların 35 ən yaxşı filmi" siyahısına daxil edilib. Həmçinin, XXI Ümumittifaq Film Festivalının I Mükafatı (1988), Azərbaycan Respublikasının Dövlət Mükafatı (1991), Odessa Beynəlxalq Film Festivalının "Qızıl Hersoq", Bolqarıstanın Qabrovo şəhərində keçirilən Beynəlxalq komediya filmləri kinofestivalında "Çarli Çaplinin qızıl əsası", "Ən yaxşı orijinal hekayə" (2018), "Ən yaxşı Avropa filmi" mükafatlarına (2018), "Qızıl balqabaq" qısa film müsabiqəsinin Xüsusi Mükafatı (2019), Emmy və digər mükafatalara layiq görülüb.

Onun filmoqrafiyasına "Bəyin oğurlanması" (1985), "Min bir gecə" (2000), "Qar zamanı" (2018) və sair filmlər daxildir. Həmin illərdə çəkilmiş bir çox filmlərin quruluşçu rəssamı olan Nazim Hacıyevin dünyanın yüzdən çox mötəbər sərgilərində rəsm əsərləri nümayiş olunub.









1995-ci ildən etibarən yaradıcılığını qardaş Türkiyədə davam etdirən rəssam maraqlı layihələrə imza atır. Hazırda Los-Ancelesdə Əhməd Çelikin Anadolunun qədim tarixini əks etdirən "Hattuşalı adam" romanı əsasında çəkiləcək filmdə rejissor, baş rəssam və sənət rəhbəri kimi yaradıcı heyətlə birlikdə çalışır. Filmin çəkilməsində əsas məqsəd tarixin müəyyən bir dövrünə iz qoymuş, dövlətçiliyi, özünəməxsus mədəniyyəti olan xalqın tanıdılmasıdır. Yəni "Hattuşalı adam" əslində, bir xalqın yaddaşıdır.

Qeyd edək ki, professor Feridun Tuna Türkiyənin Çorum vilayətinin Boğazkale rayonunda yerləşən və 8 min illik tarixə malik Hattuşa Antik Şəhərində arxeoloji qazıntılar zamanı günümüzdən təxminən 3350 il əvvələ, yəni Hett dövrünə aid bir məzarda küplərin içində daş kitabə aşkarlayb. Bu kitabə əsasında türkiyəli arxeoloq, professor Ahmet Çelik "Hattuşaziti: Hattuşalı adam, Anadoludan eski bir elçi" adlı tarixi roman yazıb. Əsər Hollivudun qlobal miqyasda mühüm layihələrindən bəzilərinə imza atmış, "Avatar" film şirkətinin tanınmış rejissor və prodüserlərindən Shavn Anthony Sequeiranın marağına səbəb olub və bu əsər əsasında "SAS Movie Studios" tərəfindən "Hattuşalı adam" tarixi epik filmin hazırlıqlarına başlanılıb.

Filmin ssenarisi, professor Ahmet Çelikə məxsusdur. "Hattuşaziti: Hattuşalı adam"- qədim Anadolu torpaqlarının yaddaşını, Hitit sivilizasiyasının zəngin irsini beynəlxalq auditoriyaya çatdıracaq. Film tarix, arxeologiya və insanlıq yaddaşını sənət vasitəsilə canlandıraraq türk kino tarixində yeni səhifə açacaq.

Nazim Hacıyev məharətli rəssam, tarixin dərin qatlarına bələd olan ziyalıdır. Onu tanıyan hər kəs qədim Türk tarixi barədə faktlara əsaslanan maraqlı söhbətlərini dinləməkdən zövq alır.

***Qəzənfər NİFTƏLİYEV***

# Süni intellektin musiqi yaradıcılığı

## *Onun bəstələri insanlarda heyrət doğurur*

**Müsahibimiz Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun böyük elmi işçisi Könül Daşdəmirova ilə bu mövzuda söhbətimizi təqdim edirik.**

**– Süni intellektin musiqi sənayesində tətbiqi yaradıcı prosesləri necə dəyişir?**

– Bu gün musiqi sənayesi inqilabi dəyişikliklərin astanasındadır. Süni intellekt musiqinin istehsalı və istehlakı metodlarını əsaslı şəkildə dəyişir. Səsin emalı, musiqi əsərlərinin bəstələnməsi və ifası proseslərində süni intellekt texnologiyalarının tətbiqi musiqi sənayesinin inkişafı üçün yeni imkanlar yaradır. Musiqi süni intellekt vasitəsilə tükənməz tədqiqat mənbəyinə çevrilir. Musiqiçilər yaradıcılıqlarını təkmilləşdirmək üçün süni intellekt əsaslı proqramlar vasitəsilə müxtəlif səslər və üslublarla təcrübə aparır, insanın zehni və bədii fəaliyyətini simulyasiya edərək qısa müddətdə yeni musiqi əsərləri yaradırlar.

**– Süni intellektin musiqi sahəsindəki inkişafı hansı mərhələlərdən keçib?**

– Süni intellektin musiqiyə tətbiqi əslində yeni hadisə deyil. Bu, ilk dəfə 1957-ci ildə ABŞ-da kompüterdə yaradılmış ilk musiqi parçasının təqdimatı ilə baş verib. Layihəni kompüter proqramlaşdırması vasitəsilə ilk bəstələyən musiqiçi bəstəkar Lejaren Hillier və riyaziyyatçı Leonard İsaakson birgə həyata keçiriblər.

Bu sahədə növbəti önəmli addım 1960-cı ildə atılıb. Sovet tədqiqatçısı Rudolf Zaripov "Ural-1" kompüterindən istifadə edərək alqoritmik musiqi kompozisiyası mövzusunda dünyada ilk elmi məqalə yazıb. Bu məqalə kompüterlərin yaradıcı potensialının elmi cəhətdən tədqiqinə başlamaq üçün əsas olub.

1965-ci ildə isə amerikalı ixtiraçı Raymond Kurzveil musiqi nümunələrini tanıyan və onların əsasında yeni kompozisiyalar sintez edə bilən proqram hazırlayıb. Proqram ilk dəfə "Mənim bir sirrim var" adlı televiziya şousunda ictimaiyyətə təqdim olunub və böyük maraq doğurub.

1983-cü ildə isə Yaponiyanın məşhur "Yamaha" şirkəti Kansei adlı musiqi sistemi yaratdı. Sistem sadə melodiyaların transkripsiyasını həyata keçirmək üçün süni intellekt metodlarından istifadə edirdi. Onun inkişafı barədə 1989-cu ildə ətraflı məqalə yayımlandı. Buna baxmayaraq, mürəkkəb melodiyaların dəqiq transkripsiyası bu gün belə süni intellekt üçün çətinlik yaradan məsələlərdən biridir.

1997-ci ildə ABŞ-da hazırlanan "Experiments in Musical Intelligence (EMI)" adlı süni intellekt proqramı İ.S.Bax üslubunda musiqi bəstələdi. Bu proqram daha sonra "Emily Howell" adlı daha mürəkkəb və yaradıcı imkanlara sahib yeni bir proqramın yaranmasına da səbəb oldu.

2002-ci ildə Parisdə "Sony" Kompüter Elmləri Laboratoriyasında fransız bəstəkar Fransua Paşenin rəhbərlik etdiyi komanda tərəfindən "Continuator" adlı unikal alqoritm yaradıldı. Belə ki, sistem canlı musiqi dayandıqdan sonra ifanı davam etdirə bilirdi. Bu, süni intellektin musiqi ilə interaktiv münasibət qurmasının ilk nümunələrindən idi.

2019-cu ildə ABŞ-da "Emily Howell" proqramının "From Darkness, Light", 2012-ci ildə isə "Breathless" adlı albomları nəşr olundu. Bu albomlar süni intellektin artıq yalnız texniki vasitə olmadığını, eyni zamanda bədii yaradıcılıq sahəsində də istifadə edilə biləcəyini göstərdi.

Bir il sonra isə İspaniyanın Malaga Universitetində yalnız səkkiz dəqiqə ərzində müxtəlif musiqi üslublarında tamamilə orijinal və fərdi üsluba malik musiqi əsərləri yaradan "İamus" adlı süni intellekt sistemi ortaya çıxdı.

Texnologiyanın daha da inkişafı nəticəsində 2019-cu ildə Yaponiyada LSTM-GAN adlı metoddan istifadə edilərək süni intellektin mətnlərdən melodiyalar yarada bilməsi üzərində tədqiqat aparıldı. Bu məqsədlə hər birinin öz sözləri və musiqisi olan 12,197 MIDI formatlı mahnıdan ibarət böyük verilənlər bazası quruldu. Tədqiqat göstərdi ki, süni intellekt mətni anlayaraq



onun musiqi formasını yarada bilər.

Bu inkişafın praktik tətbiqləri 2023-2024-cü illərdə ABŞ-da özünü göstərməyə başladı. 2023-cü ildə təqdim edilən "Sono AI" və 2024-cü ilin aprelində istifadəyə verilən "Dio" adlı veb-platformalar istifadəçilərə sadə mətni daxil etməklə avtomatik musiqi əsərləri yaratmaq imkanı verdi. Bu texnologiyalar süni intellektin artıq yaradıcılıq prosesinin tamhüquqlu iştirakçısına çevrildiyini nümayiş etdirir.

**– Hazırda musiqinin emalı və yaradılması üçün hansı süni intellekt əsaslı proqramlardan istifadə edilir?**

– Süni intellektin musiqi sahəsinə inteqrasiyası sürətlə genişlənir və bu istiqamətdə bir sıra proqram təminatları mövcuddur. Bu proqramların əksəriyyəti oxşar funksiyalara malik olsa da onların fərqləndirici cəhətləri əsasən istifadənin ödənişli və ya ödənişsiz olmasıdır. Ödənişli proqramlar adətən daha geniş imkanlar təqdim edir və peşəkar musiqi istehsalçıları üçün nəzərdə tutulur. Digər tərəfdən, ödənişsiz proqramlar başlanğıc səviyyəsində olan istifadəçilər və ya büdcəsi məhdud olan yaradıcı şəxslər üçün daha münasibdir. Baxmayaraq ki, bu proqramlar daha sadə funksiyalarla təchiz olunub, bəzən peşəkar səviyyədə nəticələr əldə etmək də mümkündür.

Ən çox tanınan proqramlardan biri xüsusilə orkestral musiqi, film, oyun və reklam sahəsində fon musiqisi yaratmaq üçün hazırlanan "AIVA"dır. Proqram fərqli janrlarda avtomatik musiqi kompozisiyaları yaradır və eyni zamanda istifadəçiyə mövcud musiqi parçalarını redaktə etmək imkanı verir. Digər məşhur platformalardan biri "Amper Music" isə sadə interfeysi ilə seçilir və əhvali-ruhiyyə, temp və janr seçimi əsasında fərdiləşdirilmiş musiqi yaradır. "Endlesss" daha çox real vaxtda musiqiçilər və qrupların birlikdə işləməsini və eyni anda musiqi istehsalını mümkün edir.

Oyun sahəsində istifadə üçün hazırlanmış "Melodrive" proqramı isə interaktiv və dinamik musiqi yaratmaq qabiliyyətinə malikdir. İstifadəçinin hərəkətlərinə və oyun elementlərinə uyğun olaraq musiqi məzmununu real vaxtda dəyişir.

"Amadeus Code" proqramı isə xüsusilə mahnı yazmaqla məşğul olan musiqiçilər və mahnı müəllifləri üçün nəzərdə tutulub. Süni intellekt tərəfindən yaradılan melodiyalar təklif olunur və istifadəçi bu melodiyalar üzərində istədiyi kimi redaktə apara bilir.

"Boomy" daha çox musiqi təcrübəsi olmayan şəxslər üçün əlverişlidir və bu baxımdan geniş istifadəçi auditoriyasını əhatə edir.

Əgər peşəkar səviyyədə kompozisiya yaratmaq istənilirsə, Orb Composer adlı proqramdan istifadə etmək daha məqsədəuyğundur. Bu proqram istifadəçiyə akkordlar, melodiyalar və harmoniya üzərində tam nəzarət imkanı verir.

Ümumiyyətlə, bu proqramlar insan əməyini əvəz etmək üçün deyil, onu təkmilləşdirmək və dəstəkləmək məqsədi daşıyır. Müxtəlif səviyyələr üçün uyğun olan bu alətlər sayəsində musiqi istehsalı daha da asanlaşır. Süni intellekt texnologiyaları inkişaf etdikcə bu sahədə təklif olunan proqramlar daha da funksional, intuitiv və yaradıcı olacaq, musiqi sənayesində yeni dövrün formalaşmasına təkan verəcək.

**– Süni intellektin musiqi sahəsində istifadəsi müəllif hüquqları baxımından problemlər yaratmır ki?**

– Süni intellektdən istifadə edərkən hüquq pozuntularının baş verib-verməməsi cəmiyyətdə böyük sual doğurur. Populyar təlim modelləri adətən internetdən götürülmüş böyük verilənlər bazası üzərində hazırlanır və əksəriyyəti müəllif hüquqları ilə qorunur. Təlim məlumatlarının toplanması prosesi müəllif hüquqları ilə qorunan əsərlərin surətlərinin çıxarılması üçün nəzərdə tutulduğundan bu, müəllifin işinin təkrar istehsalına nəzarət etmək hüququnu poza bilər.

ABŞ-da süni intellekt vasitəsilə yaradılan musiqi əsərləri müəllif hüquqları ilə qorunmur. ABŞ Müəllif Hüquqları Agentliyinin müəllif hüquqları idarəetmə təcrübələri toplusunda müəllifliyi bir şəxsə aid olmayan, maşın və ya təsadüfi, avtomatik hərəkət edən sadə bir mexaniki proses tərəfindən yaradılan əsərlər üçün müəllif hüququ verilmir. 2022-ci ilin fevralında ABŞ-ın Müəllif Hüquqlarına Nəzarət Şurası süni intellekt tərəfindən yaradılmış sənət əsərinə müəlliflik hüququ üçün müraciəti rədd etdi. Bu qərar ona əsaslanır ki, müəllif hüquqları iddiasını dəstəkləmək üçün lazım olan insan atributu yoxdur.

Avropa Birliyinin hüquqi bazasında da müəllif hüquqları ilə qorunan əsərlərdə insanın iştirakının vacibliyi vurğulanır. Avropa Birliyinin Əqli Mülkiyyət Təşkilatının və Avropa Birliyi Məhkəməsinin son məhkəmə təcrübəsinə görə, orijinallıq meyarı müəllifin intellektual yaradıcılığı olmasını tələb edir.

Avropa İttifaqının "Horizon 2020" tədqiqat və innovasiya proqramı tərəfindən maliyyələşdirilən "ReCreating Europe" layihəsi musiqi də daxil olmaqla, süni intellekt tərəfindən yaradılan kontentlə bağlı məsələləri araşdırır, hüquqi müəyyənlik və balanslaşdırılmış müdafiəni təmin edir. Elektron musiqi bəstəkarı "AIVA"nın musiqi müəllifləri, bəstəkarları və naşirləri cəmiyyəti olan "SACEM" tərəfindən tanınması musiqi əsərləri sahəsində müəlliflik hüququna dair ənənəvi baxışların əhəmiyyətli dərəcədə dəyişdiyini göstərir. Bu, süni intellekt sistemlərindən istifadə edən sənətçilərə musiqi yaradaraq gəlir əldə etməyə imkan verir.

"Stability AI", "OpenAI" və "Google" kimi şirkətlər tərəfindən süni intellekt sahəsində əldə edilən son nailiyyətlər süni intellekt vasitəsilə yaradılan musiqi də daxil olmaqla, generativ texnologiyalara qarşı çoxlu sayda müəllif hüquqları ilə bağlı məhkəmə iddiaları ilə nəticələnib. Bu iddialar uğurlu olarsa, süni intellekt texnologiyaların əsasını təşkil edən maşın təlimi modellərinin məlumat mənbələri ictimai sahə ilə məhdudlaşacaq.

**– Süni intellektin yaradıcı peşələrə təsiri necə davam edəcək?**

– Gələcəkdə yaradıcı peşələrin süni intellektlə daha dərin inteqrasiya olunacağı gözlənilir. Bu, təkcə musiqidə deyil, digər incəsənət sahələrində də yeni ifadə formalarının, janrların və auditoriya ilə qarşılıqlı əlaqənin fərqli yollarının meydana çıxmasına səbəb olacaq. Bu təkamül prosesində uğur isə böyük ölçüdə yaradıcı şəxslərin dəyişikliklərə çevik uyğunlaşmaq, müasir texnologiyaları mənimsəmək və öz ideyalarını bu yeni alətlərlə ifadə etmək bacarığından asılı olacaq.

Yəni süni intellektə yalnız bir alət kimi deyil, həm də yaradıcılıq prosesində tərəfdaş kimi baxmaq lazımdır. İnsanlar bu əməkdaşlıqdan nə qədər ağıllı və yaradıcı şəkildə istifadə etsələr, musiqidə və digər incəsənət sahələrində bir o qədər zəngin, innovativ və emosional dərinliyə malik əsərlər meydana çıxacaq.

**– Ətraflı məlumata görə sağ olun.**

***Müsahibəni yazdı:***
***Fidan ƏLİYEVA,***
***XQ***

# Sülhə gəlin, ey insanlar!



**Sülh insanlığın ən ali arzusudur. Bir ananın oğlu üçün etdiyi dua, bir əsgərin dönmək üçün gözlədiyi xəbər, bir uşağın məktəbə narahatlıq olmadan getmək istəyi, bir xalqın yaşamaq hüququdur.**

Hər il sentyabrın 21-də dünya bir daha düşünür: Nə üçün biz sülhə bu qədər möhtacıq? BMT tərəfindən 1981-ci ildən etibarən qeyd edilən Beynəlxalq Sülh Günü yalnız təqvimdəki bir tarix deyil – bu gün bütün müharibələrə, zorakılıqlara, nifrətə qarşı qoyulmuş mənəvi səddir. Bu gün insanlığın vicdanının səsidir.

Dünya tarixinin acı səhifələri bizə dəfələrlə sübut edib ki, sülhün alternativi dağıntı, göz yaşı və insanlıq faciəsidir. Sülh yalnız müharibənin olmaması deyil, həm də insanların bir-birinə hörmətlə yanaşması, fərqliliklərin təhdid yox, zənginlik kimi qəbul olunmasıdır. Bu gün biz bir insan, bir millət, bir bəşəriyyət kimi sülhün yanında dayanmağın məsuliyyətini daşıyırıq.

Azərbaycan xalqı üçün də sülh dərin anlam daşıyan bir dəyərdir. Tarix boyu Vətən, torpaq uğrunda aparılmış mübarizələrdə minlərlə şəhid vermiş bir xalq olaraq biz yaxşı bilirik: sülh istək yox, haqqdır. 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfər, eyni zamanda bölgəyə uzunmüddətli sülh və sabitlik gətirmək uğrunda atılmış mühüm addım oldu. Bu gün Azərbaycan dövləti regionda sülhün və əməkdaşlığın qurulması üçün qətiyyətlə çalışır.

Məktəblərdə dərs deyən müəllimin, ağac əkən bağbanın, yolda təmir işləri aparan işçinin də işi yalnız öz peşəsini deyil, həm də sülhü qorumağı əhatə edir. Çünki hər bir zəhmət, hər bir inkişaf yalnız sülh şəraitində mümkün olur. Təəssüf ki, müasir dövrdə belə müharibələr, zorakılıq, ayrı-seçkilik və nifrət bəzi yerlərdə insan həyatını kölgə altına alır. Bəziləri üçün sülh sadəcə tarix kitablarında qalan bir anlayışa çevrilib. Sanki hər səhifədə qan var, hər cümlədə göz yaşı. Lakin Beynəlxalq Sülh Günü bizə xatırladır ki, insanlıq bu qaranlıqlara qarşı birlikdə mübarizə aparmalıdır. Sülhü qorumaq təkcə liderlərin, siyasətçilərin deyil, hər birimizin borcudur. Silahları deyil, sözləri seçək. Divarlar yox, körpülər quraq. Nifrət deyil, anlayış toxumu səpək. Çünki sülh sadəcə bir günün deyil, hər günün dəyəridir. Dünyanın bir çox guşəsində insanlar bu gün silah səsini deyil, barışın nəğməsini eşitmək istəyir. Sülh bəzən bir əl sıxımı, bəzən bir körpənin ilk addımı, bəzən isə min bir əziyyətlə dikəldilmiş məktəb binasıdır. Sülhün olduğu yerdə sevgi var, həyat var, gələcək var. Əgər hər birimiz içimizdə bir az da olsa barışa yer ayırsaq, əlimizi uzatsaq, dinləməyi, anlamağı öyrənsək, sülh uzaq bir arzu deyil, gerçək həyat tərzinə çevrilər. Bəlkə bir təbəssüm, bir anlayış, bir "bağışla" sözü dünyanı daha çox dəyişə bilər, nəinki minlərlə silah. İnsanlar çox şeyi bağışlaya bilər, amma tarix sülhün yoxluğunu bağışlamır. Tarix hər səhifəsində bunu bizə göstərir. Biz isə hər dəfə unuduruq. Yenə silah, yenə nifrət, yenə "mən haqlıyam" mübarizəsi... Ancaq bir gün anlayacağıq: Savaşın sonunda qəhrəman da, günahkar da bir olur torpağın altında. Bu Beynəlxalq Sülh Günündə gəlin, ürəyimizdə bir bayraq sancaq – üzərində yalnız bir söz yazılsın: Sülh. Sülh varsa, həyat var, elm var, musiqi var, uşaq gülüşləri var, sabah var.

Bu yazını hazırlayarkən istər-istəməz dünyada sülhün qorunmasına xidmət edən sənət adamlarını, onların əsərlərini xəyalıma gətirir, xalqımızın dünya mədəniyyətinə saysız incilər bəxş edən nümayəndələrini xatırladım. XX əsrin ortalarında bir mahnı bəstələnmişdi. Bu, dünyanın müxtəlif yerlərində tüğyan edən münaqişə və müharibələrə, tökülən qanlara qarşı bir ananın etirazı, hayı-harayı idi. Davadan söz düşəndə qəlbi odlanan insanları bir-birinə dost görmək istəyən ananın, zamanın arzusu ilə üst-üstə düşən və bu gün də aktual olan arzusu... Mən anayam, bu səsimdə Yerin, göyün dərdi var, Sülhə gəlin, ey insanlar! Yoxsa dünya məhv olar...

Bəli, bu misralar bir çağırışdır. Sadədir, lakin mənası dərin və təsirlidir.

***Nurəngiz ADİLQIZI***
***XQ***

# "Gəncə incəsənəti"nin incəlikləri

**AMEA-nın Gəncə Bölməsinin təşkilatçılığı ilə "Gəncə incəsənəti" mövzusunda respublika elmi konfransı keçirilib. Bakı, Gəncə, Sumqayıt və Ağcabədi şəhərlərindən tanınmış alim və tədqiqatçıların qatıldığı tədbirdə 40-dan çox elmi məqalə təqdim olunub. Konfransdan əvvəl iştirakçılar üçün Gəncə incəsənətinə həsr olunmuş tematik sərgi nümayiş etdirilib.**



Elmi forum Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Ulu öndər Heydər Əliyev, eləcə də Vətən şəhidlərinin əziz xatirəsinin anılması ilə açıq elan olunub.

Konfransa rəhbərlik edən AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutunun Etnoqrafiya şöbəsinin müdiri, dosent, tarix üzrə fəlsəfə doktoru Samirə Qasımova tədbirin dahi bəstəkar, ictimai xadim Üzeyir



Hacıbəylinin anadan olmasının 140 illiyinə həsr olunduğunu bildirib. O qeyd edib ki, konfransın Üzeyir bəyin doğum günündə keçirilməsi simvolik məna daşıyır.

Tədbirin açılışında çıxış edən AMEA-nın Rəyasət Heyətinin üzvü, Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev iştirakçıları salamlayaraq, konfransın dövlət başçısının milli-mənəvi dəyərlərin qorunması istiqamətində verdiyi sərəncamlara uyğun olaraq təşkil edildiyini vurğulayıb. O, Gəncə şəhərinin zəngin sənət irsinin öyrənilməsinin Azərbaycan elminə ciddi töhfə verəcəyini qeyd edib.

Akademik, həmçinin "Gəncə incəsənəti" adlı fundamental monoqrafiyanın hazırlandığını və bu nəşrin şəhərin sənət salnaməsini əhatəli şəkildə təqdim edəcəyini bildirib. Nəşrdə memarlıq, heykəltəraşlıq, xalçaçılıq, musiqi, zərgərlik və digər sənət sahələri üzrə dəyərli araşdırmalar yer alacaq.

Plenar iclasda bir sıra tanınmış alim və mütəxəssislərin maraqlı və elmi dəyəri yüksək olan məruzələri dinlənilib. Sənətşünaslıq, tarix, musiqi və etnoqrafiya üzrə çıxışlar Üzeyir Hacıbəylinin yaradıcılığından Gəncəbasar bölgəsinin memarlıq irsinə, xalq sənətkarlığından müasir dizayn nümunələrinə qədər geniş mövzuları əhatə edib.

Konfrans işini "Azərbaycan mədəniyyətinin inkişaf tarixi: xalq sənətkarlığı və dekorativ-tətbiqi sənət", "Gəncə memarlığı, tarixi abidələrin mühafizəsi və bərpası", "Milli-mənəvi dəyərlərin qorunmasında sənətkarlığın rolu" və "Üzeyir Hacıbəyli və Gəncə musiqi mədəniyyəti tarixi" adlı bölmələrdə davam etdirib.

Tədbirin sonunda çıxış edən məruzəçilərə sertifikatlar təqdim olunub. Konfransın materialları ayrıca toplu şəklində nəşr edilib.

***H.QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Naftalanda III MDB Oyunlarına hazırlıq görüşü



**Azərbaycanın ev sahibliyi edəcəyi III MDB Oyunları ilə bağlı geniş tərkibli görüş təşkil olunub. Görüş Naftalan Şəhər İcra Hakimiyyətinin inzibati binasında keçirilib.**

Toplantıda şəhər icra hakimiyyətinin başçısı, hüquq-mühafizə orqanlarının, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi və Dövlət Turizm Agentliyinin regional idarələrinin rəhbərləri, eləcə də hotel, müalicə-istirahət mərkəzləri və digər xidmət sahələrini təmsil edən qurumların nümayəndələri iştirak ediblər.

ŞİH başçısı Vüqar Novruzov Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkil olunacaq bu beynəlxalq tədbirin əhəmiyyətinə toxunaraq bildirib ki, III MDB Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunun bariz göstəricisidir.

Görüşdə qonaqların yerləşdirilməsi, onlara göstəriləcək xidmətlərin səviyyəsi, sanitar-gigiyenik tələblər, təhlükəsizlik və digər təşkilati məsələlər ətrafında geniş müzakirələr aparılıb. Aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib və operativ əlaqələndirmənin təmin olunması üçün konkret tədbirlər planı müəyyənləşdirilib.

Qeyd edək ki, III MDB Oyunları 2025-ci ilin sentyabrın 28-dən oktyabrın 8-dək keçiriləcək. Yarışlar "2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" elan olunmuş Gəncə şəhəri ilə yanaşı, Azərbaycanın daha 6 şəhərində təşkil olunacaq. İdman oyunları, ümumilikdə, 23 idman növünü əhatə edəcək.

***Q.HAMLET,***
***XQ-nin***
***bölgə müxbiri***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 202 (30896) 21 sentyabr 2025-ci il, bazar

# Bakı “Formula–1”in sehri ilə nəfəs alır

## *Dünya isə Bakını görür, ondan danışır*



**Dünən paytaxtın qəlbi bir daha yarış ritmi ilə döyündü. “Formula –1” Qatar Airways Azərbaycan Qran Prisi 2025-in ikinci günü Bakını həm sürət, həm də emosiyalarla doldurdu. Gün boyu üç əsas sessiya baş tutdu və hər biri azarkeşlər üçün ayrı bir həyəcan, ayrı bir tamaşa oldu.**

Səhər saatlarında “Formula–1” pilotları sonuncu sərbəst yürüşə çıxaraq bolidlərinin son sazlanmalarını sınadılar. Təcrübəli mühəndislərin hər addımına diqqətlə qulaq asan sürücülər trasda ən kiçik detalı belə yoxlamağa çalışırdı. Ardınca “Formula–2” pilotları sprint yarışına start verdilər. Onların gənclik həvəsi, qələbə arzusu, hər döngədəki riskləri azarkeşləri ayağa qaldırdı. Yarışda isə “Dams Lukas Oil” komandasından Cek Krouford qələbəni əldən vermədi. “Invicta Racing”in Leonardo Fornarolisi ikinci, “Prema Racing”in Qabriele Mini isə üçüncü oldu.

Lakin günün zirvə anı saat 16:00-da baş tutan sıralanma turu idi. Bakı Şəhər Halqasının dar döngələrində və uzun düzlüklərində bolidlərin gurultusu əks-səda verərkən, azarkeşlər nəfəsini içinə çəkib pilotların hər manevrini izləyirdi. Bu həyəcanlı mübarizədə - üç sessiyanın yekununda birinci olan pilot bəlli oldu. Ən yaxşı nəticəyə “Red Bull” komandasından Maks Ferstappen imza atdı. Niderlandlı sürücü əsas yarışda ilk sırada olacaq. “Williams” komandasından Karlos Sayns 2-ci, "Racing Bulls” komandasından Liam Louson isə 3-cü yeri tutdu.

Amma hər yarış olduğu kimi, bu dəfə də mübarizənin sərt anları yaşandı. “Williams” komandasının pilotu Aleks Albon qəza törədərək qırmızı bayraqların dalğalanmasına səbəb oldu. Daha dramatik hadisə isə “Ferrari” sürücüsü Şarl Leklerin Filarmoniyanın yaxınlığındakı 15-ci döngədə baryerlərə çırpılması idi. Onun komanda yoldaşı, yeddiqat çempion Lyuis Hemilton isə yalnız 12-ci yeri tutaraq sıralamanın ilk üç mərhələsinə yüksələ bilmədi. Hazırda çempionata 324 xalla Oskar Piastri liderlik edir. Onun ardınca 293 xalla Lando Norris, 230 xalla isə Maks Ferstappen gəlir.

Ümumiyyətlə, Bakı Şəhər Halqası 2016-cı ildən bəri “Formula–1” azarkeşlərini həm tarixi İçərişəhərin



dar küçələri, həm də Xəzər sahili boyu uzanan uzun düzlükləri ilə valeh edir. Bu trek təkcə texniki mürəkkəbliyi ilə deyil, həm də tamaşaya çevrilən gərgin mübarizələri ilə seçilir. Təsadüfi deyil ki, səkkiz yarışda yeddi fərqli qalibin olması Bakı Qran Prisini ən dramatik yarışlardan birinə çevirib.




Bu il Azərbaycan Qran Prisinin müqaviləsinin 2030-cu ilə qədər uzadılması xəbəri də yarış azarkeşləri üçün əlavə sevinc oldu. Bu qərar həm ölkəmizin beynəlxalq idman arenasındakı nüfuzunu gücləndirir, həm də gələcək nəsillərə idman sevgisini aşılamaq baxımından böyük əhəmiyyət daşıyır. Gənclər və idman naziri Fərid Qayıbovun sözləri də bu fikri təsdiqləyir: “Azərbaycan Qran Prisi artıq dünya çempionatının ən çox gözlənilən yarışlarından biridir. Bu əməkdaşlıq paytaxtımızın gözəlliyini və enerjisini dünyaya tanıdır”.

“Formula–1”-in prezidenti Stefano Domenikali isə Bakının möhtəşəm enerjisindən danışaraq Prezident İlham Əliyevə və yarışın təşkilatçılarına xüsusi təşəkkürünü bildirdi: “Bakı şəhərinin enerjisi inanılmazdır və 2016-cı ildə ilk Qran Primizdən bəri “Formula–1” burada daim Azərbaycan xalqı tərəfindən isti və səmimi şəkildə qarşılanıb. Bu trek texniki döngələri və Xəzər sahili ilə qədim şəhərdən keçən uzun düzlükləri ilə hər dəfə rəngarəng və maraqlı yarış təqdim edir. Müqavilənin uzadılması “Formula–1”, Azərbaycan hökuməti və promouter arasındakı güclü etimadı və əməkdaşlığı əks etdirir və ölkədə idmanın gələcəyi üçün yeni perspektivlər açır. Prezident İlham Əliyevə və nazir Qayıbova tədbirin inkişafına göstərdikləri davamlı dəstəyə görə təşəkkürümü bildirirəm. Anar Ələkbərova və Azərbaycan Avtomobil Federasiyasına ölkədə Formula 1-in inkişafına verdikləri töhfəyə, eləcə də Bakı Şəhər Halqası komandasına azarkeşlər, pilotlar və komandalar üçün ilboyu göstərdikləri əvəzsiz zəhmətə görə minnətdaram”.

Beləliklə, Bakı yalnız trasdakı həyəcanla deyil, həm də mədəni tədbirlərlə Formula 1 həftəsonunu əsl bayrama çevirib. Sentyabrın 19-da Bakı Kristal Zalında elektron musiqinin ulduzu Anyma möhtəşəm konsert proqramı ilə çıxış etdi. İtalyan-amerikalı DJ-in “Genesys” albomundan seçilən trekləri güclü vizual effektlər və səhnə şousu ilə birləşərək tamaşaçılara unudulmaz anlar yaşatdı. Eyni zamanda, bulvar boyunca qurulan əyləncə zonaları balaca “Formula–1” azarkeşlərinin sevinci ilə doldu. Bu festivalın ən duyğulu məqamlarından biri isə II Qarabağ müharibəsində qəhrəmanlıqla canından keçən şəhidlərimizin ailələrinin və qazilərimizin fəxri qonaq qismində dəvət olunması idi. Onların varlığı bu yarışa xüsusi məna qatdı, sürət bayramını qələbə ruhu ilə birləşdirdi.

Bir sözlə, Bakı bu həftəsonu bir daha sübut etdi ki, “Formula–1” yalnız bir idman yarışı deyil, həm də mədəniyyət, birlik və emosiyaların təntənəsidir. Həm trasda, həm də trasdan kənarda yaşananlar şəhəri qlobal idman səhnəsində unikal mövqeyə daşıyır.

*Səbuhi MƏMMƏDOV,*
*Cavid QAÇAYEV (foto)*
*XQ*

## İDMAN

### Şəkidə 30-cu ölkə birinciliyi



**MDB Oyunları öncəsi Şəkidə bədii gimnastika üzrə keçirilən 30-cu ölkə birinciliyi sınaq xarakteri daşıyır.**

Ölkə birinciliyinin milli yarışların proqramına əsasən keçirildiyini söyləyən Azərbaycan Gimnastika Federasiyasının meneceri Elmira Lələyeva bildirib ki, yarışda ölkəmizin müxtəlif bölgələrindən 130 gimnast qalib adı uğrunda mübarizə aparır. Yarış iştirakçıları paytaxtda və respublikanın bölgələrində fəaliyyət göstərən 13 klubu təmsil edirlər.

### Dünya çempionatında ilk qızıl medal



**Xorvatiyanın paytaxtı Zaqrebdə dünya çempionatı davam edir.**

Azərbaycanın yunan-Roma güləşçilərindən Ülvü Qənizadə (72 kq) yarımfinalda özbəkistanlı Abdulla Aliyevi 5:0 hesabı ilə məğlub edərək finala yüksəlib. O, həlledici qarşılaşmada fransalı İbrahim Qanemdən üstün olub– 4:2. Beləliklə, mundialda güləş yığmamız ilk qızıl medalını qazanıb.

Həsrət Cəfərov (67 kq) yarımfinalda qırğızıstanlı Razzak Beyşekeyevə 3:1 hesabıyla qalib gələrək dünya çempionatının finalına yüksəlib. Həsrət bu gün final görüşünə çıxacaq.

İslam Abbasov (87 kiloqram) belaruslu Stanislav Şafarenkanı (UWW) tam üstünlüklə (8:0) mübarizədən kənarlaşdırsa da, 1/8 finalda qırğızıstanlı Asan Janişova 3:4 hesabı ilə məğlub olub.

Murad Əhmədiyev (97 kg) 1/4 finalda ermənistanlı olimpiya, 4 qat dünya və 7 qat Avropa çempionu Artur Aleksanyanla qarşılaşıb. Titullu rəqibinə “tuş”la qalib gələn Murad yarımfinalda rusiyalı Artur Sarqsyana ilk xal prinsipinə əsasən (1:1) məğlub olub. Bürünc medal uğrunda döyüşdə macarıstanlı idmançıya qalib gələn Murad dünya üçüncüsü olub.

### İlham Zəkiyev 9-cu dəfə Avropa çempionu olub




**Azərbaycan paracüdoçusu İlham Zəkiyev (J1, +95 kq) Gürcüstanın paytaxtı Tbilisidə keçirilən Avropa çempionatında ən yüksək pilləyə qalxıb.**

O, 1/4 finalda moldovalı Oleq Kretulu məğlub edib. Yarımfinalda isə türkiyəli Gökhan Biceri ipponla üstələyən Zəkiyev həlledici mərhələdə moldovalı İon Basoku da ipponla məğlub edərək karyerasında 9-cu dəfə Avropa çempionu olub.

*Qabil YUSİFOĞLU*
*XQ*

*✓ Astara rayonu Kijəbə qəsəbəsi sakini Canızadə İsmət Rasim oğluna məxsus nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi (qeydiyyat nişanı 90KM743) itdiyi üçün etibarsız sayılır.*

# Yenə payız gəldi...

**Amma bu il də özünü bir az tez göstərdi. Astronomik təqvimə uyğunluğun son illərdə belə pozulması, şübhəsiz, insanların təbiətə vurduğu zərbələrin nəticəsidir.**



Son illər yaz fəslinin xeyli ləngiməsi, payızın vaxtsız-vədəsiz gələrək yerini də qışa xeyli əvvəl verməsinə, sanki öyrəşmişik. Bu yaxınlarda bir ekoloq–professor dedi ki, daha 4 yox, 2 fəsil var– yay və qış. Bəli, təbiətə elə bir zərbə vurulub, atmosfer qatları elə məhv edilib ki, bütövlükdə planetin tarazlığı pozulub. Bunu artıq bütün canlılar öz üzərində hiss edir.

Ötən il Bakıda keçirilən COP 29-da da məhz bunlar ciddi müzakirə edildi, dünyanın aparıcı ölkələrinin qarşısında öhdəliklər qoyuldu, təbiəti çirkləndirmə əmsalına görə hər kəsin, hər bir dövlətin məsuliyyət daşıdığı bir daha vurğulandı. Artıq əhəmiyyətsiz saydığımız bir çox məsələ atom bombası kimi bəşəriyyəti təhdid edir. Məsələn, bir damla su, kəsilən bir ağac, ovlanan bir heyvan və s. bu “bir”lər milyona, milyarda çevrilib təbiətin çəkilməz yükünə çevrilir. Bu “bir”lərin həyatımıza təsirindən artıq qaçmaq mümkün deyildir.

Mən payızdan yazmaq istəyirəm... Qızılı payızdan, bütün sevgilərin beşiyi olan payızdan. Mən payızın məhsullu bağlarından, durnaların qatar-qatar isti ölkələrə köçməsindən, yarpaqların pıçıltısından yazmaq istəyirəm. Payız yağışları məni islatsın, payız günəşinin zərrin şəfəqləri saralmış yarpaqların arasında cilvələnsin. Mən də budaqlarında sincablar qaçışan ağacın altında oturum və bu əsrarəngiz mənzərəni seyr edim. Nə yazıq ki, yaza bilmirəm.

Yağış yağanda içimi qorxu hissi bürüyür, dağ çaylarının selindən, küləklərin qasırğasından, şimşəklərin haranısa dağıtmasından, yandırmasından qorxuram. Təbiət çox amansız olub. Bumeranq kimi ona edilənləri bizə qaytarır. Hər gün eşitdiyimiz qorxunc xəbərlər zamanında edilən xəbərdarlıqları qulaqardına vurmağımızın nəticəsidir.

Payız təbiətin bir möcüzəsidir. Payız rənglər dünyasıdır. Payız təbiətin “Sarı gəlini”dir. İstisi 40 dərəcəni ötən yaydan sonra payızın ılıq nəfəsinə necə ehtiyacımız var. Payız insanlığın ilham mənbəyidir. Təbiətin müdriklik çağıdır. Torpağın nəyə qadir olduğunun bir sübutudur. Payız, eyni zamanda vüsal çağıdır. Toy səsinə bürünən el-oba bu sevinci doyunca yaşayırdı.

Müdriklər ömrün ahıl çağını da payıza bənzədirlər. Payız təbiətin bar-bəhrə çağıdır. İnsan əkdiyini biçir, yaz-yay zəhmətinin əvəzini payızda birə-beş götürür. Mən genefondu dəyişdirilən meyvələrdən, tərəvəzlərdən yazmaq istəmirəm. Bunlar yalnız təbiətə vurulan ziyan deyil, bunlar insanlıq əleyhinə edilən cinayətlərdir.

Gəlin, təbiəti özümüzə qarşı çevirməyək, yaradanın yaratdığına az müdaxilə edək. Bəlkə də o halda özümüzü xilas edə bilərik, bəlkə də onda yayımız yay, qışımız da qış olar. Bir nazlı gəlin timsalında payızı sevək, bir oyanış, bir təravət timsalında baharı tərənnüm edək. Gec deyil, vallah gec deyil, təbiəti özünə qaytaraq, gələcəyin təməl daşlarını sökməyək.

Payıq sən gözəlsən, sən təravətlisən, hüsnünə nə yazılsa, azdır. Sənsiz həyat olmaz. 3 ay tabla payızım, əbədiyyən tabla.

*Elmira MEHDİYEVA,*
*jurnalist*

**Zaqatala**

## *Hava*

# Aranda yağış, dağlarda qar

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Şimal-qərb küləyi arabir güclənəcək.**



Havanın temperaturu gecə 15-18, gündüz 18-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 13-16, gündüz 16-20, dağlarda gecə 0-5, gündüz 5-8 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3540
SİFARİŞ 1901
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00